“Vətənə, millətimə, xalqıma məhəbbət, müstəqil Azərbaycan dövlətinə, Azərbaycan Respublikasına hədsiz məhəbbət mənim həyatımın mənasıdır, məzmunudur” Heydər ƏLİYEV

RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 82 (10102) 10 may 2026-cı il BAZAR

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

## Prezident İlham Əliyev Ümummilli Lider Heydər Əliyevin 103-cü ildönümü ilə bağlı paylaşım edib




## Birinci vitse-prezident Mehriban Əliyeva: Dahi şəxsiyyətin nurlu, əziz xatirəsi qəlbimizdə daim yaşayacaqdır




## Cəbrayıl yeni dövrünü yaşayır



### Prezident İlham Əliyev Cəbrayıl rayonuna səfər edib

**Mayın 9-da İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şükürbəyli kəndinin açılışında iştirak edib, Şükürbəyli kəndində inşa edilmiş fərdi evlərdə yaradılmış şəraitlə tanış olub, Şükürbəyli kəndinə köçən sakinlərlə görüşüblər.**

**Həmin gün dövlət başçısı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva 150 çarpayılıq Cəbrayıl Rayon Mərkəzi Xəstəxanasının binasının tikintisi ilə tanış olublar.**

**Prezident İlham Əliyev Cəbrayıl rayonunun Soltanlı kəndində "Azərenerji" ASC-nin 330 kV-luq "Şəfəq" yarımstansiyasının açılışında iştirak edib.**

2-4

# DƏRİN HÖRMƏT VƏ EHTİRAMLA






## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Fəxri xiyabanda Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət ediblər

**Mayın 10-u müasir müstəqil Azərbaycanın memarı və qurucusu, xalqımızın dahi oğlu və Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 103-cü ildönümü günüdür.**

AZƏRTAC xəbər verir ki, bununla əlaqədar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 9-da Fəxri xiyabanda Ulu Öndərin məzarını ziyarət ediblər.

Prezident İlham Əliyev Ümummilli Lider Heydər Əliyevin məzarı önünə əklil qoydu, Ulu Öndərin xatirəsini ehtiramla yad etdi.

Sonra birinci xanım Mehriban Əliyeva Ümummilli Liderin xatirəsini dərin hörmətlə andı.



Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

Dövlətimizin başçısı və birinci xanım Ulu Öndər Heydər Əliyevin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın xatirəsinə ehtiramlarını ifadə edərək məzarı üzərinə gül dəstələri qoydular.

Tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin də xatirələri yad olundu.

## Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun məzarı ziyarət olunub



### Faşizm üzərində Qələbə uğrunda mübarizədə həlak olan Azərbaycan övladlarının xatirəsi ehtiramla anılıb

**Mayın 9-da faşizm üzərində tarixi Qələbədən 81 il ötür.**

AZƏRTAC xəbər verir ki, bu münasibətlə Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev və birinci xanım Mehriban Əliyeva iki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları general-mayoru Həzi Aslanovun məzarını ziyarət ediblər.

Dövlətimizin başçısı və birinci xanım Həzi Aslanovun abidəsinin önünə gül dəstələri qoyub, müharibədə həlak olan bütün Azərbaycan övladlarının xatirəsinə ehtiramlarını bildiriblər.

## Azərbaycanın özü qədər əbədi

# Müasir Azərbaycan Heydər Əliyevin memarlıq dühasının təcəssümüdür



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə 2026-cı il ölkəmizdə "Şəhərsalma və Memarlıq İli" elan edilib. Bu sərəncamın əsasında Azərbaycanın çoxəsrlik tarixə malik şəhərsalma və memarlıq ənənələrinin yaşadılması, ölkəmizdə bu sahədə yeni çağırışlara cavab verən mütərəqqi yanaşmaların təşviqi və tətbiqinin genişləndirilməsi məqsədi dayanır. Xüsusi qeyd edilməlidir ki, respublikamız iqlim dəyişmələri və şəhərsalma ilə əlaqədar qlobal çağırışların həllində etibarlı tərəfdaş kimi tanınır, bu sahələrdə nəticəyönümlü beynəlxalq tədbirlərə uğurla evsahibliyi edir, həmçinin dayanıqlı şəhərsalma proseslərində fəallığı ilə seçilərək böyük təcrübə qazanıb. BMT-nin Ümumdünya Şəhərsalma Forumunun On Üçüncü Sessiyasının (WUF13) Bakı şəhərində keçirilməsi barədə qərarın qəbul olunması Azərbaycanın dayanıqlı şəhərsalma proseslərində artan rolunu əyani şəkildə nümayiş etdirir.

Çoxəsrlik tarixinin müxtəlif mərhələlərində, Şərqlə Qərbin kəsişməsində güclü dövlətlər və sıx iqtisadi, siyasi, mədəni əlaqələr qurmuş Azərbaycanda UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edilmiş Şirvanşahlar Sarayı Kompleksi, Qız qalası, Xan sarayı, həmçinin çoxsaylı məscidlər, türbələr və digər mədəniyyət inciləri yaradılmış, tədricən şəhərlərin özünəməxsus siması formalaşmışdır. XlX əsrin ortalarından başlayaraq qısa zamanda dünyanın neft mərkəzlərindən birinə çevrilmiş Bakıda sürətli sənayeləşmə prosesinin təsiri altında Şərq və Qərb memarlığının sintezi hesab edilən təkrarolunmaz şəhərsalma modelinin əsası qoyulmuşdur. Təəssüf ki, XX əsrin əvvəllərində bolşevik işğalından sonra Azərbaycan daha çox xammal mənbəyi və aqrar ucqarlardan biri kimi qiymətləndirilmiş, qlobal tərəqqi prosesi fonunda malik olduğu yüksək potensialını tam reallaşdıra bilməmişdir. Lakin buna baxmayaraq, dövrün görkəmli memarlarının səyləri nəticəsində ölkəmizdə milli ənənələr zəminində yeni memarlıq üslubu yaranmış və yaşadılmışdır.

5-6

◆ Prezident İlham Əliyevin Cəbrayıl rayonuna səfəri

# Cəbrayıl yeni dövrünü yaşayır

## Dövlətimizin başçısı və birinci xanım Şükürbəyli kəndinin açılışında iştirak ediblər





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 9-da Cəbrayıl rayonunun Şükürbəyli kəndinin açılışında iştirak ediblər.**

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı əvvəlcə kənddə inşa edilmiş 360 şagird yerlik məktəb binasının açılışını edib.

Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Vahid Hacıyev, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev Şükürbəyli kəndində görülmüş işlər barədə dövlətimizin başçısına və birinci xanıma məlumat verdilər. Bildirildi ki, Şükürbəyli Cəbrayıl rayonunun eyniadlı inzibati ərazi dairəsində, rayon mərkəzindən 18 kilometr cənub-şərqdə, düzənlik ərazidə yerləşir. Kənd 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilib.



İşğaldan əvvəl kənddə məktəb, klub, kitabxana və xəstəxana fəaliyyət göstərib, əhali əsasən üzümçülük, heyvandarlıq, taxılçılıq və baramaçılıqla məşğul olub. Kənd 2020-ci ildə Vətən müharibəsi zamanı rəşadətli Azərbaycan Ordusu tərəfindən işğaldan azad edilib. Prezident İlham Əliyev 2023-cü ildə kəndin təməlini qoyub.

Sonra elm və təhsil naziri Emin Əmrullayev məktəbdə yaradılmış şərait barədə dövlətimizin başçısına və birinci xanıma məlumat verdi. Diqqətə çatdırıldı ki, işğaldan azad edilmiş digər ərazilərimizdə istifadəyə verilən yeni məktəblərdə olduğu kimi, bu təhsil müəssisəsində də müəllim və şagirdlər üçün hərtərəfli şərait yaradılıb. Məktəbdə tədrisin yüksək səviyyədə aparılması üçün zəruri fənn kabinetləri, həmçinin fizika, kimya, biologiya laboratoriyaları, informatika, texnologiya, ibtidai hərbi hazırlıq sinifləri var. Bundan başqa, məktəbdə kitabxana, akt və idman zalları, yeməkxana müəllim və şagirdlərin ixtiyarına verilib. Ərazidə, eyni zamanda futbol və basketbol meydançaları da yaradılıb.

Qeyd edək ki, müasir təhsil ocaqlarının qurulması işğaldan azad olunmuş ərazilərimizdə həyata keçirilən genişmiqyaslı quruculuq işlərinin mühüm tərkib hissəsidir. Ən yüksək standartlara cavab verən təhsil müəssisələri yeni texnologiyalarla, zəruri maddi-texniki baza ilə təchiz olunur.

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şükürbəyli kəndində fərdi evlərdə yaradılmış şəraitlə tanış olublar





**Mayın 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şükürbəyli kəndində inşa edilmiş fərdi evlərdə yaradılmış şəraitlə tanış olublar.**

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısına və birinci xanıma kənddə görülmüş işlər barədə məlumat verildi.

Bildirildi ki, Şükürbəyliyə rayonun Şıxalıağalı, Dəjəl kəndlərinin və Mahmudlu qəsəbəsinin sakinləri də daxil olmaqla, ümumilikdə 2522 nəfərin (615 ailə) köçürülməsi nəzərdə tutulur. İlkin mərhələdə 635 fərdi ev istifadəyə verilib. Onlardan 615-i sakinlər, 20-si isə xidməti istifadə üçündür. Evlər 2, 3, 4 və 5 otaqlıdır. Kənddə sakinlərin rahat yaşaması və sosial məsələlərin həlli üçün bir sıra işlər görülüb. Burada hər biri 80 yerlik olmaqla 2 körpələr evi-uşaq bağçası, həkim məntəqəsi, musiqi məktəbi, klub-icma mərkəzi və yerli icra strukturları üçün inzibati bina tikilib.



Şükürbəyli kəndində 35/10 kV-luq elektrik yarımstansiyası inşa edilib, elektrik enerjisi, təbii qaz, içməli su, rabitə, həmçinin internet və "İP TV" şəbəkələri yaradılıb, yollar asfaltlanıb.

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Cəbrayıl rayonunun Şükürbəyli kəndinə köçən sakinlərlə görüşüblər

**Mayın 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Cəbrayıl rayonunun Şükürbəyli kəndinə köçən sakinlərlə görüşüblər. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı görüşdə çıxış etdi.**

### Prezident İlham Əliyevin çıxışı

- İlk növbədə, sizi doğma vətənə qayıtmağınız münasibətilə təbrik edirəm. Şükürbəyli kəndi tamamilə yenidən qurulub. Bildiyiniz kimi, işğal dövründə Ermənistan dövləti bu kəndi tamamilə dağıtmışdı, bir dənə də salamat bina qalmamışdı. Mənim keçmiş köçkünlərlə işğal dövründə çoxsaylı görüşlərim zamanı həmişə deyirdim ki, biz torpaqları azad edəndən sonra bütün şəhərləri, kəndləri quracağıq, onları daha gözəl vəziyyətə gətirəcəyik və bu gün Şükürbəyli kəndinin timsalında bunu görürük. Kənd çox müasirdir, yaşamaq, çalışmaq, təhsil almaq üçün bütün şərait - məktəb, musiqi məktəbi, iki uşaq bağçası, tibb məntəqəsi, əlbəttə, gözəl, yaraşıqlı evlər var ki, burada siz - Şükürbəyli kəndinin sakinləri rahat yaşayasınız.

Uzun illər ərzində bu torpaqlar işğal altında olub. Ermənistan dövləti Azərbaycan xalqının irsini bu ərazidən tamamilə silmək istəmişdir, ancaq buna nail olmamışdır. Baxmayaraq ki, şəhər və kəndlərimiz viran qoyulub, Azərbaycan xalqının tarixi yaddaşı heç vaxt silinməmişdir. Bilirəm ki, siz və bütün keçmiş köçkünlər bir arzu ilə - öz doğma torpaqlarına qayıtmaq arzusu ilə yaşamısınız. Bəziləriniz Biləsuvar rayonunda dövlət xətti ilə verilmiş evlərdə məskunlaşmısınız, bəziləriniz özünüz üçün hansısa şərait qurmusunuz. Amma əlbəttə ki, doğma torpaq, doğma vətən hər şeydən daha əzizdir.

Bu gün çox gözəl bir gündür, tarixi bir gündür, ədalətin təntənəsi günüdür. Biz - bu torpaqların sahibləri nəinki bu torpaqları düşmən əlindən döyüşərək aldıq, şəhidlər verərək aldıq, eyni zamanda bu torpaqları canlandırdıq. İşğal dövründə Ermənistan dövləti Cəbrayıl rayonunda bir daşı daş üstə qoymamışdı. Düzdür, yol çəkmək istəyirdi, amma buna vaxtı çatmadı. Amma bir daşı daş üstə qoymamışdır. Cəbrayıl tamamilə yerlə yeksan edilmişdir, nə şəhərdə, nə də ki, kəndlərdə bir dənə də salamat bina qalmamışdı, Ağdam kimi. Zəngilanda tək-tük ev qalmışdı, orada qanunsuz məskunlaşma da aparırdılar. Amma Füzuli, Ağdam, Cəbrayıl tamamilə dağıdılmışdır. Evlər söküldü, daşlar talan edildi, müxtəlif yerlərdə bazarlarda satıldı. Biz isə qurub-yaradırıq. İndi Cəbrayıl rayonunda bir neçə min insan yaşayır. İlk növbədə, Cəbrayıl şəhərində, - şəhərin mərkəzi də buradan o qədər də uzaq deyil, - ondan sonra Horovlu kəndində, Cocuq Mərcanlıda. Aprel döyüşlərindən sonra biz o kəndi yenidən qurduq. Ən çox insanlar burada yaşayacaq, hələlik 635 ev. Amma mənə verilən məlumata görə, köçmək, qayıtmaq istəyənlərin sayı daha çoxdur, təqribən 900-dən çoxdur. Ona görə kəndin ikinci mərhələsini də biz nəzərdə tuturuq.



Əlbəttə ki, yaşayışla əlaqədar, təhsillə bağlı məsələlər həll olunduqca, məşğulluq məsələləri də həll edilir. Burada da vətəndaşların məşğulluğunu təmin etmək üçün bütün müvafiq göstərişlər verildi - həm mövcud olan dövlət sektorunda iş yerləri təbii ki, təqdim olunur, ondan sonra kənd təsərrüfatı ilə məşğul olmaq üçün, xüsusilə heyvandarlıq və bitkiçiliklə. Bunlardan başqa, Cəbrayıl rayonunda sənaye zonası - "Araz Vadisi" Sənaye Zonası fəaliyyət göstərir, orada da böyük sahəni biz nəzərdə tutmuşuq, 200 hektar sahə ayrılıb. Bu sənaye zonasında indi 20 rezident var, artıq istehsala da başlamışlar. O, daha da böyüyəcək, o da buradan çox da uzaqda deyil. Onu da bildirməliyəm ki, azad edilmiş ərazilərdə biz cəmi iki sənaye zonası nəzərdə tutmuşuq - biri Ağdamda, biri də Cəbrayılda.

Ümumiyyətlə, Cəbrayılın gələcəkdə həm kənd təsərrüfatı, həm də nəqliyyat nöqteyi-nəzərindən ölkəmiz üçün böyük töhfəsi olacaq. Köhnə yolu siz yəqin ki, xatırlayırsınız, sovet vaxtında - işğala qədər çox ensiz bir yol idi, düz Araz çayının boyunca gedirdi. Onu biz bərpa etdik, amma yeni yol, - indi bilmirəm, siz onu görmüsünüz, yoxsa yox, - Zəngəzur dəhlizinin bir hissəsi olan, ta Ermənistan sərhədinə gedən dördzolaqlı yol. Yəni bunun ondan yuxarı standartları da yoxdur. Ona görə nəqliyyat məsələləri də burada həll olunur və gələcəkdə Cəbrayıl, beynəlxalq nəqliyyat dəhlizi üzərində qurulan şəhər və kəndlər bundan faydalanacaq.

Cəbrayılda bizim ən böyük Günəş-elektrik stansiyaları inşa edilir - üç stansiya, ümumi gücü 340 meqavat. Yəni bu gün 340 meqavatla bütün Qarabağı işıqlandırmaq olar. Amma nəzərə alsaq ki, biz artıq Zəngilanda, Laçında, Kəlbəcərdə 300 meqavatdan çox su-elektrik stansiyaları işə salmışıq, təqribən bir-iki il ərzində bu bölgənin Günəş və su potensialı elektrik istehsalı üçün 700 meqavata yaxın olacaq. Yəni bu, ölkə üçün, məşğulluq üçün çox böyük xeyir gətirəcək. Yəni azad edilmiş bütün bu ərazilər ölkəmizin bütün başqa əraziləri ilə bağlanır - yollarla, hava limanları ilə, elektrik və su xətləri ilə. İndi "Xudafərin", "Qız qalası" su anbarlarının suyundan da istifadə edəcəyik, orada elektrikdən də istifadə edəcəyik. Beləliklə, bir daha bütün dünyaya göstərəcəyik ki, biz qurub-yaradan xalqıq, eyni zamanda döyüşən xalqıq. Bu torpaqları biz qan tökərək qaytarmışıq, - Allah bütün şəhidlərimizə rəhmət eləsin, - parlaq Qələbə qazanmışıq, bu Qələbənin müasir tarixdə tayı-bərabəri yoxdur, yəqin ki, olmayacaq və biz bu əbədi Qələbə ilə fəxr etməliyik. Gənc nəsil də evlərdə, ailələrdə, məktəblərdə bu ruhda tərbiyə almalıdır ki, biz müzəffər ölkə, xalq kimi bundan sonra qürurla yaşayaq.

Sizi ürəkdən təbrik edirəm, sizə cansağlığı arzulayıram.

❖❖❖

**Sakinlər:** Çox sağ olun, cənab Prezident.

**Kişi sakin:** Möhtərəm Prezident, bu kənddə boya-başa çatan bir adam, burada çalışan bir müəllim kimi bu gün Sizinlə bu görüşümüz bizim üçün tarixi bir hadisədir. Sizin uğurlu siyasətinizin, qəhrəman oğullarımızın şücaəti nəticəsində bu doğma torpaqlarımız bizə qayıtdı. Mən 40 yaşımda buradan çıxmışam, indi 73 yaşım var. Mən Sizinlə fəxr edirəm. Sizin bütün çıxışlarınızı, xarici jurnalistlərə verdiyiniz cavabları - hamısını diqqətlə izləyirik və Sizinlə fəxr edirik. Biz də çalışacağıq ki, Sizin adınızı həmişə ucaldaq.

**Prezident İlham Əliyev:** Sağ olun, çox sağ olun.

**Kişi sakin:** Mübarizə aparırsınız. Burada da, xaricdə də, başqa ölkələrdə də, istəyənlərin arasında da, istəməyənlərin arasında da mübarizə aparırsınız, dəmir iradənizi nümayiş etdirirsiniz. Sülhün, əmin-amanlığın tərəfində dayanıb bütün xalqlara onu aşılayırsınız. Mübarizə bu gün də var, sabah da. Siz də onun ən ön sıralarında.

**Prezident İlham Əliyev:** Sizin kimi insanlar, Azərbaycan xalqı mənim arxamda, dövlətin arxasında durduqca bizim də təbii ki, gücümüz artır. Sağ olun, təşəkkür edirəm sizə. Təbrik edirəm.

**Sakinlər:** Sağ olun.

**Qadın sakin:** Möhtərəm Prezident, əziz Mehriban xanım. Mən də bir neçə kəlmə demək istəyirəm. Bu gün bizə bu tarixi günü yaşatdığınız üçün, bizi öz torpaqlarımıza qovuşdurduğunuz üçün Sizə ürəkdən cansağlığı, uzun ömür arzulayıram. Mən müəllimən. Bir məsələni yada salmaq istəyirəm. Bu gün bizim görüşümüz elə bir tarixi günə təsadüf edir ki, Ulu Öndərimizin doğum günü ərəfəsindəyik, onu biz bütün respublika səviyyəsində qeyd edirik. Mən də Ulu Öndərimizi ürəkdən şəxsən çox sevən, hörmət edən bir müəllimən, tələbə vaxtımdan da sevmişəm. Onun çıxışlarını dinləyəndə həmişə deyirdi ki, biz Qarabağa qayıdacağıq, o gün gələcək. Möhtərəm Prezident, onun qoyduğu o böyük siyasəti Siz elə bir uğurla davam etdirdiniz ki, bu gün Qarabağ artıq bizimdir. Qarabağın bütün bölgələrində artıq quruculuq işləri başlayıb, bütün həyat canlanır, insanlar öz doğma yurdlarına qovuşublar. Buna görə Sizə minnətdarıq, təşəkkür edirik.

**Prezident İlham Əliyev:** Sağ olun.

**Həmin qadın sakin:** Mehriban xanım, Siz həmişə köçkünləri, uşaqları, insanları, qadınları dinləmisiniz, yanlarında olmusunuz. Allah Sizə də uzun ömür, cansağlığı versin. Siz bizim Prezidentimizin ən yaxın köməkçisi və silahdaşı, arxasısınız. Sizə də uzun ömür, cansağlığı arzulayıram.

**Mehriban Əliyeva:** Çox sağ olun.

**Prezident İlham Əliyev:** Sağ olun, təşəkkür edirəm, təbrik edirəm.

**Qadın sakin:** Allah sizə cansağlığı versin. Sizinlə qürur duyuruq.

**Prezident İlham Əliyev:** Sağ olun, sizə də cansağlığı, uzun ömür arzulayıram. Doğma torpaqda rahat yaşayacaqsınız, inşallah.

**Sakinlər:** İnşallah.

**Qadın sakin:** Çalışacağıq ümidinizi doğruldaq həmişə.

**Prezident İlham Əliyev:** Əminəm ki, belə də olacaq.

❖❖❖

Sonra açarların təqdim edilməsi mərasimi oldu.

❖❖❖

Dəvət olunur, Rüstəmov Yusif İsa oğlu.

**Prezident İlham Əliyev:** Təbrik edirəm.

**Yusif Rüstəmov:** Sağ olun, çox sağ olun.

Həsənova Zenfira Famil qızı.

**Prezident İlham Əliyev:** Təbrik edirəm.

**Zenfira Həsənova:** Çox sağ olun.

Seyidalıyev İlqar Səməd oğlu.

**Prezident İlham Əliyev:** Təbrik edirəm.

**İlqar Seyidalıyev:** Cənab Prezident, çox sağ olun, çox var olun ki, bu gün burada iştirak edirsiniz. Bizim ən əlamətdar günlərimizdən biridir. Yoldaşım da buradadır, bu gün bizim toy günümüzdür.

**Prezident İlham Əliyev:** Təbrik edirəm!

**İlqar Seyidalıyev:** 34 il əvvəl bu kənddə, - ikinci ev mənim atamın evidir, - orada çadır qurub toy etmişik. Mən fəxr edirəm ki, Siz bizim toy günümüzdə Mehriban xanımla birgə iştirak etmisiniz.

**Prezident İlham Əliyev:** Biz gedəndən sonra yəqin ki, qeyd edəcəksiniz.

**İlqar Seyidalıyev:** Çox sağ olun, çox var olun!

**Prezident İlham Əliyev:** Təbrik edirəm, sağ olun. Neçənci ildə evlənmisiniz?

**İlqar Seyidalıyev:** 1992-ci ildə.

**Mehriban Əliyeva:** Təbrik edirəm sizi.

**İlqar Seyidalıyev:** Çox sağ olun.

**Prezident İlham Əliyev:** 1992-ci ildə, işğala bir il qalmış.

**İlqar Seyidalıyev:** Bəli.

**Prezident İlham Əliyev:** Sonra haraya köçdünüz işğal dövründə?

**İlqar Seyidalıyev:** Mən bu zastavanın rəisi idim, öz kəndimizdə hərbçi idim. İşğaldan sonra da xidmətə davam etdim.

**Prezident İlham Əliyev:** Bəs işğal dövründə harada məskunlaşmışdınız?

**İlqar Seyidalıyev:** Ailəm İmişlidə, mən də döyüşlərdə.

*Ardı 3-cü səh.*

◆ Prezident İlham Əliyevin Cəbrayıl rayonuna səfəri

# Cəbrayıl yeni dövrünü yaşayır

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Cəbrayıl rayonunun Şükürbəyli kəndinə köçən sakinlərlə görüşüblər





*Əvvəli 2-ci səh.*



Babayev Mayis Allahverdi oğlu.

**Mayis Babayev:** Çox sağ olun, təşəkkür edirəm.

**Prezident İlham Əliyev:** Təbrik edirəm.

Fətəliyeva Mina Cəlil qızı.

**Mina Fətəliyeva:** Çox sağ olun, təşəkkür edirəm.

**Prezident İlham Əliyev:** Təbrik edirəm, siz burada, bu kənddə müəllim olmusunuz?

**Mina Fətəliyeva:** Bəli, təyinatımla ilk dəfə buraya müəllim gəlmişəm, 1990-cı ildə.

**Prezident İlham Əliyev:** Özünüz buralısınız, yoxsa?

**Mina Fətəliyeva:** Yox, mən rayonun özündənəm. Buraya müəllim gəldim.

**Prezident İlham Əliyev:** Burada müəllim işləmisiniz?

**Mina Fətəliyeva:** Bəli, müəllim işləmişəm. İndi də təzədən burada, inşallah, pedaqoji fəaliyyəti davam etdirəcəyik.

**Prezident İlham Əliyev:** Bəli, məktəbdə yəqin ki?

**Mina Fətəliyeva:** İnşallah.

**Prezident İlham Əliyev:** Ya burada, ya da ki, Cəbrayıl şəhərində.

**Mina Fətəliyeva:** Yox, elə burada, kənddə.

**Prezident İlham Əliyev:** Burada məktəb də çox gözəldir.

**Mina Fətəliyeva:** Burada davam edəcəyik, inşallah.

**Prezident İlham Əliyev:** Bəli, mütləq.

**Mina Fətəliyeva:** Ailə üzvlərimlə şəkil çəkdirə bilərik?

**Prezident İlham Əliyev:** Bəli, gəlin çəkdirək. Siz harada yaşamısınız işğal dövründə?

**Mina Fətəliyeva:** İşğal dövründə buradan çıxdıq, getdik İmişliyə.

**Kişi sakin:** İmişlidə, bir hissəsi də Bakıda.

**Prezident İlham Əliyev:** Bakıda harada?

**Kişi sakin:** Yataqxanada, Sabunçu rayonu ərazisində. Özüm də Mərkəzi Seçki Komissiyasında işləmişəm bu ilə qədər. Bu il yaşa görə çıxmışam.

**Prezident İlham Əliyev:** Bu günlərə qədər yataqxanada? Çətin bir həyat - yataqxanada 30 il yaşamaq.

**Mina Fətəliyeva:** Otaq balaca.

**Prezident İlham Əliyev:** Neçə otağınız var idi?

**Mina Fətəliyeva:** Bir otaq. Şükür Allaha bu günü bizə yaşatdığınız üçün.

**Prezident İlham Əliyev:** Siz buna layiqsiniz.

**Mina Fətəliyeva:** Ürəkdən, səmimi-qəlbdən Sizə təşəkkür edirik. Artıq geniş otaqlarımız, mənzilimiz, həyətimiz, torpağımız, Vətənimiz! Çox sağ olun, Sizin sayənizdə.

**Prezident İlham Əliyev:** Təmiz hava, gözəl təbiət, əsas da doğma Vətən torpağı.

**Mina Fətəliyeva:** Çox sağ olun!

**Prezident İlham Əliyev:** Təbrik edirəm bir daha.

Əhmədov Əliyar Teymur oğlu.

**Prezident İlham Əliyev:** Təbrik edirəm.

**Əliyar Əhmədov:** Çox sağ olun, mən də kəndimizin sakinləri adından sizlərə dərin təşəkkürümüzü bildiririk ki, bizi bu doğma yurdumuza qaytardınız.

**Prezident İlham Əliyev:** Sağ olun, təbrik edirəm.

Hüseynova Nuranə Sergey qızı.

**Prezident İlham Əliyev:** Təbrik edirəm.

**Nuranə Hüseynova:** Çox sağ olun, minnətdaram.

Abbasov Qədir Famil oğlu.

**Prezident İlham Əliyev:** Təbrik edirəm.

**Qədir Abbasov:** Çox sağ olun.

Məmmədova Ülviyyə Məmməd qızı.

**Prezident İlham Əliyev:** Təbrik edirəm.

**Ülviyyə Məmmədova:** Çox sağ olun.

**Kişi sakin:** İcazə olar, şəkil çəkdirək?

**Prezident İlham Əliyev:** Bəli, əlbəttə.

**Kişi sakin:** Çox sağ olun.

**Prezident İlham Əliyev:** Təbrik edirəm sizi.

Rəsulov Rəhman Çingiz oğlu.

**Prezident İlham Əliyev:** Təbrik edirəm.

**Rəhman Rəsulov:** Çox sağ olun, cənab Prezident.

**Prezident İlham Əliyev:** Sən cavansan. Sən də burada doğulmusan, yoxsa?

**Rəhman Rəsulov:** Bəli, mən 8 yaşımda olanda buradan çıxmışıq. İndi 40 yaşım var, mən də müəllim kimi pedaqoji fəaliyyətimi burada davam etdirmək istəyirəm.

**Prezident İlham Əliyev:** Harada işləyirdin bu vaxta qədər?

**Rəhman Rəsulov:** Bu vaxta qədər Biləsuvar ərazisində yerləşən 10 saylı qəsəbədə.

**Prezident İlham Əliyev:** İndi burada davam edərsən.

**Rəhman Rəsulov:** İnşallah, çox sağ olun.

**Prezident İlham Əliyev:** Təbrik edirəm.

**Mehriban Əliyeva:** Cənab Prezident, Əli ilə bir daha şəkil çəkmək olar? Əvvəl ikisi ilə. Buyurun.

**Prezident İlham Əliyev:** Əlbəttə.

**Mehriban Əliyeva:** Təbrik edirəm sizi.

**Prezident İlham Əliyev:** Gəlin, ayrı-ayrılıqda çəkdirək. Sonra da hamımız birlikdə.

**Sakin:** Şərqin lideri, Şərqin fatehi Nadir şah oldu, Qafqazın da fatehi Sizsiniz.

**Prezident İlham Əliyev:** Sağ olun, çox sağ olun.

❖❖❖

Şəkillər çəkdirilir.

❖❖❖

**Prezident İlham Əliyev:** Siz harada işləmisiniz?

**Qadın sakin:** Mən işləməmişəm.

**Prezident İlham Əliyev:** Yəqin ki, Bakıda yaşamısınız.

**Qadın sakin:** Bəli.

**Prezident İlham Əliyev:** Burada, bilirsiniz, elə kəndlər, şəhərlər salınır ki, paytaxtdan da geri qalmayacaq.

**Sakinlər:** İnşallah, Sizin sayənizdə.

**Prezident İlham Əliyev:** Əsas odur ki, doğma Vətən torpağıdır. Əlbəttə ki, bu torpaqları canlandırmaq lazımdır.

**Kişi sakin:** Dəqiqələri sayırdım mən buraya gəlməyə, and olsun Allaha.

**Prezident İlham Əliyev:** Bir neçə gün bundan əvvəl kənd təsərrüfatı sərgisində idim. Orada da maraqlanırdım, çünki torpaqlar işğaldan azad olunandan sonra birinci göstərişlərdən biri də o idi ki, bu torpaqları biz yenidən əkin dövriyyəsinə qaytaraq. Hər dəfə, hər il əkin-biçin mövsümündən sonra arayış alıram və baxıram taxılçılığın inkişafı nə qədərdir. Ölkə üzrə yaxşı gedir, indi köhnə leksikonla desək, təqribən 35 sentner/hektardan, əslində, 3,5 ton. Maraqlanıram, Qarabağda nə qədərdir, çox az və sual yaranır ki, nə üçün? Çünki burada məsələn, torpaq çox münbitdir, siz də yaxşı bilirsiniz, çox məhsuldardır. Mənə indi izahat verilir ki, özü də xarici mütəxəssislər, o cümlədən ermənilər bu torpağı o qədər əziblər, o qədər qaydasız istismar ediblər ki, bu torpaqları canlandırmaq üçün bəlkə də 5-10 il vaxt lazımdır. Ona görə də burada necə ki, bizim bütün təbii sərvətlərimizi talayıblar, istismar ediblər, torpağımızı da demək olar ki, böyük dərəcədə bərbad vəziyyətə salıblar. Ona görə indi müasir aqrotexniki tədbirlər, müasir suvarma sistemləri və kənd təsərrüfatının inkişafı ilə bağlı ümumi strategiyamız əsasında bu torpaqları canlandırmaq lazımdır. Çünki siz də yaxşı bilirsiniz ki, Azərbaycanın bir çox bölgələrində çox münbit torpaqlar var, o cümlədən Qarabağda və Şərqi Zəngəzurda. Sovet vaxtında burada üzümçülüyü yəqin ki, xatırlayırsınız.

**Sakinlər:** Bəli, pambıqçılıq, üzümçülük, ən qabaqcıl kolxoz olub bizimki. 6-7 kənd bizə baxırdı. Sosialist Əməyi Qəhrəmanı Köçəri Babayevin kolxozu idi.

**Prezident İlham Əliyev:** Burada nə idi o kolxozun ixtisaslaşması?

**Sakinlər:** Burada üzümçülük, baramaçılıq, maldarlıqla məşğul idik. Bizim 1200 baş iribuynuzlu mal-qaramız olub.

**Prezident İlham Əliyev:** Hamısını bərpa etmək lazımdır.

**Sakin:** Kolxozun mühasibi idi bu.

**Kişi sakin:** 12 min baş qoyunumuz olub, toyuğun sayı-hesabı yox idi.

**Prezident İlham Əliyev:** Siz gərək o səviyyəyə qaldırasınız. Həm siz, həm gənc nəsil. Çünki burada heyvandarlıq da, üzümçülük də olub. Bu bölgədə - Zəngilanda, Qubadlıda tütünçülük də olub, burada necədir bilmirəm.

**Sakinlər:** Bizdə tütün olmayıb.

**Prezident İlham Əliyev:** Olmayıb. Maldarlıqla bağlı.

**Sakinlər:** Maldarlıq bizdə ən yüksək səviyyədə idi. İpək olub - biz ildə 19 ton əvəzinə, 26 ton barama vermişik.

**Prezident İlham Əliyev:** Camaat da yaxşı dolanırdı.

**Sakinlər:** Çox, çox, yəni milyoner kolxoz idik biz.

**Prezident İlham Əliyev:** Gərək siz buranı dövlətin dəstəyi ilə o hala gətirəsiniz.

**Kişi sakin:** Bizim kolxozumuz çox qabaqcıl kolxoz olub.

**Prezident İlham Əliyev:** Sonra Sovet İttifaqı dağıldı. Kolxoz qalmışdı, ya dağıldı?

**Sakinlər:** Yox, dağılmadı, bizdə qaldı. Köçəri Babayev rəhmətə getdi, kolxoz da dağıldı. O, çox işləyən adam olub, 71 yaşında rəhmətə gedib. Mən onunla çox işləmişəm. Yəni o, ölən gününə qədər işlədi. Bir yerə gedəndə bir 12 vərəqli dəftər yazırdı ki, filan işlər görülsün. Çox qayda-qanunla işləyirdi.

**Prezident İlham Əliyev:** İndi texnologiyalar daha da inkişaf edib. Müasir intensiv bağçılıq texnologiyaları var. Baxın, qonşuluqda yerləşən Ağalı kəndinə. Orada böyük bağ salınıb. İndi mənə məlumat verirlər ki, oradan yığılan meyvələri xaricə də satırlar. Ona görə bağçılıq, üzümçülük, taxılçılıq, baramaçılıq, heyvandarlıq dövlətin dəstəyi ilə inkişaf etməlidir.

**Kişi sakin:** Biz üzümü vaqonla xaricə satırdıq.

**Prezident İlham Əliyev:** Zavod var idi?

**Sakinlər:** Şərab zavodu, çox böyük idi. Ən böyük bizdə idi.

**Prezident İlham Əliyev:** Sisternlərlə göndərilirdi?

**Sakinlər:** Bəli, sistern gəlib dayanırdı, çənlərdən içinə şərab vurulurdu.

**Prezident İlham Əliyev:** Yaxın gələcəkdə biz kənd təsərrüfatının inkişafına dair dövlət proqramı qəbul edəcəyik, bu məsələlər orada nəzərdə tutulacaq, o cümlədən dövlət vəsaiti. Əsas odur ki, buraya qayıdan keçmiş köçkünlər gecə-gündüz çalışsınlar, həm öz dolanışıqlarını təmin etsinlər, həm də dövlətə xeyir versinlər.

**Kişi sakin:** Möhtərəm Prezident, rayonun, səhv etmirəmsə, 28 müəssisəsinin idarəsi burada - bu kənddə idi. Kimya birliyi, kənd təsərrüfatı texnikası stansiyası, kinoprokat.

**Prezident İlham Əliyev:** Ən böyük kəndlərdən biri idi? Bundan böyüyü var idi?

**Sakinlər:** Mərcanlı böyük idi. Böyük Mərcanlı, Soltanlı. O, bizdən böyük idi, amma stansiya burada olduğuna görə rayonun anbarı burada idi. Çünki məsələn, başqa yerdə olsa, daşımaq gərək idi.

**Kişi sakin:** 7-8 rayonun kinoprokat idarəsi burada yerləşirdi.

**Prezident İlham Əliyev:** Soltanlıda indi yarımstansiya və aqroparklar açılır. Müharibə zamanı Soltanlı uğrunda gedən döyüşlər ən şiddətli döyüşlərdən idi. Orada ermənilər güclü istehkamlar qurmuşdular. Soltanlı uğrunda şəhidlərimiz də olub. Ancaq o kəndi biz azad edəndən sonra daha sürətlə irəli getdik. Orada, yəni bax, bu bölgədə, - Arazboyu bölgəsində, - bəlkə də birinci Füzulinin o Qaraxanbəyli kəndi, sonra Mərcanlı idi ki, biz birinci o xətti oradan yarıb keçdik. Sonra ən şiddətli döyüşlər Soltanlıda getmişdi. Bütün bu torpaqlar bizim qəhrəmanlıq simvolumuzdur.

**Sakinlər:** Bəli. Allah şəhidlərimizə rəhmət eləsin.

**Prezident İlham Əliyev:** Bunu yaşatmaq, uşaqlara öyrətmək lazımdır. Tərbiyə etmək lazımdır. Bizim qədər, tam, yəni mütləq Qələbə qazanan ikinci ölkə yoxdur. Ən azı son 80 ildə və ondan sonra da olmayıb. Bax bu, qürur mənbəyidir.

**Kişi sakin:** Dünya da bizi tanıdı.

**Prezident İlham Əliyev:** Və hörmət etməyə başladı.

**Qadın sakin:** Möhtərəm Prezident, Şah İsmayıl Xətaidən sonra Azərbaycanı hissə-hissə qoparıb dağıdıblar. Azərbaycanın torpağını geri qaytaran bir ali baş komandanımız, komandanımız, sərkərdəmiz olmayıb. Birinci dəfədir ki, biz əlimizdən alınan torpaqları geri qaytarmışıq.

**Kişi sakin:** Bəli, son 200 ildə.

**Prezident İlham Əliyev:** Sağ olun. Sizə cansağlığı, xoşbəxtlik arzulayıram.

**Sakinlər:** Sağ olun.

◆ Prezident İlham Əliyevin Cəbrayıl rayonuna səfəri

# Cəbrayıl yeni dövrünü yaşayır

## Cəbrayıl Rayon Mərkəzi Xəstəxanasının binasının tikintisi ilə tanışlıq





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 9-da 150 çarpayılıq Cəbrayıl Rayon Mərkəzi Xəstəxanasının binasının tikintisi ilə tanış olublar.**

AZƏRTAC xəbər verir ki, səhiyyə naziri Teymur Musayev dövlətimizin başçısına və birinci xanıma görülmüş və nəzərdə tutulan işlər barədə məlumat verdi.

Qeyd edək ki, bu xəstəxana binasının təməli Prezident İlham Əliyev tərəfindən 2021-ci ildə qoyulub. Ərazisi 5 hektara yaxındır. Xəstəxanada terapiya, cərrahiyyə, pediatriya, doğum, yoluxucu xəstəliklər, anesteziologiya-reanimasiya, hemodializ və digər şöbələr fəaliyyət göstərəcək. Bundan başqa, poliklinika, şüa-diaqnostika, funksional-diaqnostika, fizioterapiya və tibbi bərpa şöbələri, klinik diaqnostika laboratoriyası yaradılacaq. Hazırda əsas bina ilə yanaşı, yoluxucu xəstəliklər, hemodializ və poliklinika korpusları, təcili tibbi yardım stansiyası, həmçinin Cəbrayıl Rayon Gigiyena və Epidemiologiya Mərkəzinin və digər binaların inşası davam etdirilir.



## Cəbrayıl rayonunun Soltanlı kəndində "Şəfəq" yarımstansiyası istifadəyə verilib






**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 9-da Cəbrayıl rayonunun Soltanlı kəndində "Azərenerji" ASC-nin 330 kV-luq "Şəfəq" yarımstansiyasının açılışında iştirak edib.**

AZƏRTAC xəbər verir ki, "Azərenerji" ASC-nin İdarə Heyətinin sədri Balababa Rzayev dövlətimizin başçısına görülmüş işlər barədə məlumat verdi.

Diqqətə çatdırılıb ki, işğaldan azad edilmiş ərazilərdə ilk sənaye miqyaslı Günəş-elektrik stansiyası və ən böyük, birbaşa xarici investisiya layihəsi olaraq BP şirkəti tərəfindən Cəbrayılda tikilən 240 meqavatlıq "Şəfəq" Günəş-Elektrik Stansiyasının enerjisistemə inteqrasiyası üçün Azərbaycan dövləti tərəfindən irihəcmli işlər həyata keçirilib.

Bu çərçivədə "Azərenerji" tərəfindən Cəbrayılda 330 kV-luq rəqəmsal yarımstansiya tikilib və bu yarımstansiyanı ölkənin enerji şəbəkəsinə qoşmaq üçün "Cəbrayıl" Enerji Qovşağına 7,5 kilometr uzunluğunda 330 kV-luq ikidövrəli yüksəkgərginlikli ötürmə xətti çəkilib. Bu infrastruktur "yaşıl enerji"nin ölkə üzrə hərəkətini təmin edən strateji bir körpüdür.

Yarımstansiya müasir rəqəmsal sistemlər, açıq və qapalı, həmçinin idarəetmə qurğuları, Rəqəmsal İdarəetmə Mərkəzi ilə təchiz edilib. Mərkəzdə məsafədən idarəetməni təmin edən mikro-SCADA dispetçer sistemi qurulub, mərkəzi SCADA sisteminə inteqrasiya olunub.

Yarımstansiyada çalışan işçi heyət əsasən yeni məskunlaşmış yerli əhali arasından seçilib və onlar müvafiq təlimlərdən sonra işə cəlb ediliblər.

Qeyd edək ki, Azərbaycan Prezidentinin Böyük qayıdış strategiyasına uyğun olaraq, işğaldan azad edilmiş ərazilərdə "Azərenerji" tərəfindən tikilən bütün enerji obyektlərində yerli kadrların işlə təmin olunmasına xüsusi önəm verilir. "Şəfəq" Günəş-Elektrik Stansiyasının enerjisistemə inteqrasiyası üçün həyata keçirilən layihənin əsas məqsədi dövlət və özəl sektor əməkdaşlığını gücləndirmək, karbon emissiyalarını azaltmaq, təbii qaza qənaət etmək, "yaşıl enerji"nin payını artırmaq və enerji təhlükəsizliyini daha da möhkəmləndirməkdir.

Bu irihəcmli "yaşıl enerji"nin ötürülməsi layihəsi paralel şəkildə davam etdirilib. Belə ki, Səngəçal Terminalının "yaşıl enerji" ilə təchizatı məqsədilə yeni 220 kilovoltluq yarımstansiya tikilib və işlər artıq yekunlaşıb. Bu yenilik nəticəsində terminalda qazla işləyən elektrik stansiyası dayandırılacaq və Cəbrayılda Günəşdən əldə olunan enerji ümumi enerjisistemə, oradan isə balanslaşdırılmış şəkildə həm də Səngəçal terminalına yönləndiriləcək. Səngəçal terminalında təbii qazla işləyən 140 MVt gücündə modul tipli elektrik stansiyasının fəaliyyəti dayandırılmaqla, terminalın illik tələbatının 500 milyon kilovat-saatının bərpaolunan enerji hesabına qarşılanması ilə illik 120-150 milyon kubmetrdən artıq təbii qaza qənaət ediləcək. Bu da BP şirkətinin Xəzər regionunda əməliyyat tullantılarının CO2 emissiyasının illik 260-330 min ton azaldılmasına töhfə verəcək. Dövlətimizin başçısına son dövrlərdə "yaşıl enerji" ilə ənənəvi enerjinin paralel inkişafı barədə də məlumat verildi.



Bildirildi ki, enerji sisteminin rəqəmsal əsasda modernləşdirilməsi konkret nəticələr verməyə başlayıb. Bu dinamika xüsusilə bolsulu, günəşli və küləkli günlərin səmərəli olduğu aprel və may aylarında daha aydın hiss edilib. Belə ki, müxtəlif günlərin müəyyən saatlarında ölkə üzrə elektrik enerjisi istehlakının 36-41 faizi məhz "yaşıl enerji" hesabına təmin olunub.

Məsələn, aprelin 20-də ümumilikdə 64,4 milyon kilovat-saat elektrik enerjisi istehsal edilib ki, bunun da 36,5 faizi bərpaolunan mənbələrin payına düşüb. Həmin enerjinin 15,9 milyon kilovat-saatı isə işğaldan azad edilmiş ərazilər də daxil olmaqla, su-elektrik stansiyalarında, 7,6 milyon kilovat-saatı isə Günəş və külək stansiyalarında istehsal olunub. İcra edilmiş tədbirlər hesabına enerjisistemdə bəzi saatlarda "yaşıl enerji"nin payı 41 faizə çatır.

## Prezident İlham Əliyevin sosial şəbəkə hesablarında Şükürbəyli kəndində sakinlərlə görüşü ilə bağlı paylaşım edilib



Azərbaycan Prezidenti İlham Əliyevin sosial şəbəkə hesablarında Cəbrayıl rayonunun Şükürbəyli kəndində sakinlərlə görüşü ilə bağlı paylaşım edilib.

AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir:

"Bütün dünyaya göstərəcəyik ki, biz qurub-yaradan xalqıq, eyni zamanda, döyüşən xalqıq. Bu torpaqları biz qan tökərək qaytarmışıq - Allah bütün şəhidlərimizə rəhmət eləsin, - parlaq Qələbə qazanmışıq, bu Qələbənin müasir tarixdə tayı-bərabəri yoxdur, yəqin ki, olmayacaq və biz bu əbədi Qələbə ilə fəxr etməliyik. Gənc nəsil də evlərdə, ailələrdə, məktəblərdə bu ruhda tərbiyə almalıdır ki, biz müzəffər ölkə, xalq kimi bundan sonra qürurla yaşayaq.

*(9 may 2026-cı il, Cəbrayıl rayonunun Şükürbəyli kəndində sakinlərlə görüşdən)".*

## Birinci vitse-prezident Mehriban Əliyeva faşizm üzərində qələbənin ildönümü münasibətilə paylaşım edib



1923 Azərbaycanın özü qədər əbədi 2026

# Müasir Azərbaycan Heydər Əliyevin memarlıq dühasının təcəssümüdür



Əvvəli 1-ci səh.

Fəaliyyəti zamanın çərçivəsini aşan və gələcək nəsillər üçün strateji əhəmiyyətə malik olan şəxsiyyətlərin yeri və rolu tarixdə xüsusi əhəmiyyət kəsb edir. Yaradıcı və qurucu şəxsiyyətlər təkcə siyasi lider kimi çıxış etmirlər, dövlətin institusional əsaslarını yaradan, eyni zamanda iqtisadi prosesləri istiqamətləndirən və xalqın milli-mədəni inkişaf vektorunu müəyyənləşdirən ictimai inkişafın memarı olurlar. Müasir dövrün əsas prioriteti kimi qəbul edilən qlobal urbanizasiya şəraitində məkan və infrastruktur modellərini müəyyənləşdirən belə liderlərin əhəmiyyəti daha da artır.

XX əsrin ikinci yarısı - XXI əsrin əvvəlində Azərbaycanın idarəçilik sükanını əlinə alan və onu inamla, uzaqgörənliklə gələcəyə doğru aparan belə bir şəxsiyyət xalqımızın Ümummilli Lideri Heydər Əliyev olmuşdur. Heydər Əliyev Azərbaycan tarixində dövlətçilik ənənələrinin, milli dirçəlişin güclənməsinə əvəzolunmaz töhfələr vermiş və müasir idarəçiliyin əsaslarını yaratmış görkəmli dövlət xadimidir. Onun fəaliyyəti uzaqgörən liderlik, güclü idarəçilik və milli maraqlara əsaslanan strateji düşüncə ilə səciyyələnmişdir. Ulu Öndər bütün siyasi fəaliyyəti boyunca Azərbaycanın sosial-iqtisadi inkişafını, dövlət müstəqilliyinin möhkəmləndirilməsini və milli ideologiyanın formalaşmasını əsas prioritet kimi müəyyən etmiş, bununla da ölkənin gələcək inkişaf modelinin konseptual əsaslarını yaratmışdır.

Ulu Öndərin fəaliyyəti mərkəzində müstəqil, güclü, dayanıqlı və müasir dövlətin formalaşması amalı dayanan ardıcıl və məqsədyönlü quruculuğun bariz nümunəsidir. Onun müəyyən etdiyi dayanıqlı inkişaf xətti konkret zaman çərçivəsi ilə kifayətlənməmişdir. Ümummilli Lider xalqın dövlətçilik təfəkkürünü və mənəvi dəyərlərini inkişaf etdirən, zənginləşdirən və istiqamətləndirən, eyni zamanda gələcək onilliklərin çağırışlarını qabaqcadan görən, onu sanki bir memarlıq layihəsi kimi qiymətləndirən və bu layihənin reallığa çevrilməsi üçün dayanmadan çalışan dahi rəhbər və güclü ideoloq olmuşdur.

Ümummilli Lider Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövründə güclü iqtisadi baza və infrastruktur, milli kadr potensialı formalaşdırılmış, xammal və kənd təsərrüfatı respublikası olan Azərbaycanda qabaqcıl sənaye sahəsi yaradılmışdır. Sosial-iqtisadi və digər sahələrdə keçmiş SSRİ rəhbərliyi səviyyəsində Azərbaycanın inkişafını təmin edəcək əlverişli qərarlar qəbul olunmuş, bütün sahələrdə uzunmüddətli və sistemli proqramların icrasına, iqtisadiyyata yeni texnologiyaların uğurla tətbiqinə başlanmışdır. 1969-1982-ci illərdə Azərbaycanda elektron maşınqayırma, radiosənaye, yüngül və yeyinti sənayesi üçün maşın və avadanlıq istehsalı və digər mütərəqqi sahələr, 1971-1985-ci illərdə 581 adda yeni tipli maşın, avadanlıq, aparat və cihaz nümunələri yaradılmışdır. 1970-1985-ci illərdə ölkədə 213 iri sənaye müəssisəsi işə salınmış, Azərbaycanda istehsal olunan 350 adda məhsul dünyanın 65 ölkəsinə ixrac olunmağa başlanmışdır. Paytaxt və regionlara gözəllik verən yüzlərlə yaşayış binası, mehmanxana, iqtisadi inkişafda önəm kəsb edən iri istehsal kompleksləri, müasir yollar, yaşıllıq zonaları, istirahət ocaqları yaradılmışdır. Heydər Əliyevin respublikaya rəhbərliyinin birinci dövründə həyata keçirilən quruculuq siyasəti Azərbaycanın gələcəkdə müstəqil dövlət kimi inkişafında mühüm rol oynamışdır.

Şəhərsalma mühitinin inkişafına Heydər Əliyevin əvəzolunmaz töhfələri xüsusi əhəmiyyətə malikdir, çünki bir ölkənin yaşayış məkanlarının, kənd, qəsəbə və şəhərlərinin simasının dəyişməsi uzunmüddətli inkişaf strategiyasının necə həyata keçirildiyi haqqında fikir formalaşdıran əsaslardan biridir.

Strateji yanaşmanın ilkin təzahürləri Ulu Öndərin respublikamıza 1969-1982-ci illəri əhatə edən ilk rəhbərliyi dövründə aydın şəkildə müşahidə olunmuşdur. Həmin illərdə sənayeləşmə prosesinin sürətləndirilməsi, yeni istehsal müəssisələrinin yaradılması və infrastrukturun genişləndirilməsi istiqamətində mühüm addımlar atılmış, ölkə əhəmiyyətli obyektlərin tikintisi geniş vüsət almışdır. Həyata keçirilən strateji xəttin mahiyyətində ölkənin yaşayış məkanları üzrə balanslı inkişafı, sənaye və sosial infrastrukturun paralel şəkildə qurulması, həmçinin milli memarlıq irsinin müasir urbanizasiya prosesinə inteqrasiyası kimi fundamental prinsiplər də dayanmışdır. Bu yanaşma beynəlxalq urban inkişaf modellərində "inteqrasiya olunmuş planlaşdırma" kimi qəbul edilir, iqtisadi, sosial və məkan üzrə siyasətin paralel şəkildə aparılmasının vacibliyini önə çəkir. Yanaşmanın səciyyəvi xüsusiyyəti ondan ibarətdir ki, şəhər yalnız yaşayış yeri kimi deyil, insanların gündəlik həyatını formalaşdıran kompleks mühit kimi qiymətləndirilir. Eyni zamanda şəhərsalma və memarlıq yalnız fiziki infrastrukturun yaradılması ilə məhdudlaşmamalı, həmçinin milli kimliyin ifadəsi olmalıdır. Şəhərlərin planlaşdırılmasına dövlət siyasətinin ayrılmaz tərkib hissəsi kimi yanaşılması, urban inkişafın birbaşa sosial rifahla əlaqələndirilməsi məhz bu amildən qaynaqlanır. Qeyd olunan yanaşma müasir beynəlxalq praktikada da vurğulanan insan mərkəzli şəhər inkişafı prinsipi ilə səsləşir və şəhərin yalnız iqtisadi vahid deyil, sosial rifah mühiti kimi formalaşdırılmasını əsas götürür. Beləliklə, Ulu Öndərin şəhərsalma və memarlığa olan münasibəti onun dövlət quruculuğu fəlsəfəsinin məntiqindən irəli gəlirdi.



Dahi Heydər Əliyevin fəlsəfi yanaşmasının formalaşmasında onun şəxsi maraq və meyillərinin də rolu az olmamışdır. Memarlığı həyat yolu kimi seçərək 1939-cu ildə Azərbaycan Sənaye İnstitutunun Memarlıq fakültəsinə daxil olsa da, İkinci Dünya müharibəsinin başlanması səbəbi ilə bu sahədə təhsilini başa çatdıra bilməmişdir. Bununla belə onun daxili quruculuq potensialı və memarlığa olan marağı sonrakı fəaliyyətində aydın şəkildə özünü göstərmiş, şəhərsalma ilə bağlı qəbul edilən qərarlarda peşəkar yanaşma və sistemli baxış özünü aydın büruzə vermişdir. Ulu Öndər tam haqlı olaraq hesab edirdi ki, şəhərsalma xaotik və təsadüfi proses deyil, dövlətin düşüncə tərzini və gələcəyə baxışını əks etdirən strateji yanaşmadır. Bu istiqamət texniki və ya memarlıq fəaliyyəti ilə məhdudlaşmır, dövlətin idarəetmə fəlsəfəsinin, inkişaf prioritetlərinin və cəmiyyətə baxışının konkret məkan üzərində ifadə forması kimi çıxış edir. Müasir şəhərsalma nəzəriyyəsində də qəbul olunduğu kimi, şəhərlər, sadəcə, infrastruktur toplusu deyil, iqtisadi, sosial və mədəni proseslərin kəsişdiyi kompleks sistemlərdir.

Ümummilli Lider Heydər Əliyevin Azərbaycana 1969-cu ildən başlayan rəhbərliyi dövründə şəhərsalmada daha çevik və kompleks yanaşmanın tətbiqinə başlanmışdır. Respublikanın müxtəlif regionlarında yeni sənaye və yaşayış məntəqələri salınmış, mövcud şəhərlərin baş planları yenilənmişdir. Bakı ilə yanaşı, Gəncə, Sumqayıt, Mingəçevir kimi şəhərlərdə sosial və nəqliyyat infrastrukturu genişləndirilmiş, müasir mikrorayon sistemi tətbiq olunmuşdur. Həyata keçirilən tədbirlər şəhərlərin balanslı sosial-iqtisadi inkişafının təmin olunmasına xidmət etmişdir. Ölkədə qədim şəhərlərin memarlıq siması qorunmuş, tarixi abidələrin bərpası sistemli xarakter almışdır. Yeni model milli kimliyin qorunub saxlanılmasına xidmət etmiş, eyni zamanda gələcək inkişaf üçün institusional əsaslar yaratmışdır. Məhz həmin dövrdə formalaşdırılan layihələndirmə və planlaşdırma mexanizmləri sonrakı mərhələlərdə şəhərsalma siyasətinin davamlılığını təmin edən mühüm baza rolunu oynamışdır.

Bakı şəhərinin inkişafı bu strategiyanın ən parlaq nümunələrindən biri olmuşdur. Paytaxtın Baş planının yenilənməsi, yeni yaşayış massivlərinin salınması, sənaye zonalarının optimallaşdırılması və nəqliyyat sisteminin təkmilləşdirilməsi şəhərin müasir simasının formalaşmasında həlledici rol oynamışdır. Ulu Öndərin təşəbbüsü və birbaşa nəzarəti ilə proses çərçivəsində inşa edilən "Gülüstan" Sarayı, Heydər Əliyev Sarayı (keçmiş Respublika Sarayı), çoxsaylı abidələr, muzeylər və digər mədəniyyət ocaqları şəhərin funksional və simvolik məkanlarına çevrilmişlər. Ulu Öndər yalnız qərarlar qəbul etməklə kifayətlənməmiş, memarlarla müzakirələr aparmış, layihələrə peşəkar düzəlişlər etmiş və bütün incə detalları diqqət mərkəzində saxlamışdır. Bu yanaşma nəticəsində memarlıqda müasir texnologiyalarla milli ornamentlərin vəhdətinə xüsusi diqqət yetirilmişdir.

Nəqliyyat infrastrukturunun inkişafı şəhərsalma siyasətinin əsas istiqamətlərindən biri kimi çıxış etmişdir. 1970-1980-ci illərdə metro xətlərinin inkişafı və yeni stansiyaların istifadəyə verilməsi nəqliyyat sisteminin optimallaşdırılması ilə yanaşı, şəhər daxilində urbanistik inteqrasiyanı əhəmiyyətli dərəcədə gücləndirmişdir. Metro stansiyalarının interyerində milli memarlıq elementlərinin tətbiqi şəhər mühitinə estetik və mədəni dərinlik qazandırmışdır. Metronun "Nizami" və "Elmlər Akademiyası" kimi zəngin bədii tərtibatı ilə seçilən stansiyalarının inşası bu yaradıcı yanaşmanın bariz nümunəsinə çevrilmişdir.

Eyni zamanda tarixi-mədəni irsin qorunması istiqamətində həyata keçirilən tədbirlər şəhərsalma siyasətinin mühüm komponentlərindən biri kimi çıxış etmişdir. 1977-ci ildə Bakı şəhərinin incisi olan İçərişəhərin, Şuşa, Şəki və Ordubadın qoruq elan olunması bu siyasətin sistemli xarakter aldığını nümayiş etdirir və milli irsimizə göstərilən həssas münasibətin konkret ifadəsi kimi qiymətləndirilməlidir. 1981-ci ildə "Azərbaycan SSR-də şəhərsalma, memarlıq və arxeologiya abidələrinin qorunması, bərpası və istifadəsinin yaxşılaşdırılması tədbirləri haqqında" qərarın qəbul edilməsi isə həmin istiqamətdə kompleks yanaşmanın formalaşdırıldığını təsdiqləyir. Sənəd abidələrin yalnız qorunmasını deyil, onların elmi tədqiqini və funksional istifadəsini də əhatə etməklə şəhər mühitinin davamlı inkişafına xidmət edən mühüm mexanizm rolunu oynamışdır.

Azərbaycanın aqrar ölkədən inkişaf etmiş sənaye respublikasına çevrilməsi prosesində Ümummilli Liderin təşəbbüsü və nəzarəti ilə inşa edilən mədəniyyət sarayları, inzibati binalar və kinoteatrlar Bakının vizual simasının formalaşmasında mühüm rol oynamışdır. Bu tikililər həm də estetik məkanlar kimi sovet modernizmi ilə milli memarlıq ənənələrinin sintezini əks etdirmişlər. Nəticədə şəhər mühiti tədricən vahid konseptual sistem kimi formalaşaraq, urban mədəniyyətin yeni mərhələsinə qədəm qoymuşdur.

İctimai məkanların və yaşıllıq zonalarının inkişafı xüsusi əhəmiyyət kəsb edir. Ümummilli Liderin təşəbbüsü ilə Bakı bulvarının genişləndirilməsi, yeni park və xiyabanların salınması şəhərin ekoloji balansının qorunmasına və estetik görünüşünün zənginləşməsinə mühüm töhfə vermişdir. Ulu Öndərin **"Şəhər yalnız binalardan ibarət olmamalıdır, insanlar üçün rahat, gözəl və yaşamaq üçün cəlbedici bir mühit yaratmalıdır"** fikri şəhərsalmada insanların rahatlığı amilini ön plana çıxararaq, onu sırf texniki prosesdən sosial-mədəni dəyərə çevirən konseptual yanaşmanı əks etdirir.

Ardı 6-cı səh.

1923 **Azərbaycanın özü qədər əbədi** 2026

# Müasir Azərbaycan Heydər Əliyevin memarlıq dühasının təcəssümüdür

*Əvvəli 5-ci səh.*

Müstəqilliyin ilk illərində yerli və ittifaq miqyasında formalaşmış qarşılıqlı mübadilə və istehsal-kooperasiya əlaqələrinin qırılması, istehsalın kəskin azalması, Ermənistanın hərbi təcavüzü və ən əsası, AXC-Müsavat hakimiyyətinin bacarıqsızlığı və cinayətkar idarəçiliyi nəticəsində iqtisadiyyat iflic olmuşdur. 1991-1994-cü illər ərzində ölkə iqtisadiyyatında ümumi daxili məhsul (ÜDM) hər il orta hesabla 16,5 faiz azalmış, istehsal potensialının 2/3-si itirilmiş, inflyasiya 1012,3 faiz təşkil etmiş, əməkhaqqı isə 5,7 dəfə azalmışdır.

Xalqın təkidli tələbi ilə 1993-cü ildə hakimiyyətə qayıdan Ulu Öndərin rəhbərliyi sayəsində ictimai-siyasi sabitlik bərqərar olunmuş, dövlət idarəçiliyində sistemli islahatlar aparılmış və dövlət institutlarının möhkəmləndirilməsi istiqamətində ardıcıl addımlar atılmışdır. Bu dövrdə formalaşdırılan və həyata keçirilməsinə başlanan neft strategiyası Azərbaycanın dünya enerji bazarına inteqrasiyasını təmin edərək, ölkənin davamlı iqtisadi inkişafı üçün fundamental baza yaratmışdır. Həmin dövrdə qəbul olunmuş iqtisadi qanunlar Azərbaycanın milli iqtisadi inkişaf modelinin formalaşmasına və islahatların vətəndaşların mənafeyinə uyğun şəkildə həyata keçirilməsinə etibarlı zəmin yaratmışdır. İqtisadi sahələrin tənzimlənməsi ilə bağlı 70-dən artıq qanun qəbul edilmiş, 100-dən çox fərman və sərəncam imzalanmış, 30-a yaxın dövlət proqramı təsdiq edilmişdir. Aparılan islahatlar nəticəsində 1991-ci ildən başlayan iqtisadi resessiya dayandırılmış və müstəqillik dövrünün sabit iqtisadi inkişaf mərhələsi başlanmışdır. 1996-2003-cü illər ərzində ümumi daxili məhsul 1,9 dəfə, dövlət büdcəsinin gəlirləri 3,9 dəfə, sənaye məhsulunun həcmi 22,4 faiz, kənd təsərrüfatı istehsalının həcmi 53,9 faiz, xarici ticarət dövriyyəsi 4 dəfə, iqtisadiyyatda məşğul olanların orta aylıq real əməkhaqqı 5,1 dəfə artmış, inflyasiya səviyyəsi 2-3 faizə qədər endirilmiş, bütün maliyyə mənbələri hesabına iqtisadiyyata yönəlmiş investisiyaların ümumi həcmi 16 milyard ABŞ dollarından çox olmuşdur.

Ulu Öndər Heydər Əliyev milli-mənəvi dəyərlərin dirçəldilməsini təmin etməklə yanaşı, ağır müharibə şəraiti və iqtisadi tənəzzül fonunda şəhərsalma siyasətini dövlət quruculuğunun prioritet istiqamətlərindən birinə çevirmişdir. Şəhərsalma yalnız inkişaf məsələsi deyil, eyni zamanda bərpa, sabitləşdirmə və yenidənqurma vasitəsi kimi qiymətləndirilmişdir. Həmin dövrdə Bakı başda olmaqla, şəhərlərin simasını formalaşdıran monumental abidələrin, parkların və müasir iş mərkəzlərinin təməli qoyulmuş, infrastruktur yenilənmiş, yollar və kommunikasiya xətləri bərpa olunmuş, sosial obyektlərin tikintisi və şəhər mühitinin abadlaşdırılması geniş vüsət almışdır. Bu mərhələdə şəhərsalma yalnız fiziki yenidənqurma prosesi deyil, eyni zamanda iqtisadi dirçəlişin və institusional sabitliyin mühüm göstəricisinə çevrilmişdir.

Beləliklə, Ümummilli Lider şəhərlərin estetik və funksional baxımdan yenilənmiş simasının formalaşmasında həlledici rol oynayaraq, tarixə həm də milli memarlıq məktəbinin hamisi kimi düşmüşdür. Azərbaycanın müasir şəhərsalma və memarlıq tarixini Heydər Əliyev şəxsiyyətindən kənarda izah etmək mümkün deyil. Ümumiyyətlə, Heydər Əliyevin zəngin yaradıcılıq və quruculuq irsi bütün sahələri əhatə edir, tərəqqinin, müsbət fundamental transformasiyaların təməlini təşkil edir və gələcək inkişaf üçün alternativsiz, istiqamətverici vektor rolunu oynayır.

2003-cü ildən sonrakı dövrdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə formalaşmış möhkəm təmələ əsaslanan sürətli və dinamik inkişaf mərhələsi başlanmışdır. Azərbaycanın sosial-iqtisadi inkişafının sürətləndirilməsi, regionların, ayrı-ayrı sahələrin inkişafı ilə bağlı qəbul olunmuş dövlət proqramlarının, imzalanmış fərman və sərəncamların icrası, enerji resurslarının ixracından əldə olunan gəlirlərin bir qisminin bu məqsədlərə yönəldilməsi iqtisadiyyatın şaxələndirilməsinə, qeyri-neft sektorunun inkişafına, ölkədə bütün sahələr üzrə müasir infrastrukturun yaradılmasına, əhalinin rifahının yüksəldilməsinə imkan vermişdir. Bu gün Bakının, şəhərlərimizin yeni və müasir siması onu deməyə əsas verir ki, Azərbaycan hər birimizin fəxr edə biləcəyi zirvəyə yüksəlmişdir. Bakı bulvarı, Ağ şəhər, Alov qüllələri, Heydər Əliyev Mərkəzi, parklar, xiyabanlar, istirahət və əyləncə mərkəzləri, ən müasir standartlara cavab verən səhiyyə, təhsil və mədəniyyət ocaqları, turizm obyektləri və s. paytaxtımızın dünyanın ən gözəl şəhərləri sırasında öz layiqli yerini tutduğunu əyani şəkildə nümayiş etdirir. Prezident İlham Əliyev demişdir: "Bu gün Bakı dünyanın ən gözəl şəhəri kimi inkişaf edir. Bakıya gələn qonaqlar, o cümlədən mənim həmkarlarım həmişə paytaxtda gedən quruculuq-abadlıq işləri haqqında öz təəssüratlarını bölüşürlər və qeyd edirlər ki, Bakı, doğrudan da, dünyanın ən gözəl şəhərlərindən biridir". Şəhərsalma və memarlıq da daxil olmaqla, davamlı tərəqqinin miqyası aydın şəkildə göstərir ki, əldə olunmuş uğurların əsasında illər əvvəl düşünülmüş, mərhələli şəkildə reallaşdırılmış və zaman keçdikcə daha aydın şəkildə üzə çıxan sistemli yanaşma dayanır.

2020-ci ildə Vətən müharibəsində əldə edilmiş möhtəşəm Qələbə, ölkəmizin ərazi bütövlüyünün və suverenliyinin tam bərpası Azərbaycanın müasir tarixində yeni səhifə açmaqla yanaşı, ölkəmizin qarşısında strateji hədəflər, vəzifələr müəyyənləşdirmişdir. Qarşıda duran ən mürəkkəb məsələ 30 illik işğal dövründə tamamilə dağıdılmış böyük bir ərazinin yenidən qurulması və həmin ərazilərdə insanların layiqli yaşayışının təmin edilməsi olmuşdur.

İşğaldan azad edilmiş ərazilərin yenidən qurulması və Böyük qayıdış prosesi çərçivəsində 8 şəhərin baş planı, 3 şəhərin müfəssəl planı və 101 yaşayış məntəqəsi üzrə (kənd və qəsəbə ilə birlikdə) şəhərsalma əsaslandırması təsdiq olunmuşdur. Üç müasir hava limanı inşa olunmuş, yüz kilometrlərlə ölçülən avtomobil və dəmir yolları salınmış, yüzlərlə körpü, onlarca tunel, viaduk inşa edilmişdir. Elektrik enerjisi, su təchizatı, habelə sosial və humanitar sahələrdə genişmiqyaslı layihələr reallaşdırılır.

2026-cı il mayın 1-nə olan məlumata əsasən, işğaldan azad edilmiş ərazilərdə 40-dan artıq yaşayış məntəqəsində 85 minə yaxın insan yaşayır, fəaliyyət göstərir və təhsil alır.





Qarabağ və Şərqi Zəngəzur bölgələrində həyata keçirilən genişmiqyaslı bərpa və yenidənqurma işləri, yeni memarlıq konsepsiyalarının tətbiqi müəyyən olunmuş strateji xəttin müasir mərhələsini əks etdirir. Həmin ərazilərdə aparılan genişmiqyaslı bərpa-quruculuq işləri, planlı urbanizasiya, dayanıqlı infrastrukturun qurulması və ekoloji yanaşmaların tətbiqi münaqişədən sonra şəhərsalmada Azərbaycan modelinin formalaşdığını deməyə əsas verir. Yeni model beynəlxalq praktikada münaqişədən sonra ərazilərin bərpasında əsas problemlərdən biri olan plansız inkişaf riskinin qarşısını alaraq, inteqrasiya olunmuş və uzunmüddətli planlaşdırma yanaşmasını ön plana çıxarır. Həqiqətən də, hazırda dünyanın bir çox ölkəsi plansız şəhərsalma və yaşayış sahələrinin çatışmazlığı problemləri ilə üzləşdiyi halda Azərbaycan hətta vaxtilə dağıdılmış ərazilərdə belə planlı, funksional və yaşamaq üçün əlverişli mühit formalaşdırmaq bacarığını nümayiş etdirir. Bu, artıq təkcə milli uğur deyil, beynəlxalq miqyasda müqayisə oluna bilən əyani təcrübə kimi qiymətləndirilə bilər.

Ölkəmizdə, o cümlədən işğaldan azad olunmuş ərazilərdə həyata keçirilən genişmiqyaslı quruculuq işlərində Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın fəaliyyəti xüsusilə diqqətəlayiqdir. Onun rəhbərliyi ilə ölkədə böyük zövqlə həyata keçirilən humanitar layihələr, bunun tərkib hissəsi kimi Heydər Əliyev Fondu tərəfindən mədəni abidələrimizin bərpası, təhsil, səhiyyə, mədəniyyət ocaqlarının inşası və yenidən qurulması, milli-mədəni irsimizin qorunması, incəsənət nümunələrimizin təbliği və həyata keçirilən digər layihələr ümumi məqsədlərimizin reallaşmasına layiqli töhfələrdir. Fondun fəaliyyəti milli dəyərlərimizin təkcə Azərbaycanda deyil, həm də beynəlxalq miqyasda tanıdılması və gələcək nəsillərə ötürülməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

Göründüyü kimi, Prezident İlham Əliyevin ölkəyə rəhbərliyi dövründə qazanılan uğurların miqyası heyrətamizdir. Dövlətimizin başçısının həyata keçirdiyi siyasət Ümummilli Lider Heydər Əliyev tərəfindən yaradılmış sağlam və möhkəm təmələ əsaslansa da, mürəkkəb dövrümüzün qlobal çağırışları ilə uzlaşdırılmış formada, praqmatik şəkildə, qətiyyətlə və prinsipiallıqla reallaşdırılır. Bunun başlıca səbəbi odur ki, Prezident İlham Əliyev öz xalqına arxalanan, güclü və xarizmatik Lider olaraq cəmiyyətimizi ümummilli məqsədlər uğrunda səfərbər etməyi bacarır, milli maraqlarımızı hər şeydən uca tutur və inamla gerçəkləşdirir. Nəticədə beynəlxalq aləm Azərbaycanın qazandığı uğurları qəbul edərək COP29, WUF13 kimi qlobal tədbirlərin təşkilini ölkəmizə həvalə edir, Bakını isə dünya gündəliyində duran aktual məsələlərin müzakirə olunduğu mühüm mərkəzlərdən biri kimi görür.

Bu gün ətrafımızda, hər yerdə uzun illər davam edən və bitmək bilməyən, on minlərlə insanın həyatını itirməsinə səbəb olan, milyonlarla insanı öz yaşayış yerini tərk etmək məcburiyyətində qoyan müharibələr var. Ümummilli Lider Heydər Əliyevin siyasi irsindən bəhrələnən Prezident İlham Əliyevin müdrik idarəçiliyi sayəsində Azərbaycan nəinki ümummilli problemlərin həllinə nail oldu, həmçinin öz dinamik inkişafını davam etdirir və dövrümüzün yeni çağırışlarına uyğunlaşmağı, hadisələri qabaqlamağı məharətlə bacarır. Vətəndaşlarımız gözəl şəhərlərdə sabitlik və təhlükəsizlik şəraitində yaşayır, çalışır və gələcəyə nikbinliklə baxırlar. Dünyanın müxtəlif bölgələrində şəhərlər dağılır, Azərbaycan isə işğaldan azad olunmuş ərazilərində müasir şəhərlər salır, orada insanların layiqli yaşayışını təmin edir. Azərbaycan qarşıdurmaların, kataklizmlərin hökm sürdüyü məkan deyil, bu problemlərin həlli ilə bağlı qlobal müzakirələrin keçirildiyi platformadır. Çünki sözü imzası qədər qiymətli və dəyərli olan Prezident İlham Əliyevə dünyada böyük inam və etimad vardır.

*Ümummilli Lider Heydər Əliyev dağılmaq ərəfəsində olan Azərbaycanı bir memar kimi yenidən qurdu, Prezident İlham Əliyev isə Ulu Öndərin memarlıq ənənəsini bacarıqla davam etdirərək, onu qüdrətli dövlətə çevirdi. Olduqca böyük çətinlikləri, sarsıntıları aşaraq inşa edilmiş bugünkü müasir və qüdrətli Azərbaycan Heydər Əliyevin memarlıq dühasının və Prezident İlham Əliyevin məharətli idarəçiliyinin, uzaqgörənliyinin və qətiyyətinin təcəssümüdür.*

**Samir NURİYEV,**
***Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının rəhbəri***

1923 *Azərbaycanın özü qədər əbədi* 2026

**Xalqımızın çoxəsrlik dövlətçilik tarixində elə şəxsiyyətlər var ki, onların fəaliyyəti konkret bir dövrlə məhdudlaşmır və bütövlükdə millətin taleyini əbədi olaraq dəyişir. Müasir Azərbaycan dövlətinin banisi, Ümummilli Lider Heydər Əliyev məhz belə dahi simalardandır. Ulu Öndər zamanında elə bir təməl qoyub ki, o təməllər üzərində ucalan dövlətimiz heç bir geosiyasi fırtınada sarsılmayıb. Heydər Əliyev tarixdə iz buraxmış addımları ilə Azərbaycanı hər bir vətəndaşın qəlbində və dünyanın siyasi şüurunda yenidən inşa edib.**



# Zamanın fövqündə duran dahi

## Ulu Öndər Heydər Əliyev Azərbaycanın milli dövlətçilik konsepsiyasının və təhlükəsizlik arxitekturasının qurucusudur

Əgər müasir Azərbaycanı sənət əsərinə bənzətsək, bu əsərin hər cizgisində, hər rəngində, hər naxışında Heydər Əliyev imzasını görərik. Ümummilli Lider dağılmış bir iqtisadiyyatdan qüdrətli bir dövlət, parçalanmaqda olan bir cəmiyyətdən monolit bir millət yaradan böyük şəxsiyyətdir. Hər kəlamı ilə dövlət idarəçiliyinin fəlsəfəsini yaradan, hər addımı ilə milli birliyin sarsılmaz təməlini atan Ulu Öndər ölkəmizi xaosun qaranlıq sahilindən sabitliyin işıqlı üfüqlərinə daşıdı. Dünyaya göz açdığı 10 may tarixində ölkəmizdə və onun hüdudlarından kənarda yaşayan hər bir azərbaycanlının böyük coşqu və dərin minnətdarlıq hissi ilə Ulu Öndəri ehtiramla yad etməsi Heydər Əliyev irsinin Azərbaycanın dünəni, bu günü və gələcəyi arasında sarsılmaz mənəvi bağ olduğunun təsdiqidir.

Azərbaycanın müstəqil dövlət quruculuğunun genetik kodu məhz Ulu Öndərin sovet dövründəki rəhbərliyi illərində (1969-1982) formalaşıb. Heydər Əliyev o zamanın sərt ideoloji çərçivələri daxilində Azərbaycanı gələcək müstəqilliyə hazırlayan uzaqgörən bir strateq kimi çıxış edib. Heydər Əliyevin böyüklüyü ondadır ki, o, hələ ötən əsrin 60-cı illərində, Azərbaycanın sovet rejimi daxilində sıxıldığı bir vaxtda xalqın milli ruhunu oyatmağı bacardı. Ulu Öndərin 1969-cu ildə rəhbərliyə gəlişi ilə respublikada iqtisadi, mədəni və intellektual sıçrayış başladı. Ümummilli Lider fərqində idi ki, siyasi müstəqilliyin yolu güclü iqtisadiyyatdan və milli kadr hazırlığından keçir. Məhz həmin illərdə minlərlə gəncin SSRİ-nin ən nüfuzlu universitetlərinə göndərilməsi, milli hərbi kadrların yetişdirilməsi məqsədilə Cəmşid Naxçıvanski adına hərbi məktəbin yaradılması sonrakı böyük uğurların ilk strateji addımları idi. Ümummilli Lider gözəl bilirdi ki, dövlət quruculuğu üçün ilk növbədə savadlı kadr lazımdır. Təsadüfi deyil ki, bu gənclər sonradan müstəqil Azərbaycanın dövlət idarəçiliyində, iqtisadiyyatında və elmində əsas aparıcı qüvvəyə çevrildilər. Heydər Əliyev faktiki olaraq 20-30 il sonranın dövlət aparatını hələ sovet dövründə formalaşdırırdı.

Dövlətin və dövlətçiliyin əsas sütununu təşkil edən güclü ordunun formalaşdırılması və inkişafı da Ümummilli Liderin adı ilə bağlıdır. Ulu Öndər hərbi quruculuğun təməlini sovet dönəmində rəhbərlikdə olarkən atmışdı. O vaxtlar mərkəzi hakimiyyət milli respublikalarda hərbi kadrların yetişməsinə isti baxmırdı. Lakin güclü siyasi iradəyə, yüksək sərkərdəlik məharətinə malik Ulu Öndər gələcəkdə müstəqil Azərbaycanın öz ordusuna ehtiyacı olacağını bilirdi. Təbii ki, sovetlər dönəmində Milli Ordudan söz açmaq mümkün deyildi. O dövrdə azərbaycanlı gənclərin hərb elminə marağının artırılması və bunun üçün real şəraitin yaradılması Ulu Öndərin gələcəyə hesablanmış uzaqgörən siyasətinin tərkib hissəsi idi.

Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi birinci dövrdə ordu quruculuğuna böyük önəm verdi. Dahi liderin birbaşa şəxsi təşəbbüsü ilə o dövrdə hazırlanan hərbi kadrlar sonradan müstəqil Azərbaycanın qüdrətli Milli Ordusunun peşəkar komandan heyətini təşkil etdi. "Biz bu gün böyük iftixar hissi ilə deyirik ki, Azərbaycan Respublikasının Milli Ordusu - respublikamızın milli təhlükəsizliyini, əhalimizin əmin-amanlığını və mühafizəsini təmin etmək üçün, ölkəmizin sərhədlərinin qorunması, ərazi bütövlüyünün, torpaqlarının müdafiə edilməsi üçün Azərbaycanın layiqli Silahlı Qüvvələri vardır" deyən Ümummilli Liderimizin rəhbərliyi ilə qısa müddətdə ordunun qanunvericilik bazası yaradıldı, "Silahlı Qüvvələr haqqında", "Hərbi xidmət haqqında", "Hərbi qulluqçuların statusu haqqında" qanunlar qəbul edildi.

Tarixin elə dönəmləri olur ki, bir millətin varlığı ilə yoxluğu arasındakı məsafə cəmi bir insanın iradəsindən asılı hala gəlir. 1993-cü ilin iyununda Azərbaycan məhz belə bir uçurumun kənarında idi. Heydər Əliyevin böyük siyasətə qayıdışı, sadəcə, bir rəhbərin hakimiyyətə gəlişi deyildi, bütöv bir xalqın özünə qayıdışı, dövlətçilik ümidlərinin dirçəlişi idi. O, fırtınalı dənizdə yolunu itirmiş gəmini polad iradəsi ilə ən etibarlı limana, müstəqillik və tərəqqi sahilinə çıxaran dahi şəxsiyyət kimi tariximizə əbədi həkk olundu.

Ulu Öndər Heydər Əliyev 1993-cü ildə xalqın israrlı təkidi ilə hakimiyyətə qayıtdıqdan sonra da onun dövlətçilik fəaliyyətində ordu quruculuğu və beynəlxalq hərbi-strateji əməkdaşlıq müstəqil Azərbaycanın təhlükəsizlik arxitekturasının iki əsas sütununu təşkil edirdi. Bu fəaliyyət, sadəcə, hərbi islahat deyil, ölkənin dövlət müstəqilliyini sarsılmaz etməyə hesablanmış uzaqgörən bir strategiyanın nəticəsi idi.

1993-cü ildə ölkə daxilində tüğyan edən qanunsuz silahlı birləşmələrin ləğvi və dövlət çevrilişi cəhdlərinin qətiyyətlə dəf edilməsi dövlət quruculuğu yolunda ən gərgin mərhələ idi. Azərbaycan Ordusu faktiki olaraq dağılmış, ayrı-ayrı siyasi qrupların maraqlarına xidmət edən dağınıq dəstələrdən ibarət idi. Məhz Heydər Əliyevin rəhbərliyi ilə pərakəndə dəstələrdən imtina edilərək, maddi-texniki bazası güclü olan nizami ordu qurulması, hərbi hissələrin formalaşdırılması prosesinə başlandı. İlk növbədə fərariliyə son qoyuldu, hərbi intizam bərpa edildi və döyüş ruhunun yüksəldilməsi istiqamətində mənəvi-psixoloji işlər gücləndirildi. Heydər Əliyev hələ sovet dövründə təməlini qoyduğu Cəmşid Naxçıvanski adına hərbi məktəbin potensialını müstəqil Azərbaycan Ordusunun zabit korpusunun onurğasına çevirdi.

Heydər Əliyev Azərbaycan Ordusunun təşkilatlanmasını, böyük qüvvəyə çevrilməsini məmnunluqla qeyd edirdi: "1993-cü ilin sonlarından başlayaraq həyata keçirilmiş xüsusi tədbirlər nəticəsində Milli Ordu quruculuğu keyfiyyətcə yeni mərhələyə qədəm qoydu, qısa müddətdə vahid komandanlığa tabe olan nizami ordu formalaşdırıldı. Hazırda Azərbaycanın Silahlı Qüvvələri müasir hərbi texnika ilə təchiz edilmiş, möhkəm nizam-intizam, yüksək döyüş ruhu ilə seçilən, düşmənə sarsıdıcı zərbə vurmağa qadir olan bir ordudur. Milli Ordumuz müstəqil dövlətimizin ən böyük dayağı, xalqımızın təhlükəsizliyinin və ölkəmizin ərazi bütövlüyünün təminatçısıdır".

1994-cü ilin mayında Bişkekdə əldə olunan atəşkəs rejimi Ulu Öndərə ordunu yenidən qurmaq, silah-sursat bazasını modernləşdirmək və beynəlxalq standartlara uyğunlaşdırmaq üçün zəruri zamanı qazandırdı. 1991-1993-cü illərdə hakimiyyətdə olmuş qüvvələrin naşılığı, səriştəsiz idarəetməsi, kreslo davaları və xəyanəti nəticəsində Azərbaycan həm cəbhədə ciddi itkilər verir, həm də daxili xaos, dövlət çevrilişi cəhdləri və qanunsuz silahlı dəstələr səbəbindən sarsılmışdı. Daxildə sabitlik olmadan müharibəni davam etdirmək dövlətin tamamilə süqutu ilə nəticələnə bilərdi. Bu reallığı isə ancaq Heydər Əliyev kimi siyasi dühа görə bilərdi. Atəşkəslə qazanılan vaxt daxili asayişin bərpasına, dövlət təsisatlarının yenidən qurulmasına imkan verdi. Heydər Əliyev qazanılan dinc dövrdən istifadə edərək, Azərbaycanın ərazi bütövlüyünü beynəlxalq təşkilatların gündəliyinə gətirdi.

Ulu Öndər çox yaxşı bilirdi ki, Milli Ordunun güclənməsi həm də qlobal təhlükəsizlik sisteminə inteqrasiyadan keçir. Bu məqsədlə Ulu Öndər Azərbaycanın Şimali Atlantika Alyansı (NATO) ilə münasibətlərini strateji müstəviyə daşıdı. 1994-cü il mayın 4-də NATO-nun "Sülh Naminə Tərəfdaşlıq" proqramının çərçivə sənədi imzalandı. NATO ilə əməkdaşlıq çərçivəsində Azərbaycan Silahlı Qüvvələrində struktur islahatları aparıldı, hərbi təhsil sistemi alyansın standartlarına uyğunlaşdırılmağa başlandı. Azərbaycan hərbçiləri müxtəlif beynəlxalq təlimlərdə iştirak edərək müasir döyüş taktikasını mənimsədilər. Azərbaycanın 1999-cu ildən başlayaraq Kosovoda, Əfqanıstanda və İraqda sülhməramlı missiyalarda iştirakı Heydər Əliyevin xarici siyasətinin mühüm nailiyyəti və beynəlxalq təhlükəsizliyə töhfə verməsi idi.

1996-cı il NATO-nun Lissabon sammitində Heydər Əliyevin diplomatik məharəti sayəsində Azərbaycanın ərazi bütövlüyü bütün üzv dövlətlər tərəfindən bir daha təsdiqləndi. Bu, ordu quruculuğunun diplomatik cəbhədəki ən böyük dəstəyi idi. Ulu Öndərin ordu quruculuğu və NATO ilə tərəfdaşlıq xətti Azərbaycanın hərbi qüdrətini artırmaqla yanaşı, ordumuzu regionun ən peşəkar və müasir silahlı qüvvəsinə çevirdi. NATO standartlarının tətbiqi və Türkiyə ilə hərbi əməkdaşlığın dərinləşməsi Azərbaycan Ordusunun döyüş qabiliyyətini keyfiyyətcə yeni mərhələyə qaldırdı. Azərbaycanın Silahlı Qüvvələrinin 44 günlük Vətən müharibəsində qazandığı tarixi Zəfər məhz Heydər Əliyevin təməlini qoyduğu sarsılmaz ordu quruculuğu və uzaqgörən hərbi diplomatiya strategiyasının məntiqi nəticəsidir. Ulu Öndərin qurduğu bu mükəmməl sistem Prezident İlham Əliyev tərəfindən daha da təkmilləşdirilərək, Azərbaycanı qalib dövlətə çevirdi.

Heydər Əliyevin dövlət quruculuğu sahəsində atdığı ən fundamental addım pərakəndə halda olan cəmiyyəti vahid məqsəd ətrafında birləşdirən azərbaycançılıq məfkurəsini dövlətin rəsmi ideologiyasına çevirməsi oldu. O, etnik mənsubiyyətindən asılı olmayaraq, bütün vətəndaşların ortaq dəyərlərini, ana dilini, tarixi keçmişini və milli adət-ənənələrini ön plana çıxararaq, "müstəqilliyi qoruyub saxlamaq onu qazanmaqdan qat-qat çətindir" prinsipi ilə milli birliyin sarsılmaz modelini yaratdı. Ulu Öndər hakimiyyətə qayıtdığı ilk illərdə ölkə daxilində bəzi qüvvələrin etnik separatizm meyillərini qızışdırmağa çalışdığı bir mühitlə üzləşdi. Azərbaycançılıq ideologiyası ölkədə yaşayan bütün xalqları vahid dövlətçilik çətiri altında birləşdirdi. Ulu Öndər sübut etdi ki, Azərbaycanın gücü onun multikulturalizmində və dini dözümlülüyündədir. Heydər Əliyev "Azərbaycan onun ərazisində yaşayan bütün xalqların doğma vətənidir" prinsipini cəmiyyətin şüuruna həkk etdi.

Ulu Öndərin 1993-cü ilin iyununda Ali Sovetin Sədri seçilməsi ölkənin siyasi sistemində vətəndaş müharibəsi təhlükəsindən qurtuluşa və parlamentarizm ənənələrinin bərpasına doğru atılan həlledici addım idi. Ulu Öndər parlamentə rəhbərlik etdiyi qısa, lakin gərgin dövrdə deputatlarla iş prinsiplərini tamamilə dəyişdi. O, qanunverici orqanı yalnız qərarların qəbul edildiyi yer deyil, həm də milli həmrəylik və siyasi dialoq platformasına çevirdi. İclasların birbaşa efirdə yayımlanması xalqın dövlət idarəçiliyinə inamını bərpa etdi. Heydər Əliyev yaxşı bilirdi ki, müstəqil dövlətin sütunu möhkəm qanunvericilik bazasıdır. Ulu Öndərin rəhbərliyi ilə Azərbaycanın dövlət müstəqilliyini təhdid edən proseslərin qarşısı qanun çərçivəsində alındı. 1995-ci il Konstitusiyası unitar dövlətə uyğun olan müasir, peşəkar parlament - Milli Məclis modelinin hüquqi əsasını qoydu.

Ümummilli Liderin dövründə parlament beynəlxalq əlaqələrin qurulmasında aktiv rol almağa başladı. Xarici dövlətlərin rəhbərləri və diplomatları ilə Ali Sovetdə keçirilən görüşlər Azərbaycanın haqlı səsini dünyaya çatdırmaq üçün bir tribuna rolunu oynadı. Heydər Əliyevin parlament rəhbəri olduğu o dörd ay Azərbaycanın xaosdan nizama keçid dövrünün başlanğıcı idi. Bu gün fəaliyyət göstərən Milli Məclis məhz həmin dövrdə qoyulmuş siyasi iradənin və dövlətçilik təfəkkürünün üzərində inkişaf edir.

Hər bir ölkədə seçkilər, sadəcə, texniki səsvermə prosesi deyil, dövlətin demokratik mahiyyətini təsdiq edən ən mühüm legitimlik mənbəyidir. Ulu Öndərin rəhbərliyi ilə formalaşan Azərbaycanın seçki sistemi ölkəni 1990-cı illərin siyasi xaosundan çıxararaq hüquqi müstəviyə daşıdı. Məhz müasir seçki sisteminin arxitekturası Ulu Öndərin müəllifi olduğu qanunvericilik aktları üzərində qurulub, vətəndaşın seçmək və seçilmək hüququ "toxunulmaz fundamental hüquq" statusuna qaldırılıb. 2003-cü il Seçki Məcəlləsi isə dağınıq qanunvericilik aktlarını vahid və təkmil bir sistemdə birləşdirdi. Bu sənəd beynəlxalq standartlara, xüsusilə Venesiya Komissiyasının tövsiyələrinə uyğunlaşdırılaraq qəbul edildi. Seçkilərin məcəlləşdirilməsi prosesi Azərbaycanın Avropa Şurasına daxil olmasından sonra hüquqi islahatların kulminasiya nöqtəsi idi. Bu, seçki prosesindəki bütün subyektlərin hüquqlarını vahid müstəvidə qorumağa imkan verdi.

Dövlət quruculuğu hər şeydən əvvəl möhkəm qanunvericilik bazası tələb edirdi. Qısa zaman kəsiyində dahi şəxsiyyətin həyat təcrübəsi və işıqlı zəkasının ən böyük əsəri olan Konstitusiya layihəsi hazırlanaraq 12 noyabr 1995-ci ildə ümumxalq səsverməsi - referendum yolu ilə qəbul olundu. 1995-ci ildə Ulu Öndərin rəhbərliyi və şəxsi təşəbbüsü ilə hazırlanan ilk müstəqil Konstitusiyanın qəbul edilməsi demokratik və dünyəvi dövlət quruculuğunun hüquqi əsaslarını, insan hüquq və azadlıqlarının qeyd-şərtsiz təmin olunmasının bünövrəsini qoydu. Azərbaycan demokratik, hüquqi, dünyəvi dövlət kimi ilk dəfə olaraq insan hüquqlarının prioritetliyini və hakimiyyət bölgüsünü özünün gələcək inkişaf yolu kimi seçdi. 1995-ci ildə müstəqil Azərbaycanın parlamentinə keçirilən ilk seçkilər isə dövlət müstəqilliyinin möhkəmləndirilməsi prosesinin hüquqi bazasının yaradılmasına daha geniş imkanlar açdı. Özəlləşdirmə proqramları, dövlət idarəçiliyinin müasirləşdirilməsi, senzuranın və ölüm cəzasının ləğvi, Ombudsman institutunun və Konstitusiya Məhkəməsinin yaradılması, məhkəmə-hüquq islahatları hüquqi dövlətin əsaslarını möhkəmləndirdi.

Konstitusiyanın qəbulu müstəqillik tariximizin ən mühüm hadisələrindən biri olmaqla yanaşı, həm də Ulu Öndər Heydər Əliyevin Azərbaycan dövlətçiliyi qarşısındakı ən böyük xidmətlərindəndir. 1996-cı ildə Konstitusiya Günü münasibətilə Azərbaycan xalqına ünvanladığı təbrikində Heydər Əliyev deyirdi: "Bu Konstitusiya Azərbaycan xalqının keçdiyi tarixi inkişaf yolunun məntiqi nəticəsidir. Konstitusiya ölkəmizdə vətəndaşların hüquq və azadlıqlarının təmin edilməsi, müstəqil dövlətçiliyin qorunub saxlanılması, möhkəmləndirilməsi və demokratik dəyişikliklərin həyata keçirilməsi üçün hərtərəfli zəmin və şərait yaradır. Azərbaycanın tarixi keçmişini, bugünkü reallıqlarını və gələcək inkişaf perspektivlərini əks etdirməsi, ümumbəşəri və milli dəyərlərə söykənməsi Konstitusiyamızı səciyyələndirən əsas cəhətlərdir".

Bu gün xalqımız haqlı olaraq Konstitusiyanı Heydər Əliyevin siyasi yaradıcılığının şah əsərlərindən biri hesab edir. Konstitusiyamızda cəmiyyətin inkişaf istiqamətlərini müəyyənləşdirən mütərəqqi ideya və dəyərlər geniş şəkildə əksini tapıb. Bunların sırasında insan şəxsiyyətinə və ləyaqətinə hörmət, dövlət hakimiyyəti orqanlarının demokratik qaydada formalaşdırılması, insan hüquqlarının səmərəli müdafiəsi mexanizmlərinin mövcudluğu, sosial ədalətə nail olmaq, ümumbəşəri dəyərlərə sadiqlik xüsusi əhəmiyyət kəsb edir. Konstitusiyanın üçdəbirinin insan hüquq və azadlıqları ilə bağlı olması Ümummilli Lider Heydər Əliyevin yüksək daxili insanpərvərliyini bir daha təsdiqləyir.

Ölkəmizin mürəkkəb və taleyüklü dövründə rəhbərliyin ağır məsuliyyətini öz üzərinə götürən Ulu Öndərin yaratdığı mükəmməl dövlətçilik təlimi və onun ayrılmaz hissəsi olan Konstitusiyamız müstəqil Azərbaycanın bugünkü varlığının və gələcək inkişafının əsasını təşkil edir, ölkəmizin hərtərəfli inkişafina və tərəqqisinə xidmət edir. Təməli Ulu Öndər tərəfindən qoyulan dövlət siyasətini uğurla davam etdirən Prezident İlham Əliyev Heydər Əliyev irsinə qiymət verərək deyib: "1993-2003-cü illər ölkəmizdə sabitlik və inkişaf illəri kimi tarixdə qalacaqdır. Cünki məhz o illərdə dövlətçiliyin əsasları qoyuldu, Azərbaycan dövləti quruldu, 1995-ci ildə müstəqil dövlətin Konstitusiyası qəbul edildi, dövlətçiliyin ideoloji əsasları - azərbaycançılıq məfkurəsi formalaşdırıldı... Heydər Əliyev tərəfindən yaradılan bu əsaslar hazırda Azərbaycan xalqına yol göstərir".

Ulu Öndərin rəhbərliyi ilə həyata keçirilən məhkəmə-hüquq islahatları Azərbaycanın demokratik, insan hüquq və azadlıqlarının müdafiəsinə əsaslanan müasir hüquqi dövlət modelinə keçidini təmin etdi. Heydər Əliyevin təlimatı ilə Azərbaycan tarixində ilk dəfə olaraq apellyasiya və kassasiya instansiyaları yaradıldı. Hakimlərin seçilməsi prosesi tamamilə şəffaflaşdırıldı, ilk dəfə test üsulu ilə imtahanlar tətbiq edildi. 1998-ci ildə yaradılan Konstitusiya Məhkəməsi qanunların aliliyini və onların Konstitusiyaya uyğunluğunu yoxlayan mühüm bir nəzarət mexanizminə çevrildi. Ulu Öndər prokurorluq orqanlarını sovet dövründən qalan repressiv imicdən xilas edərək, onları qanunçuluğu və insan hüquqlarını qoruyan sivil bir təsisata çevirdi. 1999-cu ildə qəbul edilən "Prokurorluq haqqında" fundamental qanunla prokurorluğun funksiyaları dəqiqləşdirildi, onun səlahiyyətləri beynəlxalq standartlara uyğunlaşdırıldı. Ulu Öndər vurğulayırdı ki, prokuror həm dövlətin maraqlarını, həm də sıravi vətəndaşın hüququnu eyni dərəcədə qorumalıdır. Eyni ildə qəbul edilmiş "Polis haqqında" qanunla polisin fəaliyyətində zorakılıq deyil, xalqa xidmət və asayişin qorunması prinsipləri ön plana çıxdı. Cinayətkarlıqla mübarizə və ictimai təhlükəsizliyin təmin edilməsi istiqamətində qətiyyətli addımlar atıldı.

Hüquqi dövlətin ən mühüm tərəfi tərəflərin bərabərliyidir. Heydər Əliyev vətəndaşın keyfiyyətli hüquqi yardım alması üçün vəkillik institutunun müstəqilliyinə xüsusi diqqət yetirirdi. Müdafiə tərəfinin hüquqlarının genişləndirilməsi məhkəmə çəkişmələrində ədaləti təmin edən vacib amil oldu. Ulu Öndər 1996-cı ildə Məhkəmə-Hüquq İslahatları üzrə Dövlət Komissiyasını yaratdı. Bu komissiya bütün qanunvericilik bazasının Avropa standartlarına uyğunlaşdırılması işinə rəhbərlik edirdi. Xülasə, Heydər Əliyev tərəfindən qurulan yeni hüquq sistemi Azərbaycanın dövlət sütunlarını möhkəmləndirdi.

Dövlət quruculuğu yalnız siyasi yox, həm də iqtisadi dayaqlar üzərində yüksəlməli idi. Heydər Əliyevin uzaqgörən neft strategiyası və 1994-cü ildə imzalanan "Əsrin müqaviləsi" Azərbaycanı iflasın kənarından çıxararaq qlobal enerji bazarına daxil etdi. Bu addım dövlət büdcəsinin böyüməsini, sosial layihələrin icrasını və Azərbaycanın xarici siyasətdə "iqtisadi diktə" edən tərəfə çevrilməsini təmin etdi.

Ulu Öndər Azərbaycanın xarici siyasətini balanslaşdırılmış diplomatiya üzərində qurdu. Dağılmış beynəlxalq əlaqələri yenidən bərpa edərək Azərbaycanı BMT, ATƏT, Avropa Şurası və İslam Əməkdaşlıq Təşkilatı kimi mötəbər qurumlarda layiqincə təmsil etdi. O, dünyanı inandırdı ki, Azərbaycan etibarlı tərəfdaşdır və regionun taleyüklü məsələlərində onun rəyi həlledicidir.

Heydər Əliyevin dövlət quruculuğu kursu həm də gələcəyin planlaşdırılması idi. Hazırda Ümummilli Liderin dövlətçilik siyasətini və azərbaycançılıq irsini onun varisi, Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyev uğurla davam etdirir. Müasir Azərbaycanın hər bir nailiyyətinin təməlində Ulu Öndər Heydər Əliyevin dahi uzaqgörənliyi və onun siyasi kursunu yeni dövrün tələblərinə uyğun olaraq uğurla reallaşdıran Prezident İlham Əliyevin sarsılmaz iradəsi dayanır. Heydər Əliyevin memarı olduğu müstəqil Azərbaycan bu gün İlham Əliyevin rəhbərliyi ilə həm hərb meydanında, həm də diplomatik masada öz gücünü bütün dünyaya sübut edərək əbədiyyətə doğru inamla addımlayır.

Ulu Öndərin arzu və istəkləri, dövlət quruculuğunda olan siyasəti 44 günlük savaşda əldə edilən möhtəşəm Zəfərlə həyata keçdi. Bu Zəfər Heydər Əliyev siyasətinə bir daha əbədiyaşarlıq gətirdi. Heydər Əliyevin ən böyük arzusu - Qarabağın azadlığı və ərazi bütövlüyümüzün bərpası artıq tarixi reallıqdır. Şuşada dalğalanan üçrəngli bayrağımız, azad edilmiş torpaqlarda ucalan "ağıllı şəhər və kəndlər" göstərir ki, Heydər Əliyevin qurub yaratdığı dövlət əmin əllərdədir.

Ümummilli Liderin dövlətçilik fəaliyyəti ilə 2023-cü ilin sentyabrında Azərbaycanın bütün ərazilərində suverenliyin tam bərpa edilməsi arasında qırılmaz bir varislik və strateji məntiq bağı mövcuddur. 2023-cü ildə əldə edilən nailiyyət, əslində, Ulu Öndərin onilliklər əvvəl uzaqgörənliklə hazırladığı Azərbaycan layihəsinin zirvə nöqtəsidir. 19-20 sentyabr tarixlərində cəmi 23 saat davam edən və düşməni ağ bayraq qaldırmağa məcbur edən ordumuzun təməlləri məhz Heydər Əliyev tərəfindən qoyulub. 2023-cü il zəfərini qazanan zabit heyətinin böyük əksəriyyəti Heydər Əliyev məktəbinin yetirmələridir. Təsadüfi deyil ki, Prezident İlham Əliyev Xankəndidə Azərbaycan bayrağını ucaldarkən bu tarixi hadisəni Ulu Öndərin vəsiyyətinin yerinə yetirilməsi kimi qiymətləndirdi. 2023-cü ilin oktyabrında Xankəndidə keçirilən hərbi parad və suverenliyin tam bərpası Heydər Əliyev strateji kursunun məntiqi sonluğudur. Bu, bir liderin qurduğu dövlətin onun layiqli varisi tərəfindən zirvəyə daşınmasının dünya tarixində nadir nümunələrindəndir.

*Heydər Əliyev yolu qaranlıqdan işığa, xaosdan nizama və məğlubiyyətdən zəfərə gedən yoldur. Bu yol Azərbaycanın əbədi müstəqillik və sarsılmaz qüdrət yoludur. Ulu Öndərin müəyyən etdiyi bu strateji kurs təkcə keçmişimizin xilası deyil, həm də bu günümüzün qələbə müjdəçisi və gələcəyimizin ən böyük təminatıdır. Bu gün Azərbaycanın dünyada ucalan uca səsi məhz onun on illər öncə qurduğu peşəkar diplomatiya və güclü dövlət strategiyasının əks-sədasıdır. 10 may tarixi bizə bir daha xatırladır ki, nə qədər müstəqil Azərbaycan dövləti var, Heydər Əliyev şəxsiyyəti də o qədər yaşayacaq və gələcək nəsillərin yoluna işıq saçacaq. Çünki dahi liderlərin ömrü onların fiziki varlığı ilə deyil, qurduqları dövlətin əbədiyyəti ilə ölçülür.*

***Ziyafət ƏSGƏROV,***
***Azərbaycan Respublikası***
***Milli Məclisi Sədrinin müavini***

**1923** *Azərbaycanın özü qədər əbədi* **2026**



# Müasir dövlətçilik tariximizin müəllifi

**Bu gün vətəndaşı olmağımızla fəxr etdiyimiz Azərbaycan zəngin dövlətçilik ənənələrinə sahib olmaqla çox uzun bir dövrü əhatə edən inkişaf yolu keçmişdir. Təlatümlərlə keçən bu yolda elə dövrlər olub ki, həmin müddətdə xalqın və dövlətin gələcək taleyini müəyyən edən çox böyük bir tarixi inkişafın başlanğıcının əsası qoyulub. Bu əzəmətli tarixi yaradanlar isə heç vaxt unudulmayan şəxsiyyətlər kimi yaddaşlara həkk olunub.**

Keçən əsrin 70-ci illərindən başlayaraq Vətənimizin tarixində çox əlamətdar dövrün əsasını qoyan isə Heydər Əlirza oğlu Əliyevdir. 1923-cü il may ayının 10-da Naxçıvanda dünyaya göz açan Ulu Öndərin həyatının mənası Azərbaycan idi. Dünyaşöhrətli siyasi xadim özü bu barədə deyirdi: "Mən balaca bir evdə, zəhmətkeş ailəsində, bir yaz günü dünyaya göz açmışam. Anadan olanda yəqin ki, beş-on, uzağı otuz-qırx nəfər sevinib. İndi bəlkə də bir o qədər qeyri-təvazökar səsləndi, amma deməliyəm ki, anam məni bütövlükdə Azərbaycanımız üçün dünyaya gətirib. Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır. Bütün şüurlu ömrümü onun inkişafına, tərəqqisinə həsr etmişəm".

Xalqımızın böyük oğlu Heydər Əliyev tarixin ən çətin, məsuliyyətli anlarında Azərbaycan xalqının ruhuna nəfəs kimi qayıdan, onu sevərək hifz edən, milli mövcudluğunu qoruyaraq xilaskarlıq missiyasını yerinə yetirən qüdrətli bir şəxsiyyətdir. Taleyin hökmü ilə iki dəfə bu missiyanı üzərinə götürən Ulu Öndər hər dəfə Azərbaycanın müqəddəratının həll olunduğu təhlükəli və mürəkkəb məqamlarda xalqın köməyinə çatmış, ölkəmizi böyük bəlalardan xilas etmişdir.

İlk dəfə Ulu Öndər müstəqil Azərbaycanın qurulması işinə 1969-1982-ci illərdə respublikamıza rəhbərlik etdiyi dövrdə başlamışdır. Bu dövrədək zəngin iqtisadi potensialının, təbii sərvətlərinin olmasına baxmayaraq, Azərbaycan ittifaq respublikaları arasında bütün göstəricilərə görə axırıncı yerlərdən birini tuturdu. Azərbaycan bütün ittifaqı ən qiymətli təbii sərvət sayılan və sosial-iqtisadi inkişafın əsasını təşkil edən neftlə təmin etdiyi halda əhalinin yaşayış səviyyəsinə görə heç bir iqtisadi resursu olmayan digər respublikalardan geridə qalırdı. Heydər Əliyevin respublikamızda rəhbərliyə gəlməsi Azərbaycanda digər sahələrlə yanaşı, iqtisadi inkişafa da yol açmış və ölkəmiz qısa zamanda ittifaq tərkibində o zaman üçün müasir iqtisadiyyata malik respublikaya çevrilmişdi.

Azərbaycana rəhbərlik etdiyi 14 il ərzində Heydər Əliyevin apardığı hərtərəfli və əhatəli işlər, onun özünə və ətrafındakı rəhbər işçilərə qarşı olan ciddi tələbkarlığı, yüksək işgüzarlığı sayəsində Azərbaycanın iqtisadiyyatı möhkəmləndi, neft, maşınqayırma, kimya sənayesi və bir sıra digər sahələrdə ittifaqda öncül sıraya çıxdı, istehsal etdiyi rəqabətqabiliyyətli məhsulları 65 xarici ölkəyə ixrac edərək beynəlxalq aləmdə tanınmağa başladı və müstəqil inkişafın əsası qoyuldu. Bu dövrdə respublikamızda nəhəng zavodlar və çoxsaylı fabriklər tikilib istifadəyə verildi. Sənayenin inkişafı, xüsusilə kənd təsərrüfatı məhsullarının emalı müəssisələrinin tikilməsi geniş vüsət aldı. Regionlarda üzüm, meyvə və tərəvəz emalı zavodları, çay və tütün emalı fabrikləri, habelə ət kombinatları, süd və yun emalı zavodları, quşçuluq fabrikləri və heyvandarlıq komplekslərinin tikilib istifadəyə verilməsi kənd təsərrüfatının inkişafı ilə yanaşı, respublikamızda yüngül və yeyinti sənayesinin inkişafına da güclü təkan verdi. Üzüm istehsalı 2 milyon tonu ötərək respublikamız ittifaq miqyasında birinci yeri tutdu, ilk dəfə olaraq 1 milyon tondan çox pambıq istehsalına nail olundu. Azərbaycan qısa müddət ərzində iqtisadiyyatın bütün sahələrində geridə qalmış bir respublikadan ittifaq səviyyəsində öncül yerə yüksəldi. Həmin dövrdə çoxlu sayda məktəblər, xəstəxanalar tikildi, müasir infrastruktur və kommunikasiya xətləri yaradılaraq əhatə dairələri genişləndi.

Heydər Əliyev 1969-1982-ci illərdə Azərbaycanda həyata keçirdiyi taleyüklü tədbirlərin mahiyyətini belə xarakterizə edirdi: "Bəli, mən istəyirdim ki, Azərbaycan müstəqil olsun. Hər şeydən əvvəl, iqtisadi cəhətdən. Çünki istənilən müstəqilliyin əsasında iqtisadiyyat durur. Məsələn, mən burada çoxlu elektrik stansiyaları tikdirdim. Məndən soruşurdular ki, bunlar sənin nəyinə lazımdır? Mən onlara bunu nə üçün etdiyimi demirdim... Amma mən istəyirdim ki, mənim ölkəm, mənim xalqım istənilən şəraitdə müstəqil yaşaya bilsin".

Bununla yanaşı, müstəqil dövlətin yaradılması üçün müstəqil iqtisadiyyatın qurulması kifayət deyildi. Bunun üçün milli şüuru oyatmaq və azərbaycançılıq ideyasını inkişaf etdirmək lazım idi. Bu məqsədlə məhz Heydər Əliyevin təşəbbüsü ilə iqtisadiyyatın və milli-mədəni həyatımızın yüksək inkişafını gələcəkdə də davam etdirmək, müasir çağırışlara uyğun idarəetmə qabiliyyətinə malik savadlı və bacarıqlı gənc kadrların yetişdirilməsi ön plana çəkildi və hər il yüzlərlə azərbaycanlı gənc keçmiş SSRİ-nin ən nüfuzlu universitet və ali məktəblərində müasir ixtisaslar üzrə təhsil almaq imkanı qazandılar. Həmin dövrdə uzaqgörənliklə düşünülmüş qaydada həyata keçirilən bu möhtəşəm tədbirlər sayəsində başlayan milli-mədəni dirçəliş, özünüdərk, milli ruhun yüksəlişi xalqımızın illərdən bəri qəlbində yaşatdığı müstəqil dövlətçilik ideyasının milli azadlıq mübarizəsində əsas hərəkətverici qüvvəyə çevrilməsinə və respublikamızın müstəqil dövlət kimi fəaliyyət göstərməsinə möhkəm zəmin yaratdı. Məhz bu illərdə sovet imperiyasının sərt rejiminə baxmayaraq, dahi şəxsiyyət Azərbaycanı müstəqilliyə hazırlamışdı.

Heydər Əliyevin Azərbaycana rəhbərliyi dövründə qazanılan uğurlar Prezident İlham Əliyevin "Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 85 illik yubileyi haqqında" sərəncamında özünün əhatəli əksini tapmışdır. Sərəncamda deyilir: "1969-1982-ci illərdə həyatımızın bütün sahələrində baş vermiş köklü dəyişikliklər öz miqyasına görə Azərbaycanın quruculuq salnaməsində ən dolğun səhifələri təşkil edir. Ölkəmizin müstəqilliyinin və dünya iqtisadiyyatına inteqrasiya proseslərinin hazırkı möhkəm təməli Heydər Əliyev tərəfindən həmin illərdə yaradılmış potensiala əsaslanır".

Məhz Heydər Əliyevin həmin dövrdə Azərbaycan Respublikasında həyata keçirdiyi heyrətamiz quruculuq işləri, onun yüksək idarəçilik qabiliyyəti, dövlətçiliyi inkişaf etdirmək bacarığı və rəhbər işçi kimi böyük potensiala malik olması həmin vaxt ittifaqa rəhbərlik edənlərin diqqətini cəlb etdi və Heydər Əliyev 1982-ci ildə SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə təyin edildi. O, bu vəzifədə işlədiyi müddətdə ittifaqda mövcud olan ən problemli sahələrin həlli məsələləri ilə dərindən məşğul olaraq həmin sahələrin inkişafını təmin edirdi. Heydər Əliyev artıq SSRİ-nin bütün bölgələrində bacarıqlı və işgüzar bir rəhbər kimi tanınaraq yüksək nüfuz sahibi idi. O, tez-tez inkişaf etmiş ölkələrdə olur, onlarla əməkdaşlıq problemlərini müzakirə edir və dünyanın siyasi elitasında hörmətlə qarşılanırdı. Heydər Əliyev Azərbaycandan kənarda olsa da, həmin illər respublikamızda baş verən proseslərlə daim maraqlanır, problemlərin həllində kömək göstərir və respublikamızın dinamik inkişafı üçün əlindən gələni edirdi.

Dövrünün nəhəng imperiyalarından olan Sovetlər İttifaqına rəhbərlik edən şəxslərdən biri kimi Heydər Əliyev Kremldə çalışdığı vaxtlar təkcə Azərbaycanın deyil, həm də ittifaqın bütün türk-müsəlman xalqlarının ən güclü dayağı idi. Onun liderlik məharəti, ittifaqda və beynəlxalq aləmdə böyük nüfuzu, məhsuldar işləmək qabiliyyəti xoşniyyətli insanları sevindirir, bir çox bədxahlarda isə ona qarşı qısqanclıq hissi yaradırdı. Bunun nəticəsi idi ki, 1987-ci ildə SSRİ rəhbərliyində, xüsusilə M.Qorbaçov tərəfindən aparılan təqiblərə cavab olaraq Heydər Əliyev vəzifəsindən istefa verdi.

Bundan 15 gün sonra SSRİ rəhbərliyinin Heydər Əliyevdən çəkindiyi üçün dəstək verə bilmədiyi bir anti-Azərbaycan prosesi - ermənilərin çoxdan çalışdıqları məkrli separatizm siyasəti baş qaldırdı və Dağlıq Qarabağın Azərbaycandan ayrılaraq Ermənistana birləşdirilməsi məsələsi gündəliyə çıxarıldı. Bununla da Azərbaycanın ağrı-acılarla dolu dövrü başlandı. Respublikamızda erməni separatizmi Moskvanın əli ilə genişlənməyə başladı və Azərbaycan xalqına qarşı 20 Yanvar faciəsi, Xocalı soyqırımı törədildi. Ümummilli Lider Azərbaycan dövlətçiliyi və xalqı naminə fəaliyyətini hakimiyyətdə olmadığı dövrlərdə də davam etdirərək ən çətin anlarda xalqının yanında olmuşdur. Belə ki, xalqımızın böyük oğlu həyatını təhlükə qarşısında qoyaraq 1990-cı ilin Qanlı Yanvar faciəsini törətdiyinə görə, o zaman hakimiyyətdə olan sovet rəhbərliyini və faciənin digər təşkilatçılarını kəskin ittiham edən bəyanatla Moskvada - Azərbaycan nümayəndəliyində çıxış etmişdir. Bu kəskin bəyanatdan sonra o, Moskvada yaşamağın mənasız olduğunu bilərək 1990-cı il iyulun 20-də Bakıya, iki gün sonra isə doğma yurdu Naxçıvana qayıtmış və buradan bütün Azərbaycanın qurtuluş mübarizəsinə rəhbərlik etmişdir.

Həmin illər Heydər Əliyevin rəhbərliyi ilə Naxçıvan Muxtar Respublikasında yeni iqtisadi təfəkkürə söykənən, bazar iqtisadiyyatı tələblərinə uyğun islahatlar aparılaraq yeni iqtisadi model formalaşdırıldı. Muxtar respublikanın iqtisadi problemlərinin həllinə ciddi diqqət yetirilir, Ermənistanın həyata keçirdiyi blokadanın vurduğu ziyanın aradan qaldırılması üçün tədbirlər görülür, geniş quruculuq işləri aparılırdı. Eyni zamanda bütün qüvvələr bölgənin erməni silahlı qüvvələri tərəfindən işğal olunmasının qarşısını almağa səfərbər edilirdi.

Buna baxmayaraq, həmin vaxt Azərbaycanda hakimiyyətdə olan və Heydər Əliyevin Naxçıvanda əldə etdiyi uğurları gözü götürməyən Xalq Cəbhəsinin rəhbərləri 1992-ci il oktyabrın 24-də Naxçıvanda silahlı çevriliş edib Heydər Əliyevi tutduğu vəzifədən devirməyə cəhd etdilər. Amma buna nail ola bilmədilər. Çünki Heydər Əliyev naxçıvanlılara, sözün əsl mənasında, arxa olduğundan əhali də ona arxa durmaqla yanaşı, böyük hörmət və ehtiram bəsləyərək müdafiə etdi. Məhz bunun sayəsində çevrilişə cəhddən cəmi bir ay sonra - 1992-ci il noyabrın 21-də Azərbaycan hakimiyyətinin bütün etirazlarına və qadağalarına baxmayaraq, Naxçıvanda Yeni Azərbaycan Partiyasının yaradılması ilə bağlı təsis konfransı keçirildi və Heydər Əliyev YAP-ın Sədri seçildi.

Naxçıvanda yeni dövlət quruculuğu istiqamətində böyük işlərin getdiyi bir vaxtda Azərbaycan Respublikasına səriştəsiz rəhbərlik, getdikcə güclənən özbaşınalıq, cəbhədə yaranan gərgin vəziyyət hakimiyyətə qarşı narazılığı artırmaqla ölkədə yenicə qazanılmış müstəqilliyin əldən getməsinə real təhlükə yaratmışdı. Bunu görən Azərbaycan xalqı böyük dövlətçilik təcrübəsi olan, tanınmış siyasi xadim Heydər Əliyevi təkidlə ikinci dəfə Azərbaycan Respublikasına rəhbərliyə dəvət etdi. Xalq özünün sevimli oğluna etimad edir və inanırdı ki, yalnız Heydər Əliyev gündən-günə çətinləşən bu gərgin vəziyyətdən çıxış yolu tapa bilər və Azərbaycan Respublikasının müstəqilliyini qoruyub saxlaya və inkişaf etdirə bilər.

Doğma xalqının istəyinə heç zaman biganə qalmayan görkəmli dövlət xadimi Heydər Əliyev xalqın çağırışını qəbul edərək 1993-cü il iyunun 15-də ölkənin ali qanunverici orqanının sədri və həmin il 3 oktyabr taixində Azərbaycan Respublikasının Prezidenti seçildi. Ulu Öndər yenidən siyasi hakimiyyətə qayıtmaqla xalqımızı düçar olduğu bəlalardan, vaxtilə özünün qurub-yaratdığı Azərbaycanı dağılmaq, dövlət müstəqilliyini itirmək təhlükəsindən xilas etdi. Heydər Əliyev özü bu barədə deyirdi: "İndi bütün həyatımı təhlil edəndə görürəm ki, hər halda bir başlıca hadisə var, o da budur ki, mən Azərbaycanın müstəqilliyini təmin edə bilmişəm. Onu daxili çəkişmələr alovunda, dağıntılar və qan içində məhv olmağa qoymamışam". Məhz Ulu Öndərin uzaqgörən siyasəti nəticəsində tezliklə Ermənistanla atəşkəs əldə edilərək, ölkədə siyasi və iqtisadi sabitlik bərqərar oldu. Bundan sonra siyasi sistemin təkmilləşməsi istiqamətində möhkəm addımlar atıldı və 1995-ci ildə müstəqil Azərbaycan Respublikasının Konstitusiyası qəbul olundu. Təbii ki, bütün bunlar elə də asan başa gəlmədi. Azərbaycanın inkişafını, Heydər Əliyevin hakimiyyətdə olmasını istəməyən müəyyən qüvvələr 1994-cü və 1995-ci illərdə dövlət çevrilişinə cəhdlər etmiş, terror aktları törətmək istəmişlər. Lakin bu hərəkətlərin qarşısı Ulu Öndərin rəhbərliyi ilə vaxtında və yüksək peşəkarlıqla alınmış və ölkədə hərtərəfli inkişafa zəmin yaradan daxili sabitlik təmin olunmuşdur. Bununla yanaşı, ölkəmizin xarici siyasətinin formalaşması istiqamətində də işlər sürətləndirildi və Azərbaycan həm Rusiya və həm də ABŞ və Avropa ölkələri, habelə bölgə dövlətləri ilə yaxın qonşuluq, dostluq və strateji tərəfdaşlıq münasibətləri yaratmağa nail oldu. Qardaş Türkiyə ilə "bir millət, iki dövlət" prinsipi əsasında bütün istiqamətlərdə əməkdaşlıq bərqərar oldu.

Azərbaycan dövlətini labüd fəlakətdən, hərc-mərclikdən xilas edən Heydər Əliyev müstəqilliyimizi qoruyub əbədiləşdirdiyi kimi, xalqımızın xoşbəxt və firavan gələcəyini də təmin etmişdir. Həm müstəqilliyimizi möhkəmləndirmək, həm də Azərbaycanı qüdrətli dövlətə çevirmək üçün böyük öndər ölkənin iqtisadi yüksəlişi üçün mühüm tədbirlər həyata keçirmişdir. İttifaq səviyyəsində mövcud olan iqtisadi əlaqələr qırıldıqdan sonra milli iqtisadiyyatın dirçəldilməsi üçün ölkənin malik olduğu təbii resurslardan istifadə edilməsi və milli məhsulların xarici bazarlara çıxışının təmin edilməsi mühüm əhəmiyyət kəsb edirdi.

Heydər Əliyev Azərbaycan Respublikasının bir dövlət kimi formalaşmasında, müstəqilliyinin qorunub saxlanmasında, möhkəmlənməsində və gələcək inkişafına etibarlı zəmin yaradılmasında müstəsna rol oynayan fenomen şəxsiyyətdir. Bu mənada onun zəngin dövlətçilik irsi və həyat fəlsəfəsi hələ uzun müddət diqqət mərkəzində olacaq. Odur ki, qədirbilən xalqımız Heydər Əliyevin Azərbaycan Respublikasına rəhbərliyə qayıtdığı 1993-cü il 15 İyun gününü Milli Qurtuluş Günü hesab edir.

Xalqımız dahi şəxsiyyətin vətənə ləyaqətlə xidmətinin bariz nümunəsini həm də prezident seçkiləri ilə əlaqədar 2003-cü il 1 oktyabr tarixində doğma xalqına ünvanladığı son müraciətində bir daha yəqin etdi. Həmin müraciətdə deyilirdi: "Üzümü sizə - həmvətənlərimə tutaraq, qarşıdan gələn prezident seçkilərində prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası Sədrinin I müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

Ulu Öndərin bu tarixi müraciətindən ötən müddətdə respublikamızın həyatında baş verən hadisələr onun dediklərinin reallıqla uzlaşdığını və söylədiyi fikirlərin həqiqət olduğunu bir daha göstərdi. Keçən dövr ərzində beş dəfə Azərbaycan xalqının əksəriyyətinin böyük dəstəyini qazanaraq Prezident seçilən İlham Əliyev Ümummilli Liderin layiqli varisi olduğunu və Azərbaycan Respublikasını gündən-günə daha yaxşı gələcəyə aparan lider olduğunu sübut etdi.

Bünövrəsi Heydər Əliyev tərəfindən qoyulmuş müstəqil Azərbaycan Respublikası artıq 23 ildir ki, Prezident İlham Əliyev tərəfindən uğurla idarə olunur və ölkəmiz beynəlxalq aləm və dünyanın aparıcı ölkələri tərəfindən regionun lider ölkəsi kimi qəbul olunur. Bu illər ərzində müxtəlif istiqamətlərdə hörmətli Prezidentimizin rəhbərliyi ilə həyata keçirilən tədbirlər sayəsində Azərbaycan Respublikasının iqtisadiyyatı və valyuta ehtiyatları, habelə orta əməkhaqqı, pensiya və müavinətlər dəfələrlə artmış, işsizliyin və yoxsulluğun səviyyəsi isə minimuma enmişdir. Bu da respublikamızın gələcəkdə uzun müddət davamlı və dayanıqlı inkişafının etibarlı təminatı deməkdir.

Bu illərdə əldə etdiyimiz möhtəşəm uğurların zirvəsində Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində şanlı Azərbaycan Ordusunun Ermənistan ordusunu darmadağın edərək diz çökməyə məcbur etməklə qazandığı parlaq qələbə dayanır. Bu qələbə ilə İlham Əliyev ölkənin ərazi bütövlüyünü və suverenliyini təmin edən Prezident kimi qızıl hərflərlə Azərbaycan tarixində yeni bir səhifə açdı. Qazandığımız bu möhtəşəm qələbə bir daha sübut etdi ki, Qarabağ Azərbaycanın əzəli torpağıdır və Azərbaycan xalqı vətənini, xalqını sevən dövlət başçısının rəhbərliyi ilə öz ərazi bütövlüyünü təmin etməyə, onu dünyanın ən gözəl diyarına çevirməyə qadirdir.

*Hazırda erməni işğalından azad etdiyimiz Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının əraziləri yenidən qurulur. "Böyük qayıdış" proqramı sürətlə icra olunur. Şübhə etmirik ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi altında xalqımız bu şərəfli vəzifənin də öhdəsindən tezliklə gələcək və bütöv Azərbaycan Respublikası inkişaf yolunu bundan sonra da uğurla davam etdirəcək.*

***Eldar İBRAHİMOV,***
***Milli Məclisin İntizam komissiyasının sədri,***
***iqtisad üzrə elmlər doktoru, professor***

1923 Azərbaycanın özü qədər əbədi 2026

**Torpaqlarımızın işğaldan azad edilməsi və Qarabağdakı erməni separatizminə son qoyulması müasir Azərbaycanın tarixində yeni siyasi, iqtisadi və sosial mərhələnin başlanğıcı oldu. Bu dövrü siyasi baxımdan ona görə dəyərləndiririk ki, artıq bütün ərazilərimiz üzərində milli suverenliyimiz tam təmin edilib. Azərbaycanın Konstitusiyası artıq Qarabağ və Şərqi Zəngəzurda qüvvədədir və dünya respublikamızın yaratdığı yeni reallıqları qəbul edir.**



# Azərbaycanın quruculuq salnaməsinin müəllifi

İqtisadi baxımdan Azərbaycan tarixinin yeni mərhələsi işğaldan azad olunmuş ərazilərimizin iqtisadi potensialının hərəkətə gətirilməsini, Qarabağ və Şərqi Zəngəzurun ölkənin iqtisadi dəyər zəncirinə qoşulmasını özündə ehtiva edir. Sosial baxımdan tariximizin yeni dövrü Qarabağ və Şərqi Zəngəzurda yenidən başlanan həyatdır.

Anadan olmasının 103-cü ildönümünü əlamətdar hadisə kimi və böyük minnətdarlıq hissi ilə qeyd etdiyimiz Ulu Öndər Heydər Əliyevin ən böyük arzularından biri Azərbaycanı məhz bu cür görmək idi. O, torpaqlarımızı azad görmək, məcburi köçkünlərin öz doğma evlərinə qayıtmalarını istəyirdi və siyasi fəaliyyətinin mərkəzində bu məsələlər dayanırdı, inanırdı və əmin idi ki, bütün bunlar reallığa çevriləcək. "Azərbaycan bu vəziyyətdən çıxacaq, Azərbaycanın ərazi bütövlüyü təmin olunacaq, qaçqınlar öz yerinə, yurduna qayıdacaqlar və Azərbaycan müstəqil dövlət kimi yaşayacaq, inkişaf edəcəkdir", - deyə Heydər Əliyev çıxışlarının birində bildirmişdi.

Ulu Öndərin bir zamanlar söylədiyi bu fikirlər artıq reallıqdır. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev bütün bunları təmin etməklə Ulu Öndərin arzularını çin etdi, Azərbaycanın müasir tarixinin ən şərəfli səhifələrini yazdı. Heydər Əliyevin ruhu artıq rahatdır.

## Qarabağ və Şərqi Zəngəzurdakı şəhərlər planlı şəkildə bərpa olunur

Tarixinin yeni mərhələsində dövlətimiz müasir qlobal baxışları, rəqəmsal çağırışları, innovasiyaları rəhbər tutaraq öz hədəflərinə doğru inamla addımlayır. Bu mərhələdə əsas milli prioritet və milli ideya Qarabağ və Şərqi Zəngəzurun yenidən qurulması, işğaldan azad edilmiş yurd yerlərimizin bərpasıdır. Prezident İlham Əliyev 2022-ci il oktyabrın 5-də Ağdamda "Dayanıqlı İnkişaf Məqsədləri" və "Yeni Şəhər Gündəliyi" - postmünaqişə dövründə bərpa və yenidənqurmanın aparıcı qüvvəsi kimi" mövzusunda keçirilən Azərbaycan Milli Şəhərsalma Forumunda bu barədə deyib: "Biz Qarabağı və Zəngəzuru yenidən quracağıq. Buna heç bir şübhəmiz yoxdur. Necə bahalı olursa-olsun, bunu edəcəyik. Bu, bizim milli ideyamızdır".

Qarabağ və Şərqi Zəngəzur sürətlə bərpa olunur. Xüsusilə qeyd edilməlidir ki, bu iqtisadi rayonlardakı bütün şəhərlər baş planlar və müasir çağırışlar əsasında yenidən qurulur. Bu yerdə qeyd edək ki, Prezident İlham Əliyevə işğaldan azad olunmuş rayonlara səfərləri zamanı bərpa edilən və yenidən qurulan bütün şəhərlərimizin baş planları təqdim olunub. Dövlətimizin başçısı qeyd edib ki, quruculuq planlı və sistemli şəkildə aparılmalıdır: "Azad edilmiş bütün torpaqlarda görüləcək bütün işlər ancaq baş planlar əsasında olmalıdır. Baş plandan kənar bir dənə də daş daş üstə qoyulmamalıdır, bir dənə də qanunsuz tikili olmamalıdır. Yəni biz nümunəvi bir yaşayış məkanını yaradırıq. Həm Azərbaycan üçün, həm dünya üçün nümunəvi bir təcrübə sahibi olacağıq". Həqiqətən, Şuşa, Füzuli, Ağdam, Cəbrayıl, Kəlbəcər, Zəngilan və işğaldan azad edilmiş digər şəhərlərimizdə həyata keçirilən layihələr müasir şəhərsalmanın uğurlu nümunəsidir. Bu şəhərlərdə vətəndaşlarımızın məskunlaşması təmin olunub və bu proses davam edir.

## Azərbaycanda şəhərsalmanın böyük tarixi və zəngin ənənələri var

Azərbaycan ərazisindən tarixən karvan yollarının keçməsi şəhərlərin formalaşmasına və inkişafına mühüm təsir göstərmişdir. Müxtəlif tarixi mərhələlərdə yaranan şəhərlərimiz yaşayış məntəqələri olmaqla yanaşı, xalqımızın iqtisadi və mədəni yüksəlişində mühüm rol oynamışlar. Bu şəhərlərdə həm də tarixən Azərbaycanın milli memarlığı yaranmış və özünəməxsus xüsusiyyətləri və ənənələri əsasında təkamül yolu keçmişdir.

Bakı, Gəncə, Naxçıvan, Şəki, Şuşa və digər şəhərlərimizdəki tarixi abidələr Azərbaycanda köklü şəhərsalma mədəniyyətinin və ənənələrinin olduğunu göstərir. Bu gün ölkə ərazisində dövlət tərəfindən mühafizə olunan qədim tikililər, qalalar, karvansaralar, məscid, məbəd və türbələr milli memarlığın və şəhərsalmanın parlaq ənənələrini nümayiş etdirir. 1750-ci ildə salınmış Şuşa şəhəri Azərbaycanda şəhərsalmanın və Orta əsr milli memarlığının ən parlaq nümunəsidir.

XX əsr isə Azərbaycanda şəhərsalmanın inkişafında mühüm tarixi mərhələ hesab olunur. Əlbəttə, buna qədər də Azərbaycanda şəhərlər inkişaf edir, böyüyürdü. Məsələn, Şuşanın bir şəhər kimi tarixi inkişafı əsasən XIX əsrin əvvəllərindən vüsət almış, şəhərin bir sıra məhəllələri yaranmışdır. O cümlədən Bakı neftin çıxarılması ilə əlaqədər XIX əsrdən inkişaf etməyə və böyüməyə başlamışdır. Bakının planlaşdırılması tarixinin başlanğıcı da XIX əsrə təsadüf edir. İlk dəfə olaraq XIX əsrin əvvəllərində (1810-1822-ci illərdə) Qalanın (İçərişəhər) baş planı bir neçə variantda işlənilmişdir.

O cümlədən digər şəhərlərimizdə XIX əsrdə çoxsaylı memarlıq nümunələri yaradılmışdır. Lakin XX əsr Azərbaycanda şəhərsalma sahəsində tamamilə fərqli bir mərhələdir. Prezident İlham Əliyevin Azərbaycan Respublikasında 2026-cı ilin "Şəhərsalma və Memarlıq İli" elan edilməsi haqqında sərəncamında bu barədə deyilir: "Azərbaycan Respublikasında şəhərsalma və memarlıq fəaliyyətində milli ənənələrdən yaradıcı şəkildə istifadə olunmasına XX əsrdə xüsusi diqqət yetirilmişdir. Bu dövrdə bir sıra şəhərlər yenidən qurulmuş və onların əvvəlki siması dəyişmiş, bölgələrdə şəhərlərin planlaşdırılması önə çəkilmişdir. İki görkəmli memarın - Mikayıl Hüseynovun və Sadıq Dadaşovun fəaliyyətinin aparıcı yer tutduğu həmin dövr milli ənənələr zəminində yeni memarlıq üslubunun yaradılması ilə səciyyələnir".

Sovet dövründə həm Bakının inkişafı, həm də bütövlükdə respublika üzrə şəhərsalma və kəndlərin simasının dəyişməsi bir neçə mərhələdən keçmişdir. Bu dövrdə şəhər və kəndlərin simasının dəyişməsi, müasirləşməsi, urbanizasiyanın iqtisadiyyatın, sənayenin, kənd təsərrüfatının inkişafı şərtləri əsasında reallaşması əsasən Ulu Öndər Heydər Əliyevin Azərbaycana rəhbərliyi illərində baş vermişdir. Heydər Əliyevin respublikamıza rəhbərlik illəri həm də milli memarlığımızın daha da inkişafı dövrü kimi xarakterizə olunur. "Ümummilli Lider Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi illər Azərbaycan şəhərsalma və memarlığının inkişafında xüsusi mərhələ təşkil edir. Tarixən təşəkkül tapmış Azərbaycan şəhərlərinin və bütöv şəhərsalma sistemlərinin qorunması ilə bağlı bu illərdə Ulu Öndərin təşəbbüsü əsasında vacib qərarlar qəbul edilmiş, tədbirlər həyata keçirilmiş, şəhərlərdə memarlıq abidələrinin bərpası üzrə planlı iş aparılmış, memarlıq və şəhərsalma fəaliyyətinin davamlılığını təmin edən institusional təsisatlar qurulmuşdur" - Prezident İlham Əliyevin Azərbaycan Respublikasında 2026-cı ilin "Şəhərsalma və Memarlıq İli" elan edilməsi haqqında sərəncamında deyilir.

## Planlaşdırma olsa da, göstəricilər məqbul deyildi

Bakı yalnız regionun deyil, dünyanın gəzməli və görməli şəhərlərindən biridir. Paytaxtımızın gözəlliyi və memarlıq nümunəsi baxımından tayı-bərabəri olmayan binalarının bir çoxu XIX əsrin sonu-XX əsrin əvvəllərində inşa olunub. O cümlədən Dənizkənarı bulvarın, indiki bir çox küçənin yaranma tarixi çarizm dövrünə təsadüf edir. Lakin Bakının müasir şəhərsalma qaydaları və normaları əsasında inkişafı əsasən Azərbaycanda sovet hakimiyyətinin qurulmasından sonra başlayır. Bu dövrdən etibarən Bakıda elmi cəhətdən əsaslandırılmış planlaşdırma həyata keçirilmişdir.

1924-1927-ci illərdə hazırlanmış A.P.İvanitskinin başçılığı altında hazırlanmış Baş planın əsasında şəhərin təbii iqlim və mənzil-kommunal şəraitinin araşdırılması, inkişaf perspektivləri, sənaye rayonlarının istehsalat profili və s. dururdu. Baş planda məhəllələrin, meydançaların tikilməsi, yaşıllıqların salınması, küçə nəqliyyatının qurulması öz əksini tapmışdı. 1934-1937-ci illərdə Leninqrad (indiki Sankt-Peterburq) və Bakının baş memarı olan məşhur memar L.A.İlyinin rəhbərliyi ilə Bakının yeni Baş planı hazırlandı. Bu planın əsas ideyalarından biri də Dənizkənarı ərazidə şəhər mərkəzinin və dənizkənarı parkın salınması idi. Bu Baş plan tərtib edilərkən əvvəlki baş planların müsbət cəhətləri nəzərə alınmış və bir sıra məsələlər dəqiqləşdirilmiş və inkişaf etdirilmişdi. Baş planın müsbət cəhətlərindən biri də Bakı amfiteatrını tam əhatə etməsi, ətraf qəsəbələri birləşdirməsi, şəhər ərazisinin amfiteatr formasını saxlaması, həm də tikintinin növbələşməsi, relyefin və seysmikliyin şərtlərini nəzərə almaqla ərazinin zonalaşdırılması hesab edilir.

İkinci Dünya müharibəsindən sonra respublikamızda şəhərsalma prosesləri xeyli dərəcədə dəyişikliklərə məruz qaldı. Bu baxımdan Sumqayıt, Mingəçevir, Şirvan şəhərlərinin salınması və formalaşmasını xüsusi olaraq qeyd etmək lazımdır. Müharibədən sonra SSRİ-nin bütün paytaxt şəhərlərində mənzil tikintisini sürətləndirmək üçün bir sıra yeniliklər oldu, o cümlədən əhali arasında "xrüşşovka" adı ilə tanınan 5 mərtəbəli binalar tikildi. 1951-1954-cü illərdə Bakı şəhərinin yeni Baş planı hazırlandı. Baş plan bütün Bakı amfiteatrının ərazisini əhatə etməklə, 1970-ci ilə qədər olan müddəti nəzərdə tuturdu.

Ötən əsrin 60-cı illərində Azərbaycan əhalisinin 20 faizdən çoxu Bakıda yaşayırdı. Əhalinin sayına görə, Bakı ittifaq respublikaları arasında dördüncü yeri tutan şəhər idi. Lakin inkişafı səciyyələndirən bir sıra şərtlər üzrə Bakının göstəriciləri ittifaqın digər şəhərləri ilə müqayisədə aşağı idi. Həmin dövrdə araşdırmalardan aydın olmuşdu ki, paytaxtda olan 7,5 mln. kvadratmetr yaşayış sahəsinin 2,8 mln. kvadratmetri inqilabdan əvvəl tikilib və onlar heç bir mühəndis, sanitariya-gigiyena kommunikasiyasına malik deyil. 1968-ci il noyabrın 9-da Bakıda yağan güclü yağışlar nəticəsində baş verən daşqın bu evlərin yararsız olduğunu bir daha sübut etdi. Deyilən ərazilərə İçərişəhər, Keşlə qəsəbəsi, Oktyabr (indiki Yasamal) rayonunun dağlıq hissəsi, Bayıl, "Təzə bazar" adlanan sahə ilə üzbəüz Səməd Vurğun küçəsindəki ərazi, "Ağ"və "Qara" şəhər aid idi. Üstəlik metropolitenin və vacib sənaye obyektlərinin tikintisi ilə əlaqədar yaşayış üçün yararsız evlərin sökülməsi məsələsi ortaya çıxırdı.

Kəndlərdə də vəziyyət qənaətbəxş deyildi. 1969-cu il yanvarın 1-i məlumatına görə, Azərbaycanın 2 milyon 433 min nəfərdən ibarət olan bütün əhalisinin 49 faizini təşkil edən kənd əhalisi 60 inzibati rayonun ərazisində, çox vaxt bir-birindən xeyli uzaq olan son dərəcə kiçik qəsəbələr halında yerləşmiş 4359 yaşayış məntəqəsində yaşayırdı. Bu qəsəbələrin əksəriyyəti abad yollar, içməli su, kanalizasiya, yaşıllıqlar və zəruri mədəni-məişət obyektləri ilə təmin edilməmişdi. Kəndlərin əksəriyyəti əsasən müasir sanitariya-gigiyena və kommunal-məişət tələblərinə cavab verməyən evlərdən ibarət idi. Samanlı çiy kərpicdən tikilən, üstü hörmə qamışla örtülən və palçıqla yapılan daxmalar hələ də qalırdı. Kəndlərdə müasir məktəb, kitabxana, klub yox dərəcəsində idi. Məktəbəqədər uşaq tərbiyə ocaqlarının, xəstəxanaların, poliklinikaların və hamamların tikintisi çox ciddi problem olaraq qalırdı. Dağ və dağətəyi zonalarda yerləşən yaşayış məntəqələri bulaq suyu ilə az-çox qənaətbəxş təmin edilsələr də, müasir su kəmərlərinə ehtiyac hiss olunurdu. Kanalizasiya isə yox dərəcəsində idi. Yalnız bir neçə sovxoz qəsəbəsində kanalizasiya sistemləri yaradılmışdı. Hətta mərkəzi su təchizatı sistemi olan yaşayış məntəqələri kanalizasiya şəbəkəsi ilə təmin edilməmişdi.

1968-ci ilin əvvəlinədək kənd yerlərində ancaq 10 min mənzilə qaz çəkilmişdi ki, bu da kənd əhalisinin bütövlükdə az bir hissəsini təşkil edirdi. Respublikada yalnız iki yerdə - Yevlax və Əli Bayramlı (Şirvan) şəhərlərində qazpaylayan stansiyalar işləyirdi. Belə bir stansiya bir də 1969-cu ilin sonunda Naxçıvanda istifadəyə verildi. Respublika rayonlarının əksəriyyətinin meşəsiz olduğunu, əhalinin yanacaqla yarıtmaz təchiz edildiyini nəzərə alaraq və torpaq erroziyasına qarşı mübarizə vəzifələrini əsas tutaraq, kənd yerlərinə qaz çəkilişinin sürətinin artırılması gündəlikdə duran ən vacib məsələlərdən biri hesab edilirdi. Respublikaya hər il yüz min tonlarla daş kömür gətirilsə də, ehtiyac tam ödənilmirdi.

## Ötən əsrin 70-ci illərində Azərbaycan böyük tikinti meydanını xatırladırdı

Yalnız Bakıda deyil, bütün Azərbaycanda şəhərsalmanın ən sürətli dövrü, habelə kəndlərin inkişafı Ulu Öndər Heydər Əliyevin 1969-cu ildə respublikamıza rəhbərliyə başlamasından sonrakı dövrü əhatə edir. Ulu Öndər şəhərlərin inkişafını, mənzil fondunun artırılması, insanların məişət şəraitinin yaxşılaşdırılması üçün bütün imkanlardan istifadə edilməsini daim nəzarətdə saxlayır və bu istiqamətdə işlərin daha da canlandırılması üçün hökumətə, müvafiq icra strukturlarına konkret tapşırıqlar verirdi.

Respublika rəhbərliyi bu sahədə görülən işlərin daha da sürətləndirilməsi üçün ittifaq hökuməti qarşısında məsələlər qaldırır, mənzil tikintisi bazasının möhkəmləndirilməsi və istifadəsində neqativ halların aradan qaldırılması istiqamətində tədbirlər görürdü. O cümlədən Bakıda yeni mikrorayonların və qəsəbələrin salınması prosesi sürətləndi. Hər il ən azı 800 min - 1 milyon kvadratmetr mənzil sahəsinin istifadəyə verilməsi üçün tapşırıqlar verildi. Paytaxtda yaşayış, məktəb, xəstəxana, mədəni-məişət obyektlərinin tikintisi ilə əlaqədar konkret proqram həyata keçirildi.

Artıq 70-ci illərdə Azərbaycan böyük bir tikinti meydançasını xatırladırdı. Bütün respublika ərazisində bir-birinin ardınca ucalan yaşayış binaları, mədəni-məişət və sağlamlıq ocaqları, sənaye obyektləri Azərbaycanın simasını dəyişdi. Mənzil tikintisini getdikcə daha da genişləndirmək məqsədilə hər il çoxlu vəsait buraxıldı. Obyektlərin ixtisaslı kadrlara olan tələbini ödəmək üçün də mühüm tədbirlər görüldü.

Azərbaycan SSR Nazirlər Sovetinin 4 may 1972-ci il tarixli qərarı ilə Bakının Baş planının texniki-iqtisadi əsasları (TİƏ) təsdiq edildi. TİƏ əsasında 1972-1976-cı illərdə Bakının Baş İnkişaf Planı tərtib edildi. Planda şəhər planlaşdırma bazasının inkişafına, ərazinin artmasına və şəhərin fəaliyyət zonalarının təkmilləşdirilməsinə baxılmış, eləcə də mənzil, mədəni-məişət və mülki tikintinin digər növlərinin, yaşıllaşdırmanın və abadlaşmanın, həmçinin mühəndislik və yol-nəqliyyat təminatının inkişafının sosial-iqtisadi və şəhər planlama perspektivləri müəyyən edilmişdi. Şəhərin memarlıq-kompozisiya görünüşünün yaxşılaşdırılması məsələlərinə böyük diqqət ayrıldı.

Bakıda yeni binaların tikintisi əsasən mikrorayonlarda aparılırdı ki, bunlar da iri 5-9 mərtəbəli panel evlər idi. Onu da qeyd edək ki, yeni tikilən binaların texniki göstəricilərində Bakının təbii-iqlim şəraiti də nəzərə alınırdı. Təcrübə göstərirdi ki, 1960-cı illərdə tikilmiş daş binaların, iri panel binaların isə 33 faizində havaçəkmə imkanı məhdud idi. Əhalinin 75 faizi sanitar qovşaqla vanna otağının bir yerdə olması və tavanın hündürlüyünün 2,5 metr olmasından, nəfəsliyin olmamasından və mətbəxin kiçik olmasından əziyyət çəkirdi. Bütün bunlar nəzərə alınaraq sonrakı dövrdə tikilmiş evlərdə havaçəkmə sistemi quraşdırıldı və binalarda 2-3 otaqlı mənzillərin sayı artırıldı, əsasən sanitar qovşaq və vanna otağı ayrıldı, mətbəxin sahəsi 6,3 kvadratmetrədək artırıldı, tavanın hündürlüyü 2,7 metrə çatdırıldı, hər adama orta hesabla 7 kvadratmetr yaşayış sahəsinin düşməsi nəzərə alındı və s.

Artıq 70-ci illərdə Bakının yaşayış fondunun ümumi sahəsi 13,3 milyon kvadratmetrə çatdı ki, bu da 1920-1960-cı illərdəki yaşayış fondunun sahəsindən 1,5 dəfə çox idi. Köhnə evlərin yerində, boş düzənliklərdə ucalan hündür binalar, təzə salınan məhəllələr, mikrorayonlar, qəsəbələr Bakını daha yaraşıqlı etdi. O illərdə çarizm dövründə tikilmiş, lakin heç bir kommunal şəraiti olmayan, artıq yararsız hala düşmüş binaların sökülməsi məsələsinə də xüsusi diqqət yetirilirdi.

80-ci illərdə Bakıda indiki Heydər Əliyev Sarayı, "Gülüstan" sarayı, Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin binası, yeni Dəmiryolu vağzalının binası, rayon partiya komitələrinin inzibati binaları və s. kimi bir sıra böyük obyektlər tikilmiş, onlar şəhərin yeni memarlıq ansambllarının formalaşdırıcı elementinə çevrilmişdilər. O cümlədən 70-ci illərdən etibarən metro stansiyalarının inşasının sürətlənməsi Bakının müasir şəhərsalma prinsipləri əsasında inkişafını tamamlayırdı.

1981-ci ildə Heydər Əliyevin tapşırığına əsasən, Bakı Şəhər Partiya Komitəsinin və Azərbaycan SSR Təhsil Nazirliyinin qərarı ilə Xalq Təsərrüfatı İnstitutunun nəzdində mənim elmi rəhbərliyimlə paytaxtın iqtisadi-sosial inkişaf problemlərini tədqiq etmək məqsədilə elmi-tədqiqat laboratoriyası yaradıldı. Apardığımız gərgin iş öz faydasını verdi. 80-ci illərdə paytaxtın iqtisadi-sosial inkişaf istiqamətlərini nəzərdə tutan maraqlı bir iş başa çatdırıldı. Onu da qeyd edək ki, bu iş mahiyyətinə, quruluşuna, əhatə etdiyi məsələlərin aktuallığına görə, respublikamızın tarixində ilk kompleks araşdırma idi. Bu tədqiqat nəticəsində xalq təsərrüfatı sistemində Bakının rolu və yerinin nəzərə alınması isə iqtisadi-sosial, demoqrafik, coğrafi, tarixi amillərin qiymətləndirilməsi ilə şəhərin məhsuldar qüvvələrinin inkişafındakı əsas meyillər və xüsusiyyətlər aşkar edildi, plandan öncəki, plan və proqnoz tədqiqatların inkişafına kömək edən, iqtisadi və sosial inkişafı sürətləndirmə üzrə qəbul edilən qərarların effektivliyini artıran təkliflər və tövsiyələr hazırlandı.

Qeyd etdiyimiz kimi, kənddə də vəziyyət ürəkaçan deyildi. Bu işə fikir verilməməsi onunla nəticələnmişdi ki, respublikada hər kənd sakininə orta hesabla ölkə üzrə olan 13,9 kvadratmetr əvəzinə 8,1 kvadratmetr mənzil sahəsi düşürdü. Bu məsələyə münasibət bildirən Heydər Əliyev deyirdi: "Biz bununla razılaşa bilmərik. Dövlət Plan Komitəsi beşillik üçün tapşırığı təcili surətdə yenidən nəzərdən keçirməli, mənzillərin istifadəyə verilməsi həcmlərinin artım sürətini minimum ikiqat artırmalı, kənddə mənzil tikintisinin xeyli artmasını təmin etməli, əsasən fərdi və kooperativ mənzil tikintisinə fikir verməlidir. Bunun üçün bizdə bütün imkanlar vardır".

Respublikanın görkəmli memarları belə hesab edirdilər ki, "kəndləri yenidən qurmaq, kənd əhalisinə mədəni-məişət xidmətini yaxşılaşdırmaq məsələlərinə böyük əhəmiyyət verilməli, kənd və şəhər əhalisinin ictimai-iqtisadi və mədəni-məişət səviyyəsi arasında yaranmış köklü fərqləri yumşaltmaq, kənd yaşayış məntəqələrini tədricən abad qəsəbələrə çevirmək kimi məsələyə diqqətin artırılması vacib vəzifələrdən hesab edilməlidir. Kənd yerlərində köhnə yaşayış binalarının yeni yaşayış evləri ilə əvəz edilməsi, mədəni və məişət xidməti obyektlərinin daha səmərəli yerləşdirilməsi kimi məsələlərə də diqqətin artırılması vacib sayılırdı.

Artıq 70-ci illərdə kənd yerlərində dövlətin, kolxozların və əhalinin vəsaiti hesabına 5,1 milyon kvadratmetr yaşayış evləri tikildi ki, bu da üst-üstə Sumqayıt, Gəncə, Mingəçevir və Əli Bayramlı (Şirvan) şəhərlərinin mənzil fonduna bərabər idi. Kəndlərdə hər dörd adamdan biri on il ərzində özünə yeni ev tikdi.

Görülmüş bütün tədbirlərin nəticəsində hər il on minlərlə adamın mənzil şəraitinin yaxşılaşdırılması mümkün oldu. 70-ci illərdən sonra evi olmayanların mənzillə təmin edilməsi ilə yanaşı, azsahəli yaşayış evləri olan ailələrin mənzil şəraitinin yaxşılaşdırılması, normaya uyğun yeni mənzillərlə təmin edilməsi siyasəti də gücləndirildi.

Bütövlükdə, Ulu Öndər Heydər Əliyevin Azərbaycana birinci rəhbərliyi dövrünün əsas inkişaf göstəriciləri müxtəlif sosial-iqtisadi göstəricilərlə yanaşı, respublikamızda şəhərsalma mədəniyyətinin yeni keyfiyyət mərhələsinə yüksəlməsi, ölkəmizin simasının müasirləşməsi, vətəndaşların mənzil-məişət şəraitinin yaxşılaşması olmuşdur.

## Müasir, innovativ və sürətli quruculuq nümunəsi

Azərbaycan bu gün Ulu Öndərin ideyaları əsasında, Prezident İlham Əliyevin rəhbərliyi ilə inkişaf edir. Respublikamızın yüksəlişinin ən böyük nümunələrindən biri bütün şəhərlərimizin, kəndlərimizin inkişafıdır. Xüsusilə qeyd edilməlidir ki, Bakı şəhərinin və regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramları çərçivəsində ötən dövrdə mühüm işlər görülüb. Qarabağ və Şərqi Zəngəzurun yenidən qurulmasının fonunda isə Azərbaycanda müasir şəhərsalmanın müasir ənənələri formalaşır.

*Şəhərsalma sahəsində Azərbaycanın uğurlu fəaliyyəti layiqincə qiymətləndirilərək, irimiqyaslı qlobal tədbirlərdən hesab edilən Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyasının (WUF13) Bakıda keçirilməsi qərara alınıb. Məzmununa və əhatə dairəsinə görə bu forum BMT-nin İqlim Dəyişiklikləri üzrə Tərəflər Konfransından (COP) sonra ikinci ən böyük və strateji əhəmiyyətli qlobal platforma hesab olunur. Azərbaycana hörmət və etimadın göstəricisi olan bu mötəbər tədbirin yüksək səviyyədə təşkili ölkənin inkişaf strategiyalarının və dayanıqlı şəhərsalma sahəsindəki nailiyyətlərinin beynəlxalq ictimaiyyətə çatdırılması işinə əhəmiyyətli töhfə verəcək.*

*Ulu Öndər Heydər Əliyev Azərbaycanın möhtəşəm quruculuq salnaməsini yaradan böyük şəxsiyyətdir. Bu gün Prezident İlham Əliyevin liderliyi ilə davam edən bu quruculuq Azərbaycanın müasir, innovativ və sürətli inkişafını dünyaya bəyan edir.*

***Ziyad SƏMƏDZADƏ,***
***akademik***

1923 Azərbaycanın özü qədər əbədi 2026



# Ümummilli Lider Heydər Əliyevin müəyyənləşdirdiyi inkişaf strategiyası Azərbaycanın parlaq gələcəyinin əsasını qoydu

**"Mənim həyatımın məqsədi Azərbaycandır, Azərbaycan xalqıdır, Azərbaycan Respublikasıdır, Azərbaycan vətəndaşıdır", - deyən Ulu Öndər Heydər Əliyev mənalı ömrünü xalqına, dövlətinə xidmətə həsr etdi. Ümummilli Lider Heydər Əliyevin müəyyənləşdirdiyi inkişaf strategiyası, dahi liderin idarəetmə fəlsəfəsi, strateji qərarları müstəqil Azərbaycanın parlaq gələcəyinin əsasını qoydu.**

Ulu Öndər Heydər Əliyev Azərbaycana rəhbərliyinin birinci mərhələsində - 1969-1982-ci illərdə respublikanın sosial, iqtisadi və mədəni həyatında böyük inkişafa yol açan quruculuq işləri həyata keçirdi. Məhz həmin illər respublikanın ən parlaq tərəqqi dövrü kimi tarixə yazılıb. Qeyd edək ki, 1960-cı illərin iqtisadi göstəricilərinə görə, Azərbaycan digər ittifaq üzvləri arasında geridə qalan respublika idi. Bununla yanaşı, idarəetmə mexanizmi də qeyri-effektivliyi ilə səciyyələnirdi və bu, ciddi problemlərə yol açırdı.

Ümummilli Lider Heydər Əliyev institusional idarəetmə mexanizmlərini yenidən formalaşdırdı, iri sənaye müəssisələri yaradıldı, milli kadrların irəli çəkilməsi siyasəti yürüdüldü. Məhz bütün bu uğurlara görə 1969-cu il Azərbaycanın sosial-iqtisadi, elmi-texniki və mədəni inkişafının başlanğıc tarixi hesab olunur.

Həmin illərdə Ulu Öndərin rəhbərliyi ilə qısa müddət ərzində görülən işlər respublikada sənayeləşmə prosesini sürətləndirdi, bu istiqamətdə sürətli inkişafa nail olundu: kimya sənayesi kompleksinin genişləndirilməsi, maşınqayırma, elektrotexnika sahələrinin yaradılması təmin olundu, energetika infrastrukturu daha da təkmilləşdirildi. Azərbaycanı SSRİ-nin mühüm sənaye regionlarından birinə çevirən bu nəhəng işlər, eyni zamanda gələcək müstəqil dövlətin iqtisadi bazasının formalaşdırılmasında mühüm rol oynadı.

"Azərbaycanın dövlət müstəqilliyi əbədidir, dönməzdir və bizim qarşımızda duran vəzifə dövlət müstəqilliyini qorumaqdan, əbədi etməkdən ibarətdir", - deyən Ulu Öndər mənalı ömrünün son illərini də müasir müstəqil Azərbaycanın gələcəyinə, xalqımızın firavanlığının təmin olunmasına həsr etdi.

1990-cı illərin əvvəllərində əvvəlcə Vəzirov-Mütəllibov rejimi, sonra isə Xalq Cəbhəsi-Müsavat cütlüyünün yarıtmaz siyasəti nəticəsində Azərbaycan ağır fəlakətlərlə üz-üzə qaldı. Sonda isə bu dırnaqarası siyasətçilər ölkəni uçurumun kənarında qoyub qaçmaq yolunu seçdilər.

Bu qeyri-peşəkar idarəetmə və siyasi böhran dövlətçiliyin kövrək əsaslarını daha da sarsıtdı. Məhz belə bir mürəkkəb şəraitdə xalqın tələbi ilə siyasi hakimiyyətə qayıdan Ulu Öndər Heydər Əliyev qısa müddətdə ölkədə ictimai-siyasi sabitliyi bərpa etməyə nail oldu. Qeyri-qanuni silahlı dəstələr zərərsizləşdirildi, dövlət çevrilişlərinin qarşısı qətiyyətlə alındı və vətəndaş müharibəsi təhlükəsi aradan qaldırıldı. Beləliklə, dahi liderin hakimiyyətə qayıdışı ilə Azərbaycan siyasi, hərbi və iqtisadi tənəzzüldən xilas oldu, inkişaf və tərəqqi yoluna qədəm qoydu. Ölkədə idarəetmə institutları formalaşdırıldı, milli ordu quruculuğu prosesinə başlanıldı, bütün istiqamətlərdə ardıcıl islahatlar reallaşdırıldı. Ötən il 30-cu ildönümünü qeyd etdiyimiz Konstitusiyamız qəbul olundu, qanunvericilik bazası formalaşdırıldı, xarici siyasət kursu, enerji strategiyası müəyyənləşdirildi.

Parlamentin, qlobal standartlara uyğun dövlət institutlarının formalaşdırılması, məhkəmə-hüquq sistemində islahatların aparılması, idarəetmədə şəffaflıq və hüquqi mexanizmlərin gücləndirilməsi məhz Ulu Öndər Heydər Əliyevin dövlətçilik konsepsiyasının tərkib hissəsi idi. Beləliklə, Ulu Öndər Heydər Əliyev Azərbaycan dövlətçiliyinin uzunmüddətli və dayanıqlı inkişaf istiqamətlərini müəyyənləşdirdi. Olduqca mürəkkəb geosiyasi mühitdə Ulu Öndər Heydər Əliyevin həyata keçirdiyi çoxvektorlu xarici siyasət kursu Azərbaycanın beynəlxalq sistemə uğurlu inteqrasiyasına əsaslı zəmin yaratdı. Beynəlxalq təsisatlarla əməkdaşlıq, region dövlətləri ilə balanslı münasibətlər və enerji diplomatiyası Azərbaycanın mövqeyini dünyada gücləndirdi.

Bu gün Azərbaycanın qlobal enerji təhlükəsizliyinin mühüm aktoruna çevrilməsi məhz Ümummilli Liderin müəyyənləşdirdiyi enerji strategiyasının uğurlu icrası nəticəsində reallığa çevrilib. 1994-cü ildə imzalanan "Əsrin müqaviləsi" Azərbaycanın müstəqil enerji siyasətinin əsasını qoydu. Ölkəmizin müasir neft salnaməsinin başlanğıcı hesab olunan bu sənəd hərtərəfli inkişafa, o cümlədən enerji sektorunun tərəqqisinə geniş imkanlar açdı.

Enerji resurslarından əldə olunan gəlirlərin digər sahələrin inkişafına yatırılması ölkəmizin davamlı inkişafının əsasını təşkil etdi, milli iqtisadiyyatımızın tərəqqisi istiqamətində zəruri addımlar atıldı. Sonrakı dövrdə görülən işlər, kəşf olunan yataqlar Azərbaycanın enerji potensialını daha da artırdı. Bu sənəd Azərbaycanın geosiyasi çəkisini artırdı, icra olunan nəhəng enerji layihələri üçün əlverişli zəmin yaratdı.

2003-cü ildə Azərbaycan xalqı növbəti dəfə müdrik seçim edərək Azərbaycanda Ulu Öndər Heydər Əliyev siyasətinin davam etdirilməsinə səs verdi. Prezident İlham Əliyev Ulu Öndərin müəyyənləşdirdiyi siyasi xətti uğurla davam etdirərək Azərbaycanı möhkəm iqtisadi dayaqlara, güclü orduya, böyük nüfuza malik qüdrətli dövlətə çevirdi. Ulu Öndərin qurduğu idarəetmə modeli, milli maraqlara söykənən xarici siyasət kursu, iqtisadi müstəqilliyin təmin olunması və güclü ordu konsepsiyası Prezident İlham Əliyevin müdrik liderliyi ilə keyfiyyətcə yeni mərhələyə yüksəldi, daim inkişaf etdirildi və parlaq qələbələrimizə yol açdı.

*Beləliklə, Ulu Öndər Heydər Əliyevin fəlakətlərdən xilas edərək davamlı inkişaf yoluna çıxardığı Azərbaycan möhtərəm Prezident İlham Əliyevin qətiyyətli rəhbərliyi ilə bu gün qloballaşan dünyada böyük nüfuza malik dövlətə çevrilib. Dünyanın ən güclü dövlətləri ilə strateji tərəfdaşlıq əlaqələrinə malik Azərbaycanın regionda yaratdığı yeni reallıqlar beynəlxalq ictimaiyyət tərəfindən dəstəklənir və qəbul olunur. Məhz Azərbaycanın təşəbbüsü ilə regionda yeni perspektivlər vəd edən əməkdaşlıqlar qurulur.*

*Bir sözlə, qüdrətli Azərbaycan müstəqil dövlət kimi öz taleyinin, torpaqlarının, hüquqlarının sahibidir və Prezident İlham Əliyevin rəhbərliyi ilə firavan gələcəyini qurur.*

***Şahin İSMAYILOV,***
***Milli Məclisin Gənclər və idman komitəsinin sədri,***
***YAP İdarə Heyətinin üzvü***

# Milli dəyərlər, ictimai mühit və dövlətçilik ideologiyası

**Ulu Öndər Heydər Əliyevin anadan olmasının 103-cü ildönümü ərəfəsində onun siyasi və ideoloji irsinə yenidən nəzər salmaq həm tarixi yaddaşın qorunması, həm də müasir Azərbaycan dövlətçiliyinin mahiyyətinin dərindən anlaşılması baxımından xüsusi əhəmiyyət daşıyır.**

Bu gün ölkəmizdə müşahidə olunan sabitlik, ardıcıl inkişaf və milli həmrəylik onun tərəfindən müəyyən edilən uzaqgörən strateji baxışın, böyük siyasi iradənin və sistemli dövlət quruculuğu siyasətinin nəticəsidir.

Bu reallıq Azərbaycan dövlətçiliyinin müasir modelinin məhz Heydər Əliyev irsi ilə bağlı olduğunu bir daha təsdiqləməklə, onun dövlətçilik konsepsiyasının da ölkəmizin milli- mənəvi dəyərlər sisteminə söykənməsi ilə fərqlənir.

Onun yanaşmasında dövlət həm idarəetmə mexanizmi, həm də milli kimliyin, tarixi yaddaşın və mənəvi dəyərlərin qoruyucusu və daşıyıcısıdır. Ulu Öndər dövlət quruculuğunu müstəqilliyini yenicə bərpa etmiş ölkə üçün yalnız vacib struktur və institutların formalaşdırılması kimi deyil, həm də daha çox milli ruhun dirçəldilməsi, tarixi yaddaşın bərpası və gələcəyə inamın möhkəmləndirilməsi kimi dəyərləndirirdi.

Bu yanaşma məticəsində ölkəmiz üçün vacib tarixi anlarda dövlət quruculuğu prosesi ilə milli özünüdərk arasında üzvi əlaqə yaradılmış, cəmiyyətin ideoloji əsasları möhkəmləndirilmiş, milli-mənəvi dəyərlərin qorunması və inkişaf etdirilməsi dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrilmişdi.

Azərbaycan dilinin inkişafı, mədəni irsin qorunması, tarixi şəxsiyyətlərin obyektiv qiymətləndirilməsi, milli-mənəvi sərvətlərin gələcək nəsillərə ötürülməsi bu siyasətin əsas istiqamətlərini təşkil etmişdi. Bu addımlar tarixi keçmişimizə ehtiramla yanaşı, həm də gələcəyin bu möhkəm ideoloji təməllər üzərində qurulması üçün münbit ictimai və siyasi mühitin formalaşdırılması ilə də sıx bağlıdır.

Təsadüfi deyildir ki, onun rəhbərliyi dövründə Azərbaycanda siyasi plüralizmin institusional əsasları yaradılmış, müxtəlif siyasi qüvvələrin sərbəst fəaliyyəti üçün hüquqi zəmin təmin olunmuşdu. Siyasi partiyaların ictimai-siyasi proseslərdə iştirakı təşviq edilmiş, cəmiyyətdə fikir müxtəlifliyi və dialoq mədəniyyəti formalaşdırılmışdı. Bu yanaşması ilə də Ulu Öndər sübut edirdi ki, cəmiyyət və dövlət həyatına müxtəlif baxışların mövcudluğu inkişafın və sağlam ictimai dinamikanın mühüm şərtidir.

Heydər Əliyev cəmiyyətin siyasi və sosial həyatında tarazlığı qorumağı bacaran lider idi. O, sabitliklə inkişaf, milli maraqlarla demokratik dəyərlər arasında incə balans yaratmağı yaxşı bacarırdı. Bu balans bu gün də Azərbaycanın dayanıqlı inkişaf modelinin əsas sütunlarından biri kimi çıxış edir.

Onun siyasətində mühüm yer tutan istiqamətlərdən biri də dini və etnik müxtəlifliyin qorunması, tolerantlıq mühitinin inkişaf etdirilməsi idi. Azərbaycanda tarixən mövcud olan multikultural ənənələr onun rəhbərliyi dövründə dövlət siyasətinin ayrılmaz tərkib hissəsinə çevrildi. Müxtəlif din və konfessiya nümayəndələrinin sərbəst fəaliyyəti üçün yaradılan şərait, dini etiqad azadlığının təmin olunması və qarşılıqlı hörmətə əsaslanan münasibətlər bu siyasətin konkret təzahürləridir.

Bu gün Azərbaycan dünyada multikulturalizm və tolerantlıq nümunəsi kimi tanınırsa, bunun ideoloji və siyasi əsası məhz Heydər Əliyev tərəfindən qoyulmuşdur. Müasir dünyada dini və etnik ziddiyyətlərin artdığı bir vaxtda Azərbaycan modeli sabitliyin, qarşılıqlı anlaşmanın və birgəyaşayış mədəniyyətinin mümkünlüyünü və vacibliyini nümayiş etdirir. Bu isə təkcə siyasi uğur deyil, həm də böyük mənəvi nailiyyətdir.

Heydər Əliyevin ideoloji irsində xüsusi yer tutan azərbaycançılıq məfkurəsi bu proseslərin ideoloji çərçivəsini təşkil edir. Bu məfkurə müxtəlif etnik, dini və sosial qrupları vahid məqsəd ətrafında birləşdirən güclü inteqrativ platformadır. Azərbaycançılıq dövlətə sədaqət, milli maraqların üstün tutulması və vətəndaş həmrəyliyi kimi prinsipləri özündə birləşdirir.

Tarixi baxımdan bu ideologiya Azərbaycanın mürəkkəb geosiyasi şəraitdə öz müstəqilliyini qoruyub saxlamasında mühüm rol oynamışdır. Bu gün isə o, milli birliyin, ictimai sabitliyin və dövlətin dayanıqlığının əsas ideoloji dayağı kimi çıxış edir. Bu məfkurə insanları birləşdirir, onları ortaq məqsədlər uğrunda səfərbər edir və milli həmrəyliyi gücləndirir.

Müasir dövrdə qloballaşma, rəqəmsallaşma və informasiya mühitinin transformasiyası yeni çağırışlar yaradır. Bu çağırışlar fonunda milli dəyərlər sisteminin qorunması daha da aktuallaşır. Belə bir şəraitdə Heydər Əliyevin müəyyən etdiyi ideoloji xətt xüsusi əhəmiyyət kəsb edir. Bu xətt yalnız qoruyucu deyil, həm də inkişaf üçün istiqamətverici funksiyanı yerinə yetirir.

Bu gün Azərbaycanda həyata keçirilən sosial və humanitar siyasət mühüm ideoloji əsaslara söykənir. Bunlar ilk növbədə ailə institutunun möhkəmləndirilməsi, qadınların ictimai-siyasi həyatda fəallığının artırılması, gənc nəslin milli ruhda tərbiyəsi kimi istiqamətlər olmaqla, dövlət həyatında mühüm yer tutur. Bu sahələrdə həyata keçirilən rəsmi dövlət siyasəti cəmiyyətin dayanıqlı inkişafını təmin edən mühüm amillər kimi çıxış edir.

Heydər Əliyev irsinin mühüm istiqamətlərindən biri və birincisi də sadalanan əsaslar üzərində insan kapitalının inkişafıdır. Bu isə özü-özlüyündə mövcud təhsil sisteminin modernləşdirilməsi, elmi potensialın gücləndirilməsi və peşəkar kadrların hazırlanması ilə müşaiyət olunan siyasəti müəyyən etməklə Azərbaycanın inkişafında həlledici rol oynayır. Hazırda bu siyasətin nəticəsi olaraq formalaşan insan resursları ölkənin gələcəyini müəyyən edən əsas qüvvəyə çevrilmişdir.

Onun formalaşdırdığı idarəetmə modeli isə birmənalı olaraq hüquqi dövlət və vətəndaş cəmiyyəti prinsiplərinə əsaslanır. Qanunun aliliyi, insan hüquq və azadlıqlarının qorunması, dövlət-vətəndaş münasibətlərində qarşılıqlı etimadın təmin olunması bu modelin əsas xüsusiyyətləridir. Bu yanaşma cəmiyyətdə sabitliyin, sosial ədalətin və ictimai harmoniyanın bərqərar olmasına xidmət edir.

Bu strateji kurs bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Azərbaycanın beynəlxalq mövqelərinin möhkəmlənməsi, iqtisadi inkişafın sürətlənməsi, regionda lider dövlətə çevrilməsi bu siyasətin real nəticələridir.

Eyni zamanda milli dəyərlərin qorunması və inkişafı dövlət siyasətinin prioritet istiqamətlərindən biri olaraq qalır. Mənə görə daha aydın bir termin axtarışında bu ilk növbədə "Heydər Əliyevçilik"- yəni "azərbaycançılıq" kimi bir siyasi anlayış olmaqla, bir həyat tərzi, düşüncə sistemi və mənəvi meyardır.

Bu anlayışın ehtiva etdiyi prinsiplər isə dövlətə bağlılıq, milli maraqlara sədaqət, sosial məsuliyyət və vətəndaşlıq borcu olmaqla, cəmiyyətin inkişaf istiqamətləri arasında tarazlığı təmin edən əsas dayaqlar kimi çıxış edir.

Bu gün qarşıya çıxan çağırışlar - informasiya müharibələri, ideoloji təsirlər və sosial dəyişikliklər - bu ideologiyanın daha da aktuallaşdığını göstərir. Heydər Əliyevin müəyyən etdiyi ideoloji çərçivə həm cəmiyyəti qoruyan sipər, həm də gələcəyə aparan yol xəritəsi kimi çıxış edir.

103-cü ildönümü ərəfəsində bu irsə müraciət edərkən bir daha aydın olur ki, Heydər Əliyevin formalaşdırdığı dövlətçilik ideologiyası siyasi, sosial və mənəvi komponentlərin vəhdətinə əsaslanır. Bu vəhdət Azərbaycanın gücünün, sabitliyinin və inkişafının əsasını təşkil edir.

*Nəticə etibarilə, Heydər Əliyevin irsi yalnız keçmişin mirası deyil - o, bu günün reallığı və gələcəyin yol xəritəsidir. Bu irs yaşadıqca, inkişaf etdikcə Azərbaycan da güclənəcək, milli dəyərlər və dövlətçilik ideologiyası isə bu inkişafın sarsılmaz təməli olaraq qalacaqdır.*

***Bahar MURADOVA,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

1923 Azərbaycanın özü qədər əbədi 2026



# Heydər Əliyev düşüncəsində milli ideologiya konsepti

## Demokratik və bəşəri dəyərlər kontekstində

**Doğumunun 103-cü ildönümünü böyük ehtiram və sevgi ilə qeyd etdiyimiz Ümummilli Lider Heydər Əliyevin fiziki yoxluğundan bizi ayıran zaman onun şəxsiyyətinə olan qlobal marağı daha da artırmışdır. Ulu Öndərin siyasi dühasının ayrı-ayrı çalarlarını dərindən öyrənməklə bu qüdrətli şəxsiyyətin timsalında siyasi palitranın daha da zənginləşməsinə töhfə vermiş olarıq.**

### Milli ideologiyanın əsas komponenti

Araşdırmamızda müstəqil Azərbaycanın milli ideologiyasının formalaşması kontekstində və tarixi ənənələr, bəşəri və demokratik dəyərlər fonunda Heydər Əliyevin irəli sürdüyü konsepti dəyərləndirəcəyik. Televiziyaya müsahibələrindən birində Heydər Əliyev milli ideologiya ilə bağlı məsələyə toxunarkən söyləmişdi: "Mən hesab etmirəm ki, biz kommunist ideologiyası kimi xüsusi bir ideologiya yaratmalıyıq. Əlbəttə, yox. Ancaq bizim xalqımızın, millətimizin hansısa ideoloji prinsipləri olmalıdır. Bu prinsiplər mütləq olmalıdır və formalaşmalıdır. Onların əsasını bizim Konstitusiya təşkil edir. Ancaq Konstitusiyada bu mənada çatışmayan cəhətlər var. Çünki bizim xalqımızın, millətimizin tarixi milli-mənəvi ənənələri var. Xalqımızın əxlaqi mentaliteti var. Onlardan biz heç vaxt uzaqlaşa bilmərik. Bunları unuda bilmərik. Əgər biz onları unutsaq, sırf demokratik dövlətin prinsipləri ki var, Avropada, Amerikada da var, biz əsas kimi bunları götürsək, Azərbaycanın milli xüsusiyyətlərini nəzərə almasaq, biz milli xüsusiyyətləri itirə bilərik. Ona görə milli mənəviyyatımızı, milli varlığımızı, milli mənliyimizi inkişaf etdirmək üçün, şübhəsiz ki, müasir tələblərə uyğun inkişaf etdirmək üçün, bizim xalqımızın, ölkəmizin milli ideologiyasının əsasları olmalıdır. Ona görə də mən buna fikir verirəm. Bu barədə mən ilk dəfə deyil, əvvəllər də öz fikirlərimi bildirmişdim. Ancaq Yeni Azərbaycan Partiyasının altıncı ildönümündə mən bu fikirləri bir az da konkretləşdirdim və formalaşdırdım. Hesab edirəm ki, biz gələcəkdə də bu məsələlərə diqqət yetirməliyik. Bu məsələlər bizim siyasi həyatımızda, ictimai həyatımızda, mənəvi həyatımızda görkəmli yer tutmalıdır".

Qeyd etməliyik ki, Prezident İlham Əliyevin tez-tez vurğuladığı "qalib dövlət və qalib xalq" anlayışı Heydər Əliyevin yaratdığı milli ideoloji konseptin tərkib hissəsi və təkmil mərhələsidir.

Heydər Əliyevin milli ideoloji konseptinin əsasını müstəqillik ideyası təşkil edir. Lakin bu, sırf nəzəri konsept deyil, elmi-nəzəri və praktik konseptdir. Buraya birinci növbədə müstəqil dövlət kimi mövcud olmaq aiddir. Eyni zamanda daxili və xarici siyasətdə, ictimai-siyasi, sosial-iqtisadi sahədə həyata keçirilən dövlət siyasətinin milli ideologiyanın üzərində qurulması əsas götürülür.

Heydər Əliyev "milli ideologiya nədir" sualına cavab olaraq aşağıdakı tezisləri irəli sürür. Birinci, dövlətçilik ənənələrinin qorunması. Dövlətçilik şüuru ilə yaşamaq bu gün və gələcəkdə bizim hər bir vətəndaşımızın, cəmiyyətin, dövlətin əsas vəzifəsidir. Dövlətçilik Azərbaycanın müstəqilliyini, ərazi bütövlüyünü qoruyub saxlamaq, Azərbaycanın müstəqilliyini möhkəmləndirmək kimi ideya və əməli fəaliyyətə əsaslanır. İrəli sürülmüş tezisə əsasən, dövlətçilik hər bir vətəndaşın qəlbində, şüurunda və düşüncəsində olmalıdır. Hər bir vətəndaş vətənpərvərlik hissləri ilə yaşamalıdır, eyni zamanda siyasi platformalarda, bütün dövlət orqanlarında təbliğat Azərbaycanda dövlətçiliyin inkişaf etdirilməsinə yönəlməli, hər bir vətəndaş da milli vətənpərvərlik hisslərini yaşatmalıdır. Milli vətənpərvərlik hissləri hər bir vətəndaşda o qədər güclü olmalıdır ki, o, milli mənafeyi öz şəxsi mənafeyindən, öz şəxsi yaşayışından, öz şəxsi həyatından - hər şeydən üstün tutsun.

Heydər Əliyev nümunə kimi bizə milli-mənəvi dəyərlər və etnik baxımdan eyni soy-kökə malik Türkiyə dövlətini seçir, Türkiyədə insanlarda milli vətənpərvərlik, vətənə sədaqət hissinin çox yüksək olmasını əsas gətirir, Türkiyə dövlətini ayaqda saxlayan amillərdən biri kimi milli vətənpərvərlik, milli qürur hissinin yüksək olmasını göstərir. Heydər Əliyev hər bir fərdin bu mənada məsuliyyətini ayrıca qeyd edir. Hesab edir ki, hər bir vətəndaş öz vətəninə, millətinə, xalqına, ana dilinə görə milli qürur hissi keçirməli, azərbaycanlı olması ilə fəxr etməlidir. Məşhur "Hər bir insanın milli mənsubiyyəti onun qürur mənbəyidir. Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam" ifadəsi də məhz bu ideoloji konsepsiyanın vacib komponenti olaraq söylənilmişdir.

Heydər Əliyev milli dil amilini milli ideologiyanın əsas nüvəsi hesab edərək deyir: "Bəzən keçmişdə olduğu kimi, gedib deməsin ki, "mən rusdilli azərbaycanlıyam", yaxud da "tamam azərbaycanlı deyiləm". Belələri bizim sıramızdan çıxmalıdır. Hər bir azərbaycanlı rus dilini, ingilis dilini, başqa dilləri mükəmməl bilərək, onlardan istifadə edirsə, o öz doğma Azərbaycan dilinə diqqətini və hörmətini azaltmamalıdır. Əksinə, öz doğma dilini daha da mükəmməl bilməli və ona daim hörmət etməlidir".

Heydər Əliyevlə Müzəffər Ali Baş Komandan İlham Əliyev arasında paralellik aparsaq, eyni fikirlərlə rastlaşarıq. Prezident İlham Əliyev: "Görürəm ki, bəzi yerlərdə bizim ədəbi dilimiz digər ölkələrdə yaşayan azərbaycanlılar arasında itirilir. Daha çox məişət dili kimi istifadə olunur, xarici kəlmələrlə dolu olur. Ona görə biz öz dilimizi qorumasaq, dilimizi təmiz, saf saxlamasaq, onda yavaş-yavaş dilimizi itirə bilərik. Hər bir millət, hər bir xalq üçün onun Ana dili onun milli mənsubiyyətinin əsas amilidir və bu istiqamətdə bütün ictimai fəallar, bütün ictimaiyyət bir nöqtəyə vurmalıdır. Bizim dilimiz qədimdir. Yenə də deyirəm, 50 milyondan çox insan üçün Ana dilidir, çox zəngindir və xarici kəlmələrə ehtiyac da yoxdur. Düzdür, beynəlxalq leksikon var və hər birimiz bu leksikondan istifadə edirik. Amma əgər Azərbaycan dilində əzəli bir kəlmə varsa, başqa dildən kəlməni gətirib əvəzləmək nə məqsəd daşıyır? Bu ya səhvdir, ya təxribatdır. Hər ikisi də qəbuledilməzdir".

Göründüyü kimi, Heydər Əliyev və İlham Əliyevi birləşdirən ideoloji düşüncə milli-mənəvi dəyərlərə söykənir.

### Milli-mənəvi dəyərlər milli kimlik rakursunda

Biz milli ideologiyanın daha bir konponenti olan milli vətənpərvərlik və milli qürur anlayışına diqqət edək. Heydər Əliyev hesab edirdi ki, milli vətənpərvərlik, milli qürur hissi bizim dövlətçiliyimizin yaşaması üçün ən mühüm amillərdən biridir. Dövlətçilik şüuru dövləti möhkəmləndirir, dövlət cəmiyyətə arxalanır, cəmiyyət insanlardan ibarətdir, insanların isə hər biri gərək əsl vətəndaş olsun, vətənpərvər olsun, milli qürur hissi ilə yaşasın. Onda o, dövlətçiliyi inkişaf etdirən vətəndaş olacaq. Dahi siyasətçi bildirirdi ki, bu, bizim milli ideologiyamızın əsas hissəsidir.

Heydər Əliyev vurğulayırdı ki, milli ideologiyamızın ikinci vacib istiqaməti bizim milli-mənəvi dəyərlərimizdir. Biz öz milli-mənəvi dəyərlərimizlə fəxr etməliyik. Bizim milli-mənəvi dəyərlərimiz əsrlər boyu xalqımızın həyatında, yaşayışında formalaşmışdır. Milli-mənəvi dəyərləri olmayan millət həqiqi millət, həqiqi xalq ola bilməz.

Ulu Öndər Heydər Əliyev hesab edirdi ki, Azərbaycan xalqının milli-mənəvi dəyərlərinin ən əsası bizim müqəddəs kitabımız "Qurani-Kərim"də öz əksini tapmışdır. Bu tezislə Ulu Öndər dini dəyərlərimizlə milli dəyərlərimizi özündə ehtiva edən mədəniyyətimizi birləşdirir. Eyni zamanda böyük tarixi keçmişə malik olan Azərbaycan xalqının özünəməxsus milli-mənəvi dəyərlərinin mövcudluğunu vurğulayır. İrəli sürülmüş tezisə görə, bu, adət-ənənələrimiz, milli əxlaqi mentalitetimiz, mənəvi dəyərlər toplumuzdur.

Dahi siyasətçi qeyd edirdi ki, biz bunların hamısı ilə fəxr etməliyik. Bizim milli-mənəvi dəyərlərimizin heç biri bizə ləkə salmır, bizi utandırmır. Heydər Əliyev məsələyə daha dərindən nüfuz edərək deyirdi: "Belə bir zamanda qəribə bir proses gedirdi. Bir tərəfdən, bizim bu milli-mənəvi dəyərlərimiz o qədər dərin köklərə malikdir ki, onlar yaşayırdı və heç kəs də onları laxlada bilmirdi. Amma eyni zamanda bəzi konyunktura xarakterli insanlar bizim öz milli-mənəvi dəyərlərimizə xor baxırdılar, özlərini onlardan ayırmaq istəyirdilər. Guya ki, "bu, geri qalmış bir şeydir, bizim keçmişdə olan adətlərimizdir, biz bundan deyilik, biz qabaqcılıq, nə bilim, mütərəqqiyik".

Heydər Əliyev milli dil faktorunu ideoloji konseptin əsas nüvəsi hesab edərək milli-mənəvi dəyərlərimizi üç kateqoriyaya ayırırdı:

1) Ana dilimiz;
2) Dinimiz;
3) Milli adət-ənənələrimiz və mentalitetimiz.

Dahi siyasətçinin irəli sürdüyü konsepsiyada ən mühüm amillərdən biri də din faktorudur. Heydər Əliyev din haqqında fikirlərini bildirərkən deyir: "Biz müstəqillik əldə edəndən sonra islam dinimizi özümüzə qaytardıq. Yəni bu din insanların qəlbində həmişə yaşayırdı, ancaq rəsmi deyildi. Bu, rəsmi qayıtdı, bərpa olundu. Şübhəsiz ki, müqəddəs kitabımızda, "Qurani-şərif"də böyük əxlaqi normalar əks olunubdur. Onlardan səmərəli istifadə etmək lazımdır və onları yaymaq, inkişaf etdirmək lazımdır. Amma eyni zamanda biz imkan verməməliyik ki, dini bəzi şəxsi məqsədlər üçün istismar etsinlər. Buna imkan verməməliyik. Dinin ondan öz şəxsi məqsədləri üçün istifadə etmək istəyən ayrı-ayrı adamların əlinə keçməsinə imkan verilməməlidir. Din həqiqi din xadimləri tərəfindən istifadə və tətbiq olunmalıdır. Burada da bizim görəcəyimiz işlər çoxdur və biz dini təbliğ edərkən, müqəddəs islam dininin əxlaq normalarını ölkəmizdə vətəndaşların arasında geniş yayarkən eyni zamanda fundamentalizmə, fanatizmə yol verməməliyik. Fundamentalizm, fanatizm heç də müqəddəs kitabımızın mənası deyil. Bu, sonradan yenə də dindən istifadə edib öz siyasi məqsədlərinə nail olmaq üçün, yaxud da ki, öz dövlət işlərini qurmaq üçün yaranmış ayrı-ayrı istiqamətlərdir. Biz Azərbaycanda bunlara yol verməməliyik".

Heydər Əliyev əsl dini normalarla fanatizmi bir-birindən ayırmaqla dini öz şəxsi mənfətinə alət edən şəxslərdən ayırmağa çağırır. Budur əsil dövlətçilik təfəkkürü.

Ulu Öndərin milli mənlik şüuru "milli kimlik" anlayışı ilə eyniləşir və tarixi şüura əsaslanır. Milli kimlik anlayışının struktural əsasları prizmasından yanaşdıqda aydın olur ki, Azərbaycan tarixində bu anlayışın dövlətçilik təfəkkürü səviyyəsində konseptuallaşdırılması məhz Səfəvilər dövründə baş vermişdir. Səfəvi siyasi idarəçiliyinin ideoloji nüvəsində formalaşmış milli kimlik siyasəti milli dövlətçilik düşüncəsi ilə üzvi şəkildə bağlı olmuş və bu baxımdan müasir Azərbaycan dövlətçiliyinin ideoloji təməlləri ilə səsləşmişdir. Məhz bu səbəbdən azərbaycanlı kimliyinin müasir tarixi başlanğıcını Səfəvi siyasi-fəlsəfi təfəkküründə axtarmaq elmi baxımdan əsaslıdır.

### Tarixi təcrübə milli inkişafın ideoloji dayağıdır

Bu kontekst müasir dövrdə müşahidə olunan məkrli anti-Səfəvi yanaşmaların da mahiyyətini aydınlaşdırır. Bu tip hücumların əsas məqsədi Səfəvilər irsindən daha çox həmin irsin daşıdığı tarixi milli kimlik potensialını zəiflətmək cəhdləri ilə bağlıdır. Çünki hər bir xalqın davamlı inkişafı onun tarixi-milli enerjini nə dərəcədə aktivləşdirə bilməsi ilə birbaşa əlaqəlidir və tarixi təcrübə milli inkişafın ideoloji dayaq nöqtəsini təşkil edir.

Heydər Əliyevin milli-tarixi irsə verdiyi xüsusi əhəmiyyət də məhz bu yanaşmadan qaynaqlanırdı. O, Səfəvilər dövlətini milli kimliyin dövlətçilik səviyyəsində gerçəkləşdirildiyi fundamental siyasi təcrübə kimi qiymətləndirirdi. Bu baxımdan Şah İsmayıl Xətainin Azərbaycan siyasi tarixində milli kimliyin simvolu kimi təqdim olunması və onun heykəlinin Prezident İlham Əliyev tərəfindən siyasi varislik kontekstində qoyulması ideoloji ardıcıllığın ifadəsidir.

Şah İsmayıl Xətainin tarixi missiyası yalnız dövlət quruculuğu ilə məhdudlaşmırdı. Onun ana dilində yaratdığı poeziya milli kimliyin ideoloji alətinə çevrilmiş, "milli dil - milli ədəbiyyat - milli dövlət" triadası səviyyəsində konseptual məna qazanmışdır. Bu yanaşma Azərbaycan insanının milli ruhunu oyadan və onu vahid siyasi iradə ətrafında birləşdirən ideoloji vasitə rolunu oynamışdır.

Beləliklə, Azərbaycan Səfəvilər dövləti öz tarixi mahiyyəti etibarilə müasir azərbaycanlı kimliyinin ideoloji və siyasi potensialını formalaşdıran əsas mərhələ kimi çıxış edir. Heydər Əliyevin bu irsə yanaşması da məhz milli kimliyin tarixi davamlılığı və dövlətçilik təfəkkürünün strateji əsasları kontekstində olmuşdur. Bu yanaşma müasir "qalib xalq" və "müasir azərbaycanlı kimliyi" konsepsiyasının dərin tarixi köklərə söykəndiyini aydın şəkildə ortaya qoyur.

Qlobal miqyasda müşahidə olunur ki, milli kimliyi dərindən anlayan və onu dövlət siyasətinin mərkəzində saxlayan dövlətlər iqtisadi, siyasi və mədəni baxımdan daha sürətlə inkişaf edir, beynəlxalq mövqelərini möhkəmləndirirlər. Bu reallıq müasir azərbaycanlı kimliyinin strateji əhəmiyyətini bir daha ortaya qoyur: milli kimliyi şüurlu şəkildə dərk edən və ona uyğun hərəkət edən vətəndaş yalnız dövlətin daxili sabitliyinə deyil, həm də onun beynəlxalq nüfuzuna, geosiyasi mövqeyinə və regional liderliyinə töhfə verir. Bu baxımdan müasir azərbaycanlı kimliyi həm də milli dövlətçilik strategiyasının aktiv iştirakçısı, qlobal çağırışlara cavab verən, dövlətin inkişafını təmin edən dinamik və strateji vətəndaş modeli kimi təqdim olunur. Milli kimliyi dərk etmək, onun tarixi, mədəni və siyasi əsaslarını qiymətləndirmək və müasir çağırışlarla uzlaşdırmaq Azərbaycanın davamlı inkişafı və güclü beynəlxalq mövqeyinin təmin olunması üçün zəruri şərtdir.

İrəli sürülmüş tezisə əsasən, bütün bu milli dəyərlərlə biz fəxr edirik və fəxr etməliyik. Bizim bütün təbliğatımız, bütün elmi işlərimiz insanlarda bu milli-mənəvi dəyərlərə görə qürur hissi, iftixar hissi doğurmaq və bu milli-mənəvi dəyərlərə sədaqət aşılamaqdan ibarət olmalıdır.

Heydər Əliyev məsələlərə tarixi kontekstdə qiymət verərək qeyd edirdi: "Azərbaycan xalqı müstəmləkəçilik zülmü altında nə qədər yaşayıbdır. Azərbaycan xalqı cürbəcür hökmdarların əlində olubdur, tarixboyu nə qədər əziyyətlər çəkibdir. Ancaq dilini də, dinini də, adət-ənənələrini də, öz mənəvi-əxlaqi mentalitetini də saxlayıbdır, bütün əxlaqi normalarını - hamısını saxlayıbdır. Bu, xalqımızın nə qədər dərin kökləri olduğunu göstərir. Bu, bizim milli ideologiyamızın bir istiqamətidir. Bizim borcumuz bu ideologiyanı təbliğ etmək, bu ideologiyanı genişləndirmək, bu ideologiyanı inkişaf etdirmək, insanlara başa salmaqdır".

### Mənəvi dəyərlər milli sərvətimizdir

Heydər Əliyev milli ideologiyanı ümumbəşəri dəyərlər kontekstində vurğulayaraq, özünü həm milli, həm də bəşəri dəyərlərin daşıyıcısı kimi qiymətləndirərək xalqımızın mənəvi-əxlaqi mentalitetini onun ən böyük amili, milli-mənəvi dəyərləri isə milli sərvəti hesab edirdi. O vurğulayırdı ki, öz mentalitetinə görə başqa millətlərdən fərqlənməyən xalq öz xarakterini göstərə bilməz. Hər xalqın öz mentaliteti, əxlaq qaydaları olmalıdır. Bizdə olan əxlaq dəyərlərini nəyəsə qurban vermək olmaz.

Heydər Əliyev irəli sürdüyü elmi-nəzəri konsepsiyanı praktik materiallarla zənginləşdirərək Azərbaycan xalqının min illərdən gələn böyüyə hörmət, kiçiyə qayğı, övladın valideynlərinə hörməti, valideynlərin də öz övladlarına olan qayğısı və məhəbbətini xüsusi qiymətləndirirdi. Bu dəyərlərin bizdə milli qürur yaratmalı olduğunu vurğulayırdı.

Dəyərlərin aşınmasına kəskin münasibət bildirən Heydər Əliyev söyləyirdi: "Ancaq bəziləri indi nəyi təbliğ edirlər: "Heç kəsi sayma, nə ağsaqqal var, nə böyük var, nə filan var, bəsməkan var. Burada mənəm və mən nə dedim - o da olmalıdır". Yox, bu ola bilməz. Mən bir dəfə demişəm, vaxtilə - 70-ci illərdə mən burada işləyəndə Moskvadan nümayəndələr gəlirdilər, gedib bizim şəhərləri, kəndləri gəzirdilər. Gəlib təəccüblə mənə deyirdilər ki, "biz getdik, filan yerdə 10-15 gənc oturmuşdu. Bizi görən kimi hamısı ayağa qalxdı. Biz təəccüb etdik. Necə oldu ki, bunlar ayağa qalxdılar? Bu niyə belədir?". Deyirəm ki, bu, təbii bir haldır. Deyir ki, "axı biz indi Rusiyada bir kəndə, şəhərə gedək - bizi görüb heç danışdırmayacaqlar, heç bizə fikir verməyəcəklər. Amma burada bunlar ayağa qalxdılar". Dedim ki, bu, bizim xalqımızın xüsusiyyətidir. Bu, xalqımızın mentalitetidir. Bu, kiçiyin böyüyə hörmətidir. Bu, ev sahibinin qonağa hörmətidir".

Biz milli və ailə dəyərləri məsələlərində də Heydər Əliyevlə İlham Əliyev mövqeləri arasında paralellik aparsaq, eyni düşüncəni müşahidə etmiş olarıq. Bu həm böyük siyasi xadimlər arasında olan fikir birliyinin, həm də siyasi varisin öz sələfinin düşüncəsini dərindən mənimsədiyinin təzahürüdür.

Prezident İlham Əliyev vurğulayır: "Ailə dəyərləri bizim cəmiyyətimizin təməlidir. Azərbaycan xalqı hər zaman ailə dəyərlərinə, böyüyə hörmət, övlada qayğı prinsiplərinə sadiq olub və bu gün də bu ənənə qorunub saxlanılır".

Heydər Əliyev YAP-ın 6-cı ildönümündə milli ideologiya ilə bağlı fikirləri səsləndirməklə eyni zamanda bu məsələlərin alimlər, tədqiqatçılar tərəfindən dərindən araşdırılmasını tövsiyə etmişdir. Biz eyni tövsiyəyə Prezident İlham Əliyevin AMEA-nın 80 illik yubileyindəki çıxışında rast gəlirik.

Heydər Əliyev bu tezisləri irəli sürməklə eyni zamanda tarixi ənənələrə sadiq qalmağın vacibliyini vurğulayırdı. Həmçinin dahi siyasətçi irəli sürülmüş konsepsiyanın ehkam kimi qəbul edilməsini deyil, alimlər və tədqiqatçılar tərəfindən araşdırılmaya açıq olduğunu və təkmilləşdirilməsinin zərurətini vurğulayırdı. O bildirirdi ki, bizim alimlərimiz, tədqiqatçılarımız bu sahədə çox geniş iş görməlidirlər. Bizim milli-mənəvi dəyərlərimiz, bizim tarixi milli köklərimiz, bizim dilimiz və dinimiz - hamısı bizim milli ideologiyamızın böyük bir hissəsidir, böyük bir qoludur.

### Milli ideologiya bəşəri dəyərlərə köklənir

Heydər Əliyevə görə milli ideologiyamızın əsas istiqamətlərindən biri də bəşəri dəyərlərdir. O hesab edirdi ki, bəşəri dəyərlər Azərbaycan xalqı tərəfindən artıq çox onillərdir, əsrlərdir ki, qavranıb, qəbul olunubdur. Bəşəri dəyərlər birinci növbədə bizim Konstitusiyanın əsasını təşkil edir. İrəli sürülmüş tezisə görə hüquqi, demokratik, dünyəvi dövlət dedikdə bəşəri dəyərlər toplusu nəzərdə tutulur. Eyni zamanda bəşəri dəyərlərlə bərabər, Azərbaycanın milli-mənəvi dəyərlərinin vəhdəti öz əksini tapır.

Heydər Əliyev qeyd edirdi: "Ümumbəşəri dəyərlərlə milli-mənəvi dəyərlərin vəhdəti, sintezi bizim milli ideologiyamızın bu günü və gələcəyidir. Bir də qeyd edirəm, biz tarixi köklərimizdən heç vaxt ayrıla bilmərik. Biz tarixi köklərimizi həmişə iftixar hissi ilə qiymətləndirməliyik və tarixi köklərimizin mənasını dünyaya bəyan etməliyik, yaymalıyıq, təbliğ etməliyik, onunla fəxr etməliyik. Eyni zamanda öz milli-mənəvi dəyərlərimizi ümumbəşəri dəyərlərlə birləşdirib, zənginləşdirib Azərbaycan xalqının ümumi dəyərlərini, mənəvi dəyərlərini yaratmalıyıq. Yenə də deyirəm, bunun içərisində həm demokratiya, həm hüquq normaları, həm dünyəvi dövlət, həm insan azadlığı, insan haqlarının qorunması, plüralizm, sərbəst ticarət, insan sərbəstliyi, sərbəst bazar ticarəti, sərbəst bazar iqtisadiyyatı var - bunlar hamısı ümumbəşəri dəyərlərin bizim milli-mənəvi dəyərlərlə vəhdətindən meydana gələn müddəalardır. Bunlar bizim milli ideologiyamızın böyük bir hissəsini təşkil edir".

Bəşəri dəyərlər kontekstində azərbaycanlı kimliyi tarixi baxımdan müxtəlif sivilizasiyaların kəsişməsində formalaşaraq çoxqatlı mədəni, dini və sosial məzmun qazanmışdır. Azərbaycanın yerləşdiyi geosiyasi məkan qədim dövrlərdən etibarən Şərq və Qərb arasında təbii körpü funksiyası daşımış, bu isə cəmiyyətin dünyagörüşündə açıqlıq, adaptasiya qabiliyyəti və mədəni sintez meyillərini gücləndirmişdir.

Məhz bu tarixi-coğrafi reallıq azərbaycanlı kimliyinin monolit olmasa da, daxili bütövlüyə malik bir struktur kimi formalaşmasına zəmin yaratmışdır. Antik dövrdə Atropatena və Qafqaz Albaniyası kimi dövlətlərin mövcudluğu Azərbaycan ərazisində erkən siyasi təşkilatlanmanın və dövlətçilik təfəkkürünün möhkəm əsaslara söykəndiyini göstərir. Bu dövlətlər əraziyə bağlılıq, siyasi hakimiyyət anlayışı və kollektiv idarəçilik mədəniyyətinin ilkin formalarının yaranmasına xidmət etmişlər. Orta əsrlərdə Şirvanşahlar, Eldənizlər və Səfəvilər dövlətləri bu ənənələri davam etdirərək azərbaycanlı kimliyinin siyasi və mədəni konturlarını daha da dəqiqləşdirmişlər. Xüsusilə Səfəvilər dövründə Azərbaycan türkcəsinin dövlət dili səviyyəsinə yüksəldilməsi milli kimliyin dil, hakimiyyət və siyasi legitimliklə vəhdət təşkil etdiyini nümayiş etdirmişdir.

Şərq mənəvi dəyərləri ilə Qərb rasional düşüncə sisteminin tarixi sintezi də azərbaycanlı kimliyinə xüsusi ideoloji balans qazandırmışdır. İslam sivilizasiyasının etik və mənəvi prinsipləri ilə Avropa hüquqi və idarəçilik modellərinin qarşılıqlı təsiri cəmiyyətin inkişafında tolerantlıq, multikulturalizm və sosial harmoniyanı əsas davranış norması kimi formalaşdırmışdır. Müxtəlif dini və etnik icmaların tarixən birgəyaşayış təcrübəsi azərbaycanlı kimliyinin inklüziv və açıq xarakter daşıdığını təsdiqləyən fundamental göstərici kimi çıxış edir.

Heydər Əliyev milli ideologiya ilə bağlı ən dəyərli tarixi fikirlərini YAP-ın 6-cı ildönümündə səsləndirmişdir. Əlbəttə, bu, bizdə bir partiya üzvü kimi qürur hissi yaratmaqla eyni zamanda əsas hədəfin daha geniş milli maraqlar olduğunu göstərir. Heydər Əliyev bu tədbirdə Azərbaycan ictimaiyyətini həmrəyliyə və dialoqa çağırmışdır. Azərbaycan siyasi palitrasının bütün üzvlərinə, siyasi həyatda öz neytrallığını qoruyan tərəfsizlərə, geniş ictimaiyyətin bütün üzvlərinə müraciət edərək xalqın taleyüklü milli məsələləri ilə bağlı fikirlərini bölüşmüşdür. Əlbəttə, bu auditoriya təsadüfi seçilməmişdi.

Heydər Əliyev özünün rəhbərlik etdiyi partiyanın bütün ideyalarının milli mənafedən yarandığını göstərmiş, xalqın mənafeyini müdafiə etməyi, öz milli mənafeyini şəxsi mənafedən uca tutmağı aşılamışdır: "Mən bu fikirlərimi bu gün izah edərkən hesab edirəm ki, bu fikirlər Yeni Azərbaycan Partiyasının siyasətində və əməli fəaliyyətində öz əksini tapacaqdır. Bu fikirlər Azərbaycan dövlətinin xarici və daxili siyasətində, əməli fəaliyyətində öz əksini tapır və bundan sonra da tapacaqdır".

Bu vəzifələr cənab İlham Əliyevin prezidentliyi vaxtında da həm partiyadaşlarımız, həm də ümumi ictimaiyyət qarşısında daha güclü və kəskin formada qoyulmuşdur.

*Qloballaşma, informasiya axınlarının intensivləşməsi və beynəlxalq siyasi transformasiyaların dərinləşdiyi müasir dövrdə milli kimlik anlayışı yeni məzmun qazanır. Bu kontekstdə "müasir anlamda azərbaycanlı olmaq" anlayışı təkcə etnik mənsubiyyət, dil və mədəniyyət göstəriciləri ilə məhdudlaşmır. Eyni zamanda müstəqil dövlətçilik təfəkkürü, hüquqi və siyasi məsuliyyət, milli maraqlara sədaqət və qlobal dünyada rəqabətqabiliyyətli vətəndaş modeli ilə səciyyələnir.*

*Azərbaycanlı kimliyi bu gün tarixi yaddaş, çağdaş inkişaf strategiyası və gələcək vizyonun sintezindən formalaşan kompleks bir anlayış kimi çıxış edir. Budur Ümummilli Lider Heydər Əliyevin yaratdığı, Müzəffər Ali Baş Komandan İlham Əliyevin inkişaf etdirdiyi azərbaycançılıq ideologiyası - Azərbaycanı işıqlı gələcəyə aparan ideologiya!*

***Sadiq QURBANOV,***
***Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri***



# Heydər Əliyevin Azərbaycanı informasiya cəmiyyətinə transformasiya etmək siyasəti: *dünən və bu gün*

**Azərbaycana rəhbərlik etdiyi dövrlərdə Ulu Öndər Heydər Əliyevin təşəbbüsü və qayğısı ilə bütün sahələrdə respublikanın dinamik və harmonik inkişafı üçün çox böyük işlər görülmüşdür. Həyata keçirilən texnoloji siyasətin strateji əhəmiyyət kəsb edən belə fəaliyyət istiqamətlərindən biri də informasiya və kommunikasiya texnologiyalarının (İKT) meydana gəlməsi və təşəkkülü ilə bağlı olmuşdur.**

Ümummilli Lider Heydər Əliyev iqtisadiyyatın bütün sektorlarında müxtəlif məqsədli qabaqcıl texnologiyaların tətbiqinə və inkişafına böyük diqqət yetirir, ardıcıl və sistemli siyasət həyata keçirirdi. Nə Ulu Öndərdən öncə, nə də onun hakimiyyətə qayıdışına qədər olan dövrdə heç bir rəhbər onun qədər yeni və qabaqcıl texnologiyalara əhəmiyyət verməmiş, dövlət siyasəti səviyyəsində lazımi diqqət ayırmamışdır. Azərbaycana ilk rəhbərliyi dövründə başladığı və davamlı olaraq həyata keçirdiyi, respublikanın dayanıqlı inkişafında taleyüklü rola malik texnoloji siyasətin nəticəsidir ki, az müddətdən sonra bütün sosial-iqtisadi göstəricilərinə görə geridə qalan Azərbaycan yeni inkişaf mərhələsinə - sənaye cəmiyyətinə qədəm qoymuşdur. Bu siyasət çərçivəsində respublika iqtisadiyyatının əsasını təşkil edən neft, qaz, kimya, maşınqayırma, kənd təsərrüfatı və s. sahələrdə innovativ texnologiyaların və biliklərin tətbiqi, zəruri infrastrukturun yaradılması, cəmiyyətdə texnoloji mədəniyyətin formalaşdırılması istiqamətində düşünülmüş, ardıcıl və sistemli tədbirlər həyata keçirildi. Həmin dövrdə Azərbaycanda çoxlu sayda yeni zavod və fabriklərin, müxtəlif təyinatlı istehsal və xidmət sahələrinin yaradılması, aqrar sektorda mexanikləşdirmə və elektrikləşdirmə işlərinin geniş tətbiqi, böyük sürətlə tikinti sahəsinin, nəqliyyat infrastrukturunun inkişafı şəhər və kəndlərimizin simasını köklü surətdə dəyişdi, onları əhəmiyyətli dərəcədə müasirləşdirdi. Eyni zamanda böyük diqqət ayrılan sahələrdən biri də milli informasiya məkanının formalaşmasına xidmət edən radio, televiziya yayımı və rabitə texnologiyalarının davamlı təkmilləşdirilməsi və inkişafının təmin edilməsi idi.

Bu qədər çətin və mürəkkəb işlərin həyata keçirilməsi, sosial-iqtisadi inkişafın sürətləndirilməsi, əhalinin rifah halının yaxşılaşdırılması kimi strateji vəzifələr elmin və təhsilin də qarşısında çox məsul tələblər qoyurdu. O dövrdə respublikada həyata keçirilən uğurlu texnoloji siyasət nəticəsində zavod və fabriklərdə, kənd təsərrüfatı və emal müəssisələrində istehsal olunan məhsullar daxili və xarici bazarlarda istehlakçılara təqdim edilməyə başlandı. Ümumiyyətlə, Ulu Öndər respublikanın dayanıqlı texnoloji inkişafını təmin etmək məqsədilə həm ittifaqda, həm də xaricdə fəaliyyət göstərən qabaqcıl şirkətlər, istehsalat birlikləri, elmi-texnoloji və innovasiya mərkəzləri ilə işgüzar əməkdaşlığa böyük dəstək verirdi. Davamlı olaraq respublikada strateji məqsədlərə xidmət edən yeni texnologiyaların, qabaqcıl təcrübə və biliklərin Azərbaycana transfer edilməsi üçün beynəlxalq simpoziumlar, konqreslər təşkil edilir, yüksək bacarığa malik mühəndis kadrların, texnoloqların hazırlanması istiqamətində tədbirlər həyata keçirilirdi. Bununla yanaşı, respublikamızda istehsal olunan müxtəlif təyinatlı texnoloji məhsulların xarici ölkələrə ixrac olunması eyni zamanda xalqımızın elmi-texnoloji potensialının, bilik və bacarıqlarının bir göstəricisi kimi respublikanın beynəlxalq imic və nüfuzunun yüksəlməsinə xidmət edirdi.

Bu gün ölkəmizdə yüksək texnologiyaların tətbiqi sahəsində əldə olunmuş çoxsaylı uğur və nailiyyətlərin qazanılmasında mühüm rol oynayan əsas qaynaqlardan biri də Ulu Öndər tərəfindən o dövrlər böyük uzaqgörənliklə həyata keçirilən texnoloji siyasətdir. Heydər Əliyevin həyata keçirdiyi texnolji siyasətin əsas prioritetlərindən biri də Azərbaycanda İKT sənayesinin və infrastrukturunun formalaşması idi. Ötən əsrin 70-ci illərindən başlayaraq, geniş miqyasda və yüksək templə Azərbaycanda İKT sənayesinin əsasını təşkil edən çoxlu sayda elektrotexnika, radioelektronika, cihazqayırma, telekommunikasiya, hesablayıcı maşınlar, mikroelektronika sahəsində müxtəlif təyinatlı məhsullar istehsal edən zavodlar, elm-istehsalat birlikləri, xüsusi konstruktor büroları, innovasiya və texnoloji transfer mərkəzləri yaradılırdı. İstehsal olunan bu məhsullar - informasiya-ölçü cihazları, avtomatik nəzarət və idarəetmə sistemləri, xüsusi hesablayıcı qurğular və s. mülki məqsədlərə xidmət etsə də, əksər hallarda sovet hərbi-sənaye kompleksinin sifarişləri əsasında həyata keçirilirdi.

Əsası həmin dövrdə qoyulan Radiozavod, Elektron Hesablayıcı Maşınlar Zavodu və s. çoxlu sayda istehsal müəssisələri texnoloji cəhətdən yenilənərək bu gün də fəaliyyətini davam etdirir, ölkənin İKT sənayesinin inkişafına əhəmiyyətli dəstək verirlər. Həmin zavodların, birliklərin müxtəlif bölgələrdə - Naxçıvan, Gəncə və digər şəhərlərdə filialları, istehsalat sahələri açılır, yerli əhalinin məşğulluğunun təmin olunması üçün geniş imkanlar yaradılırdı. Ölkəmizdə mikroelektronikanın inkişafı, müxtəlif təyinatlı mikrosxemlərin - çiplərin layihələndirilməsi və istehsalı üçün kifayət qədər geniş imkanlara malik xüsusi zavodlar, texnoloji platformalar (AZON, Mikroelektronika İnstitutu, Peyk zavodu və s.) yaradılırdı. Onların məhsulları əsasən xarici ölkələrə ixrac olunurdu. Azərbaycanın İKT sənayesinin tərkib hissələrindən biri olan telefon, teleqraf və poçt infrastrukturu və xidmətləri də xeyli təkmilləşdirilir və inkişaf etdirilirdi.

O dövrü xarakterizə edən cəhətlərdən biri də ondan ibarət idi ki, respublikanın mərkəzi idarəetmə və icra orqanlarının, böyük birlik və komplekslərinin nəzdində informasiya-hesablama mərkəzləri yaradılırdı. Bu mərkəzlərin əsas vəzifəsi aid olduqları qurumların fəaliyyətinə dair kağız üzərində olan məlumatlar əsasında verilənlər bazalarının, avtomatlaşdırılmış idarəetmə və informasiya emalı sistemlərinin işlənib istismar edilməsi idi. Həmin dövr dünyada hələ fərdi kompüterlər istehsal olunmadığından bütün işlər böyük qabaritə malik universal hesablayıcı maşınlar əsasında həyata keçirilirdi. İKT sənayesinin formalaşması ilə əlaqədar respublikada həyata keçirilən kompleks tədbirlər və davamlı texnoloji siyasət nəticəsində Azərbaycanın əmək bazarında yeni ixtisaslar - kompüter və elektronika mühəndisləri, proqramçılar, sistem administratorları, konstruktorlar, texnoloqlar və s. üzrə peşələr meydana gəlməyə başladı. Başqa sözlə, o dövrün məhdud elmi-texnoloji imkanları çərçivəsində respublikada İKT sənayesinin yüksək bilik və bacarıqlara malik milli kadr potensialı formalaşdı. Elə həmin mütəxəssislər ordusu Sovet İttifaqı süquta uğradıqdan sonra hazırda müstəqil Azərbaycanın maraqlarına uyğun müxtəlif sferalarda fəaliyyətlərini şərəflə davam etdirərək ölkənin rəqəmsal inkişafına layiqli töhfə verirlər.

Ulu Öndərin rəhbərliyi ilə respublikada həyata keçirilən texnoloji siyasətin əsas prioritetlərindən biri də, digər sektorlarla yanaşı, İKT sənayesinin daha güclü, yüksəkixtisaslı kadrlar korpusunu formalaşdırmaq idi. Bu məqsədlə əksər şəhər və rayonlardakı müvafiq ali və orta ixtisas təhsili müəssisələrində İKT üçün zəruri olan maddi-texniki baza formalaşdırılır, laboratoriyalar, hesablama mərkəzləri açılır, tədris müddətində tələbələr sovet respublikalarının müvafiq zavodlarına, istehsalat birliklərinə göndərilirdilər. Eyni zamanda xarici dillərdə dərc edilən tədris materialları müntəzəm olaraq Azərbaycan dilinə çevrilir, yeni dərsliklər hazırlanırdı. Bu istiqamətdə yetişdirilən kadrların keyfiyyətini yüksəltməyə xidmət edən məsələlərdən biri də ondan ibarət idi ki, tədris prosesi və mütəxəssis hazırlığı respublikanın müvafiq zavod və istehsalat komplekslərinin imkanlarından istifadə edilməklə həyata keçirilir, gələcəyin mühəndis-texniki işçilərinin nəzəri biliklər əldə etmələri ilə yanaşı, praktiki vərdiş və bacarıqlarının formalaşdırılması üçün lazımi imkan və şərait yaradırdılar.

Bütün bu görülən kompleks işlərlə yanaşı, Ümummilli Liderin təşəbbüsü və bilavasitə qayğısı ilə çox böyük uzaqgörənliklə həyata keçirilən strateji siyasətin əsas hədəflərindən biri də Sovet İttifaqı rəhbərliyinin dəstəyini almaq və digər respublikaların qabaqcıl ali məktəblərində azərbaycanlı gənclərin təhsil əldə etmək imkanlarına nail olmaq idi. O zaman bununla bağlı əsas problem rayon və kəndlərdə orta məktəbi yüksək nəticələrlə bitirmiş, lakin əksəriyyəti rus dilində lazımi səviyyədə bilik və danışıq qabiliyyətinə malik olmayan gənclərin respublikadan kənar ali məktəblərdə təhsil almaq imkanlarının olmaması idi. Xaricdə təhsillə bağlı bu kimi problemlər Ulu Öndərin qayğısı ilə həll olunduqdan sonra təxminən 14 min azərbaycanlı gənc həmin universitetlərdə, institutlarda yüksəkkeyfiyyətli bilik əldə edib vətənə qayıtdılar, müxtəlif sahələrdə uğurla fəaliyyət göstərdilər. Həmin məzunlara respublika rəhbərliyi səviyyəsində xüsusi qayğı göstərilir, yaşayış və iş yerləri ilə təmin olunur, cəmiyyətdə layiqli mövqe tutmaq üçün hər cür dəstək verilirdi. Sonralar bu kadr potensialı dövlət idarəetməsində, iqtisadiyyatın müxtəlif sektorlarında, elm və təhsildə çox səmərəli fəaliyyət göstərərək ölkənin inkişafına böyük dəstək verdi. Uzaqgörən, müdrik siyasətin davamlı və sistemli həyata keçirilməsi nəticəsində Azərbaycandan kənarda təhsil alan tələbələrin ixtisasları da əsasən o dövrün ideologiyası ilə bağlı olan peşələr üzrə yox, məhz dəqiq elmlər və İKT profilinə dair biliklərə aid idi.

Ulu Öndər Azərbaycanda bütün elmi istiqamətlər üzrə yeni bilik sahələrinin inkişafına böyük dəstək verirdi. Bu siyasət çərçivəsində diqqət ayırdığı sahələrdən biri də İKT profilli fənlər - tətbiqi riyaziyyat, kibernetika, informatika, telekommunikasiya, avtomatika və s. üzrə aparılan elmi-nəzəri və praktiki tədqiqatların aparılması ilə əlaqədar idi. Bir tərəfdən qeyd olunan sahələr üzrə yeni elmi müəssisələr, laboratoriyalar təşkil olunur, digər tərəfdən həm respublika daxilində, həm də Sovet İttifaqının aparıcı elm və təhsil mərkəzlərində gənc alim və tədqiqatçılar hazırlanırdı. O dövrdə aparılan tədqiqatların əsas prioritetləri həmin fənlər çərçivəsində fundamental araşdırmalar aparmaqla yanaşı, respublika sənayesinin bütün sahələrində, əsasən neft-qaz, kimya, kənd təsərrüfatı, sosial-iqtisadi sferada proseslərin avtomatlaşdırılması, kompüter texnologiyalarının geniş tətbiqi, idarəetmənin və xidmətlərin səmərəliliyinin yüksəldilməsindən ibarət idi. Bu tədqiqatlar əsasən Azərbaycan Elmlər Akademiyasının institutlarında, həmçinin ali təhsil müəssisələrində, eyni zamanda elmlə istehsalat arasında innovativ körpü funksiyasını yerinə yetirən, elmi nəticələrin praktikaya sürətlə tətbiqini həyata keçirməyə xidmət edən xüsusi-konstruktor bürolarında, texnoloji transfer mərkəzlərində yerinə yetirilirdi.

Digər bir formalaşmış ənənə ondan ibarət idi ki, elmi müəssisələrdə çalışan alimlər eyni zamanda ali təhsil müəssisələrində gənc kadrların hazırlanmasında yaxından iştirak edirdilər. Elm və təhsil arasında yaranmış bu inteqrativ münasibətlər bir tərəfdən ölkənin İKT sənayesi üçün keyfiyyətli kadrların hazırlanmasına xidmət edirdisə, digər tərəfdən xüsusi istedada, qabiliyyətə malik olan gənclərin elmi müəssisələrə işə gəlməsinə imkan yaranır, həmçinin onlar digər sovet respublikalarının qabaqcıl tədqiqat mərkəzlərinə göndərilirdilər. Həyata keçirilən bu siyasət nəticəsində o dövrün reallıqları və məhdudiyyətləri şəraitində respublikamızda İKT sənayesinin təşəkkülü və inkişafı üçün elm-təhsil-istehsalat əlaqələri, işgüzar əməkdaşlıq münasibətləri formalaşdı.

Azərbaycan üçün yeniliklərdən biri də kosmik sahədə tədqiqatların aparılmasına başlanılması idi. Bu təşəbbüsün də əsası 1973-cü ildə Bakıda Beynəlxalq Astronavtika Federasiyasının konqresinin keçirilməsi zamanı Ulu Öndər tərəfindən qoyuldu. Qısa müddət ərzində respublikada kosmik problemlər üzrə xüsusi tədqiqat mərkəzləri, elm-istehsalat birliyi, konstruktor büroları yaradıldı. Bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə formalaşan, dövlətin strateji maraqlarına xidmət edən kosmik sənayenin ilk dayaqlarından biri də məhz o dövrdə həyata keçirilən uzaqgörən, müdrik siyasətdir.

Bu illər ərzində respublikada İKT-nin müxtəlif elmi istiqamətləri üzrə çoxlu sayda alimlər yetişdirildi, dünyanın aparıcı tədqiqat mərkəzləri ilə sıx əməkdaşlıq münasibətləri quruldu, aktual problemlər üzrə beynəlxalq konfranslar və simpoziumlar keçirildi. Ən əsası isə İKT-nin müxtəlif problemləri üzrə elmi məktəblər formalaşdı və onların fəaliyyəti, ənənəsi, varisliyi bu gün də davam edir.

Ulu Öndərin təşəbbüsü ilə yaradılan, daim onun qayğısı altında inkişaf edən və Azərbaycanın İKT sənayesinə intellektual dəstək verən elmi qurumlardan biri də Elm və Təhsil Nazirliyinin İnformasiya Texnologiyaları İnstitutudur. İnstitutun əsasını təşkil edən ilk qurum Ulu Öndərin qərarı ilə 1971-ci ildə Azərbaycan Elmlər Akademiyasının Kibernetika İnstitutunun nəzdində yaradılan Avtomatlaşdırmış idarəetmə sistemləri şöbəsidir. Bu qurumun təşkil olunmasında əsas məqsəd dövlət hakimiyyəti orqanlarında, nazirlik və komitələrdə, sosial-iqtisadi sahələrdə, istehsalat birliklərində riyazi metodların, hesablama üsulları və kompüter texnologiyalarının tətbiqi ilə yaradılması nəzərdə tutulan müxtəlif səviyyəli və təyinatlı avtomatlaşdırılmış idarəetmə və informasiya emalı sistemlərinin layihələndirilməsinə və tətbiqinə dəstək vermək, həmçinin həmin sistemlərin əsasında o zamanlar Sovetlər Birliyinin müvafiq infrastrukturunun tərkib hissəsi olan "Azərbaycan" Respublika Avtomatlaşdırılmış İdarəetmə Sisteminin formalaşmasına elmi-metodiki dəstək vermək, qurumlararası koordinasiya işlərini həyata keçirmək, elmtutumlu tətbiqi-innovativ araşdırmalar aparmaq və yüksəkixtisaslı milli kadrlar hazırlamaq idi. Müasir terminlə desək, Ulu Öndərin bu elm qurumunun qarşısına qoyduğu əsas vəzifə o dövrün texnoloji imkanları, siyasi-iqtisadi məhdudiyyətləri çərçivəsində Azərbaycanda rəqəmsal dövlətin qurulması idi və bu fəaliyyətin nəticəsində respublikada şəbəkə texnologiyalarının, müxtəlif təyinatlı informasiya sistemlərinin, məlumat-hesablama mərkəzlərinin yaradılmasının əsası qoyuldu, yüksək bacarığa malik İKT mütəxəssisləri yetişdi.

O dövrdə bu tədqiqat qurumunun alim və mütəxəssisləri tərəfindən telefon xətləri üzərində müxtəlif təşkilatlara mənsub olan universal elektron hesablayıcı maşınların bir-biri ilə və digər sovet respublikalarının uyğun sistemləri ilə əlaqələrini təmin edərək respublikada ilk dəfə eksperimental şəbəkə infrastrukturunun yaradılmasına nail oldular. Bu illər ərzində əldə olunmuş təcrübə, bilik və bacarıqlar nəticəsində, ötən əsrin 90-cı illərinin əvvəllərində ölkəmizin beynəlxalq internet şəbəkəsinə qoşulması həyata keçirildi. 1997-ci ildə isə Avtomatlaşdırılmış idarəetmə sistemləri şöbəsinin bazasında İnformasiya-Telekommunikasiya Mərkəzi yaradıldı.

Sonrakı dövrdə müstəqil Azərbaycanın qarşısında duran elmtutumlu strateji problemlərin həllinin təmin edilməsi məqsədilə bu mərkəzin qarşısında çox mühüm əhəmiyyətə malik vəzifələr qoyuldu, onun gələcək fəaliyyəti, prioritet istiqamətləri müəyyənləşdirildi. 1990-cı illərin sonlarından başlayaraq, bütün dünya üzrə internet texnologiyalarının genişlənməsi, cəmiyyət həyatının müxtəlif sahələrinə İKT-nin sürətlə sirayət etməsi, bu istiqamətdə yeni rəqəmsal reallıqların, çoxlu sayda elmi problemlərin meydana gəlməsi, elmi kadrların hazırlanması kimi zəruri və aktual məsələlər nəzərə alınaraq, Ulu Öndər tərəfindən 2002-ci ildə qeyd olunan mərkəzin əsasında İnformasiya İnstitutunun yaradılması haqqında qərar qəbul edildi. Həmin dövrdən etibarən institut artıq yeni qlobal çağırışlar və imkanlar şəraitində ölkədə rəqəmsal dövlətin formalaşması və onun kibertəhlükəsizliyinin təmin olunmasının elmi-nəzəri və praktiki problemlərinin araşdırılmasını həyata keçirir, həmçinin bu istiqamətdə qəbul olunmuş dövlət proqramları və strategiyalarından irəli gələn vəzifələrin icrasında yaxından iştirak edir, elm və təhsilin inteqrasiyasına dəstək verir, gənc alimlər yetişdirir, beynəlxalq layihələrdə ölkəni təmsil edir.

Məlumdur ki, Ulu Öndərin hakimiyyətə qayıdışı vaxtı müstəqilliyini yeni bərpa etmiş Azərbaycan dərin siyasi-iqtisadi böhran içində idi. Ölkə ərazisində müharibə gedir, torpaqlarımız işğal olunurdu. Əhalinin müəyyən hissəsi qaçqın düşmüş, cəmiyyətdə vətəndaş müharibəsi təhlükəsi yaranmışdı. Sözün həqiqi mənasında, Azərbaycan müstəqilliyini və dövlətçiliyini itirmək riski ilə üzləşmişdi. Belə bir xaotik şəraitdə ölkədə əvvəllər qurulmuş demək olar ki, hər şey dağıdılmışdı. Bu vəziyyətdə respublikada vaxtilə fəaliyyətdə olan İKT sənayesi və infrastrukturu, digər tərəfdən keçmiş Sovet İttifaqı ilə əlaqəli olan telekommunikasiya sistemləri də böyük ziyan görmüşdü. İstismarda olan İKT sistemləri və qurğuları mənəvi və fiziki aşınmaya məruz qaldığından müasir dövrün tələblərinə cavab vermirdi. Bu cür texnoloji imkanların olmaması səbəbindən müstəqil Azərbaycan informasiya və kommunikasiya blokadasına düşmüş və həqiqətləri dünya ictimaiyyətinin diqqətinə çatdırmaq mümkünsüz olmuşdu. Bu istiqamətdə mövcud olan problemlərin həlli üçün müəyyən təşəbbüslər irəli sürülsə də, dövlətin büdcəsində zəruri vəsait olmadığından onları reallaşdırmaq mümkün deyildi.

Ulu Öndər tərəfindən həyata keçirilən kompleks fəaliyyət nəticəsində düşmənlə atəşkəsə, ölkə daxilində sabitliyə və vətəndaş həmrəyliyinə nail olunması, xarici investorların respublika iqtisadiyyatının dirçəlməsinə cəlb edilməsi, Azərbaycan xalqının maraqlarına xidmət edən neft strategiyasının formalaşması, dünyanın aparıcı neft-qaz şirkətləri ilə "Əsrin müqaviləsi"nin bağlanması digər mühüm sahələrlə yanaşı, İKT sənayesinin və infrastrukturunun da yenidən qurulmasına zəmin yaratdı. Ötən əsrin 90-cı illərinin ortalarından başlayaraq ölkəmizdə rabitə, poçt, teleradioyayım sistemləri və infrastrukturu müasir texnologiyaların tətbiqi ilə əsaslı şəkildə yenidən qurulmağa başladı, dünyanın aparıcı şirkətlərinin dəstəyi ilə vətəndaşlara keyfiyyətli stasionar və mobil telekommunikasiya xidmətləri göstərilməsinə nail olundu. Eyni zamanda əvvəllər İKT sənayesinin əsasını təşkil edən zavodların, istehsal sahələrinin fəaliyyətinin bərpası və təkmilləşdirilməsi üçün zəruri tədbirlər həyata keçirildi.

Ölkədə telekommunikasiya sektorunda aparılan bu texnoloji siyasət və islahatlar nəticəsində internet şəbəkəsinin milli infrastrukturunun yaranması və inkişafına böyük diqqət ayrıldı, yeni sosial-iqtisadi siyasətin tələblərinə müvafiq olaraq İKT sənayesinin biznes sektoru formalaşmağa başladı, çoxlu sayda milli şirkətlər, innovasiya mərkəzləri meydana gəldi. Eyni zamanda İKT sahəsində kadrların hazırlanması, milli maraqlara xidmət edən elmtutumlu strateji problemlərin həllinə ölkənin müvafiq elmi-tədqiqat və ali təhsil müəssisələri cəlb olundu, onların fəaliyyətinə dövlət tərəfindən böyük dəstək verildi. Belə bir mürəkkəb şəraitdə Ulu Öndərin rəhbərliyi altında həyata keçirilən siyasətin nəticəsində digər istiqamətlərlə yanaşı, texnoloji tənəzzüldən inkişafa doğru əhəmiyyətli bir dirçəliş müşahidə olunmağa başladı.

2000-ci ildə BMT-nin Baş Assambleyasının toplantısında sivilizasiyanın yeni inkişaf mərhələsi olan informasiya cəmiyyətinin minilliyin ideologiyası kimi tanınması haqqında xüsusi bəyannamə qəbul edildi. Bu bəyannamədə irəli sürülən ideyaları, həmçinin ölkədə İKT sahəsində yaranmış rəqəmsal reallıqları və imkanları əsas tutaraq, 2002-ci ildə Ulu Öndər cəmiyyətin bütün sahələrində, dövlət və biznes sektorlarında kompüterləşdirmə, şəbəkələşdirmə və informasiyalaşdırma istiqamətində tədbirlərin aparılmasına dəstək verən bir dövlət strategiyasının işlənməsi haqqında tarixi qərar qəbul etdi. Bununla da Azərbaycanda sənaye cəmiyyətinin növbəti inkişaf mərhələsi kimi postsənaye, başqa sözlə, informasiya cəmiyyətinin qurulmasına yönəlmiş dövlət siyasətinin əsası qoyuldu.

Nəhayət, 2003-cü ildə Ümummilli Lider Heydər Əliyev tərəfindən ölkədə informasiya cəmiyyətinin formalaşması və inkişafını əsas hədəf kimi müəyyənləşdirən "Azərbaycan Respublikasının inkişafı naminə informasiya və kommunikasiya texnologiyaları üzrə Milli Strategiya" qəbul olundu. Ötən müddət ərzində bu sahədə böyük nailiyyətlər əldə edildi, dövlətin və vətəndaşların maraqlarına xidmət edən güclü rəqəmsal platforma yaradıldı, Yer ətrafı orbitə Azərbaycan kosmik peykləri buraxıldı. Əldə olunmuş bu texnoloji nailiyyətləri nəzərə alaraq, bu ilin fevral ayında Prezident İlham Əliyevin təşəbbüsü və rəhbərliyi altında qlobal texnoloji çağırışlar və risklər kontekstində ölkəmizdə müstəqil, suveren Azərbaycanın maraqlarına cavab verən, yeni rəqəmsal arxitektur tələbləri nəzərə alan süni intellekt və digər qabaqcıl texnologiyaların tətbiqi ilə kibersuveren dövlətin formalaşdırılmasına start verildi, müvafiq qurumlar və alimlər qarşısında vəzifələr müəyyənləşdirildi.

*Mən bir alim, mütəxəssis olaraq bütün bu proseslərin və həyata keçirilən işlərin 50 ildən artıq bir müddət ərzində şahidi, bəzi hallarda isə bilavasitə iştirakçısı olmuşam. Zaman keçdikcə beynəlxalq səviyyədə, xarici ölkələrdə baş verən qanlı-qadalı, təlatümlü hadisələri izlədikcə Ümummilli Lider Heydər Əliyevin nə dərəcədə möhtəşəm, uzaqgörən və müdrik bir ictimai-siyasi xadim kimi xalqımızın taleyində, müstəqil Azərbaycan dövlətinin qorunub saxlanılmasında və inkişafında əvəzsiz xidmətlərinin olduğunu daha dərindən dərk etmişəm.*

***Rasim ƏLİQULİYEV,***
***AMEA-nın vitse-prezidenti, ETN İnformasiya Texnologiyaları İnstitutunun baş direktoru, akademik***

1923 Azərbaycanın özü qədər əbədi 2026

# Heydər Əliyevin siyasi-hüquqi irsi: hüquqi dövlət və insan hüquqlarının təminatı

Azərbaycan xalqının müasir tarixində silinməz iz qoymuş, dövlətçilik ənənələrinin möhkəmləndirilməsi və hüquqi islahatların həyata keçirilməsində müstəsna xidmətlər göstərmiş Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 103-cü ildönümü dərin ehtiramla qeyd olunur. Bu tarix yalnız böyük dövlət xadiminin xatirəsinin anılması günü deyil, həm də onun formalaşdırdığı hüquqi dövlət quruculuğu fəlsəfəsinin, insan hüquq və azadlıqlarına əsaslanan idarəçilik modelinin bir daha yada salınması baxımından xüsusi əhəmiyyət kəsb edir.

Heydər Əliyevin siyasi irsinin əsas sütunlarından birini hüquqi dövlət prinsiplərinin bərqərar olunması təşkil edir. Ulu Öndərin rəhbərliyi ilə Azərbaycanda qanunun aliliyinin təmin olunması, hüquq sisteminin müasirləşdirilməsi və insan hüquqlarının qorunması istiqamətində fundamental addımlar atılmışdır. Xüsusilə müstəqillik dövründə qəbul edilən Konstitusiya və bir sıra mühüm qanunvericilik aktları ölkəmizdə demokratik idarəetmənin və hüquqi mexanizmlərin formalaşmasına güclü təkan vermişdir.

Ümummilli Liderin hüquq siyasətində insan amili daim mərkəzdə dayanmışdır. Ulu Öndər dövlətin əsas məqsədinin vətəndaşın hüquq və azadlıqlarının qorunması, onun layiqli həyat şəraitinin təmin edilməsi olduğunu dəfələrlə vurğulamışdır. Bu yanaşma Azərbaycanın hüquqi inkişaf strategiyasının əsasını təşkil etmiş və bu gün də dövlət siyasətinin prioritet istiqamətlərindən biri kimi davam etdirilir.

### İnsan hüquqlarının qorunması, hüquqi dövlətin qurulması və vətəndaş cəmiyyətinin inkişafı istiqamətində islahatların əsası

Ulu Öndər Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli tələbi ilə ikinci dəfə hakimiyyətə qayıdışından sonra bu sahədə kompleks tədbirlər həyata keçirilmiş və insan hüquqlarının təmini dövlət siyasətinin əsas istiqamətlərindən biri kimi müəyyən edilmişdir.

Müasir dövrdə qanunun aliliyi prinsipinə əməl olunması hüquqi dövlətin əsas əlamətlərindən biri kimi xarakterizə olunur. Bu nöqteyi-nəzərdən cəmiyyət həyatının bütün sferalarını əhatə edən ictimai münasibətlərin hüquqi cəhətdən nizama salınması ilə bağlı islahatların həyata keçirilməsi daim öz aktuallığını qoruyub saxlayır.

Bu bir həqiqətdir ki, demokratik hüquqi dövlət quruculuğu, vətəndaş cəmiyyətinin inkişafı və insan hüquqları sahəsində davamlı islahatların həyata keçirilməsi müasir standartlara cavab verən qanunvericilik bazasının olmasını şərtləndirir.

Layihəsi Ulu Öndər Heydər Əliyevin sədrlik etdiyi komissiya tərəfindən hazırlanan Azərbaycan Respublikasının Konstitusiyası 1995-ci il 12 noyabr tarixində ümumxalq səsverməsi (referendum) yolu ilə qəbul edildikdən sonra insan hüquqlarının səmərəli təmini məqsədilə milli qanunvericilik sisteminin, idarəetmənin, institusional mexanizmlərin yenidən qurulması və inkişaf etdirilməsi sahəsində genişmiqyaslı islahatların həyata keçirilməsi üçün hüquqi baza formalaşmışdır.

Təqdirəlayiq haldır ki, ikinci bölməsinin 48 maddədən ibarət üçüncü fəslinin bütün müddəaları əsas insan və vətəndaş hüquqları və azadlıqlarına həsr olunmuş Konstitusiyanın 12-ci maddəsinin I hissəsində insan və vətəndaş hüquqlarının və azadlıqlarının, Azərbaycan Respublikasının vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsi dövlətin ali məqsədi kimi təsbit olunmuşdur.

Ümummilli Lider Heydər Əliyev müstəqillik dönəmində ölkəmizə rəhbərlik etdiyi illərdə insan hüquq və azadlıqlarının təmini məsələlərini daim diqqət mərkəzində saxlamışdır. Buna görə də Ulu Öndər ictimai münasibətlərin dolğun şəkildə tənzimlənməsində mühüm əhəmiyyətə malik yeni qanunvericilik aktlarının qəbulu da daxil olmaqla həyatın bütün sahələrini əhatə edən hüquqi islahatların həyata keçirilməsinə xüsusi əhəmiyyət vermişdir.

Ulu Öndər Heydər Əliyevin irsi fikir və söz azadlığının təmininə, eyni zamanda yaşamaq hüququ kimi fundamental hüquqi dəyərin qorunmasına böyük töhfə vermişdir. Mətbuat üzərində senzuranın ləğvi və ölüm hökmünün aradan qaldırılması bu hüquqların qorunmasına xidmət etmişdir.

Uğurla həyata keçirilən hüquqi islahatların əsas məqsədi ölkəmizin Konstitusiyasında və tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə təsbit olunmuş insan hüquqları ilə bağlı müddəaların icrasının təmin edilməsindən, demokratik təsisatların və qanunun aliliyi prinsipinin möhkəmləndirilməsindən, bu sahədə qanunvericilik, icra və məhkəmə hakimiyyətlərinin qarşılıqlı fəaliyyətinin təmin edilməsinin təşkilindən ibarət olmuşdur.

### Azərbaycanda Ombudsman təsisatı Ulu Öndərin təşəbbüsü, diqqət və qayğısı nəticəsində yaradılıb

Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə ölkəmizdə insan hüquqlarının müdafiəsi sahəsində mühüm institutlar yaradılmış və effektiv fəaliyyəti təmin edilmişdir. Məhz Ümummilli Liderin siyasi iradəsi nəticəsində Azərbaycanda insan hüquqlarının təmin olunması istiqamətində sistemli və ardıcıl tədbirlər həyata keçirilməyə başlanmışdır. Bu prosesin məntiqi davamı olaraq Ombudsman təsisatının yaradılması ölkəmizdə insan hüquqlarının müdafiəsi mexanizmlərinin gücləndirilməsi baxımından mühüm addım olmuşdur.

Bu gün Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) təsisatı öz fəaliyyəti ilə insan hüquq və azadlıqlarının müdafiəsinə və hüquqi dövlət quruculuğunun inkişafına töhfə verməkdədir. Ulu Öndərin imzalamış olduğu "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" 1998-ci il 22 fevral tarixli fərmanında, eyni zamanda bundan irəli gələn məqsəd və vəzifələri nəzərə alaraq 1998-ci il 18 iyun tarixli sərəncamı ilə təsdiq etdiyi "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı"nda ilk dəfə olaraq Azərbaycanda insan hüquqları üzrə səlahiyyətli müvəkkil təsisatının yaradılması ilə bağlı müddəalar öz əksini tapmışdır.

Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü, diqqət və qayğısı nəticəsində ölkəmizdə məhkəmədənkənar hüquq müdafiə mexanizmi olan Ombudsman təsisatının yaradılması və səmərəli fəaliyyət göstərməsi üçün hüquqi və maddi-texniki bazanın formalaşdırılması istiqamətində kompleks tədbirlər həyata keçirilmişdir.

Ulu Öndər Heydər Əliyevin təşəbbüsü və xeyir-duası ilə yaradılaraq aşkarlıq, şəffaflıq, qanunçuluq, ədalət, qərəzsizlik prinsipləri əsasında fəaliyyət göstərən müstəqil bir qurum olan Ombudsman təsisatı cəmiyyətdə hüquqi şüurun, hüquq düşüncəsinin və hüquq mədəniyyətinin inkişafına, idarəetmənin daha da demokratikləşdirilməsi prosesinin sürətləndirilməsinə öz töhfəsini verməkdədir.

Göründüyü kimi, Ulu Öndərin müstəqil dövlətimizə başçılıq etdiyi dövrlərdə insan hüquq və azadlıqlarının müdafiə və təmin edilməsi ən çox diqqət yetirilən məsələlərdən biri olmuş, qısa müddət ərzində həyata keçirilmiş hüquqi islahatlar çoxsaylı qanunvericilik aktlarının qəbul olunması, fərman və sərəncamların imzalanması, yeni hüquq müdafiə mexanizmlərinin formalaşdırılması ilə nəticələnmişdir.

### Ümummilli Lider Heydər Əliyevin insan hüquqlarının inkişafına yönəlmiş siyasi kursu layiqincə davam etdirilir

Ümummilli Lider Heydər Əliyevin hüquq sahəsindəki fikirləri bu gün də aktuallığını qoruyur. "Qanun hamı üçün birdir" və "qanunun aliliyi təmin olunmalıdır" prinsipləri Ulu Öndərin dövlət idarəçiliyinin əsas dayaqlarından biri kimi qəbul edilir. Hüquqi dövlət quruculuğu yolunda əldə edilən nailiyyətlər, insan hüquqlarının müdafiəsi sahəsində həyata keçirilən islahatlar məhz bu uzaqgörən siyasətin nəticəsidir.

Xüsusilə qeyd edilməlidir ki, Ümummilli Liderin zəngin siyasi və hüquqi irsi möhtərəm Prezident İlham Əliyevin rəhbərliyi, Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti xanım Mehriban Əliyevanın fəal dəstəyi ilə uğurla davam etdirilərək müasir dövrün tələblərinə uyğun şəkildə inkişaf etdirilir. Bu gün ölkəmizdə insan hüquqlarının qorunması, vətəndaş cəmiyyətinin inkişafı və hüquqi islahatların dərinləşdirilməsi istiqamətində həyata keçirilən tədbirlər Heydər Əliyev ideyalarının yaşadığını və inkişaf etdiyini bir daha sübut edir.

Aparılan hüquqi islahatlar çərçivəsində ötən dövr ərzində ölkəmizin hərtərəfli inkişafına xidmət edən yeni dövlət proqramları, strategiyalar, milli fəaliyyət planları, konsepsiyalar, strateji yol xəritələri kimi mühüm sənədlər təsdiq edilərək icra olunmuş, dövlətimiz insan hüquq və azadlıqları sahəsində çoxsaylı beynəlxalq müqavilələrə tərəfdar çıxmış və bu proses hazırda da davam etdirilməkdədir.

Möhtərəm Prezidentin 2007-ci il 18 iyun tarixli sərəncamı ilə Ümummilli Lider Heydər Əliyev tərəfindən ölkəmizdə ilk "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı"nın təsdiq edildiyi 18 iyun tarixinin Azərbaycan Respublikasında İnsan Hüquqları Günü kimi təsis olunması müstəqil dövlətimizin insan hüquqlarına verdiyi yüksək qiymətin növbəti bir bariz nümunəsidir.

Təqdirəlayiq haldır ki, hüquqi islahatlar fonunda Azərbaycan Prezidenti cənab İlham Əliyevin fəal dəstəyi ilə yeni dövrün tələbləri və tərəfdar çıxdığımız beynəlxalq müqavilələrdən irəli gələn öhdəliklər nəzərə alınmaqla mütəmadi şəkildə inkişaf etdirilən Ombudsman təsisatı hazırda ölkəmizdə və beynəlxalq aləmdə böyük nüfuz qazanmışdır.

Sonda qeyd etmək istərdim ki, Ümummilli Lider Heydər Əliyevin müəyyən etdiyi inkişaf yolu Azərbaycan dövlətinin hüquqi və demokratik əsaslar üzərində daha da möhkəmlənməsinə xidmət edir. Ulu Öndərin siyasi kursunun məntiqi davamı kimi həyata keçirilən islahatlar nəticəsində ölkəmiz insan hüquqlarının təmini sahəsində daha da inkişaf edəcək və xalqımız yeni uğurlara imza atacaqdır.

***Səbinə ƏLİYEVA,***
***Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman), hüquq üzrə fəlsəfə doktoru***



# Heydər Əliyevin ideyaları ilə formalaşan gənclik

**Ulu Öndər Heydər Əliyev çalışdığı bütün vəzifələrdə hər zaman Azərbaycanın yüksəlişi üçün əlindən gələni etmişdir. Prezdent İlham Əliyevin qeyd etdiyi kimi, Ulu Öndər bütün dövrlərdə Azərbaycanı inamla irəliyə aparıb: "Heydər Əliyev dahi şəxsiyyət, uzaqgörən lider, cəsarətli insan idi. O, öz həyatını doğma xalqına həsr etmişdir. Bütün dövrlərdə xalqa ləyaqətlə, sədaqətlə xidmət etmişdir. Cəmiyyətin ictimai-siyasi quruluşundan asılı olmayaraq, Heydər Əliyev bütün dövrlərdə xalqın dəstəyini hiss edərək Azərbaycanı inamla irəliyə aparırdı".**

Heydər Əliyev ömrü həmişə azərbaycançılıq işığı olub. Keçmiş SSRİ dönəmində də, SSRİ dağıldıqdan sonra da, xalqın təkidli tələbi ilə müstəqil Azərbaycana hakimiyyətə qayıtdıqdan sonra da...

Ulu Öndər həmişə gənclərə xüsusi diqqət və qayğı ilə yanaşıb. 1993-cü ilin sentyabrın 22-də Ali Sovetdə ölkənin bir qrup gənci ilə görüşdə onların respublikanın və gəncliyin problemlərinə dair fikir və mülahizələrini dinləyən Heydər Əliyev dəyərli tövsiyələrini verdi. Azərbaycanın düşdüyü gərgin şəraiti hərtərəfli təhlil edərək gəncləri ölkənin ictimai-siyasi həyatında daha yaxından iştirak etməyə, ölkənin taleyinin cəfakeşləri sırasında olmağa çağırdı: "Hər bir xalqın, hər bir millətin, hər bir ölkənin gəncləri onun həm bu günüdür, həm də sabahıdır, ümididir. Siz, Azərbaycan xalqının gənc nəsli, bu gün də müstəqil Azərbaycan Respublikasının ictimai-siyasi həyatında böyük rol oynayırsınız. Eyni zamanda müstəqillik yoluna düşmüş Azərbaycan dövlətinin gələcəyinin, xalqımızın daha firavan yaşamasının təməlini qoymaqda iştirak edirsiniz. Buna görə də sizə ümid bəsləyirik".

Bu görüş göstərdi ki, Azərbaycanda gənclərə diqqət və qayğı qarşıdakı dövrdə dövlət siyasətinin əsas istiqamətlərindən biri olacaq. Azərbaycan gəncləri də Ulu Öndərin tövsiyələrini fəaliyyətlərində rəhbər tutaraq dövlətə, dövlətçiliyə böyük sədaqətlə xidmət etməyi özlərinə vətəndaşlıq borcu bildilər.

Heydər Əliyev gənclərlə bağlı dövlət siyasətinin əsas istiqamətlərinin və prinsiplərinin müəyyənləşdirilməsi, gənclərin problemlərinin aradan qaldırılması, ictimai-siyasi fəallıqlarının artırılması üçün uzunmüddətli strategiya müəyyən etdi. Bu strategiya mərhələlərlə həyata keçirilməyə başladı.

1994-cü il iyulun 26-da Gənclər və İdman Nazirliyi, 1995-ci ildə Azərbaycan Respublikası Gənclər Təşkilatlarının Milli Şurası yaradıldı. Azərbaycan gəncləri cəmiyyətdə daha fəal iştirak etməyə başladılar. Gənclər və İdman Nazirliyi yaradıldıqdan sonra dövlət gənclər siyasəti sahəsində mühüm işlər həyata keçirildi, gənc nəslin mənəvi tərbiyəsi və fiziki inkişafı, hüquqlarının müdafiəsi, onların beynəlxalq qurumlarda iştirakı və gənclər təşkilatlarının fəaliyyətinin əlaqələndirilməsi sahəsində lazımi tədbirlər görüldü.

Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə 1996-ci il fevralın 2-də keçirilən Gənclərin I Forumu respublikanın həyatında müstəsna əhəmiyyətə malik bir hadisə oldu. 1997-ci il fevralın 1-də forumun ildönümü münasibətilə gənclərin bir qrupunu qəbul edən Ulu Öndər Heydər Əliyev 2 Fevral - Azərbaycan Gəncləri Gününün elan edilməsi haqqında sərəncam imzaladı.

1999-cu il martın 2-də Azərbaycan Gənclərinin II Forumu keçirildi. Forumda çıxışında Ulu Öndər Heydər Əliyev respublikanın ictimai-siyasi həyatında gənclərin daha fəal iştirakı üçün şəraitin yaradılması, dövlət orqanlarının diqqətini gənclərin problemlərinin həllinə yönəltməsi istiqamətində dəyərli tövsiyələrini verdi və bildirdi ki, XXI əsr gənclərin əsridir.

1999-cu ildə Heydər Əliyev tərəfindən imzalanan "Dövlət gənclər siyasəti haqqında" fərman dövlət gənclər siyasətinin uğurla həyata keçirilməsinin təcəssümü oldu. Bu fərman gənclərin təhsilini, tərbiyəsini, sağlamlığını, intellektual və mənəvi inkişafını, asudə vaxtın təşkili problemlərinin həllini, hüquqların müdafiəsini, respublikanın ictimai-siyasi və mədəni həyatında iştirakını və digər vəzifələri əhatə etdi.

Fərmana müvafiq olaraq dövlət gənclər siyasətinin həyata keçirilməsini təmin etmək və dövlət orqanlarının diqqətini gənclərlə bağlı problemlərin həllinə yönəltmək məqsədilə tədbirlər planı təsdiq edildi. 2002-ci ildə isə "Gənclər siyasəti haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edildi.

Heydər Əliyev deyirdi: "Hər bir Azərbaycan gənci hər şeydən çox, hər şeydən artıq müstəqil Azərbaycanın bu günü, gələcəyi haqqında düşünməlidir". Bu kəlam Azərbaycanda gənclər siyasətinin başlıca mahiyyətinin ifadəsi kimi tarixiləşib...

Gənc nəslin vətənpərvərlik ruhunda formalaşması dövlətin gənclər siyasətinin başlıca məqsədidir. Azərbaycan Prezidenti İlham Əliyev Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi gənclər siyasətini uğurla davam etdirir. Azərbaycan gəncliyi cəmiyyətin bütün sahələrində fəaldır.

Gənclərimiz Vətən müharibəsi zamanı öz mənəvi missiyasını layiqincə yerinə yetirib. Müharibə başlayanda minlərlə gənc döyüşə yollanmaq üçün müraciət etdi. Bu müraciətlər ayrılıqda da, vəhdətdə də vətənpərvərlik ruhunun hesabatı idi. Bu milli əzm ordumuzun döyüş və qələbə ruhunu daha da yüksəltdi və tarixi Zəfər qazanıldı.

Ulu Öndər Heydər Əliyevin ideyaları ilə silahlanan Azərbaycan gəncliyi Prezident İlham Əliyevin ətrafında sıx səfərbərdir və öz uğurları ilə dövlətimizin yüksəlişinə töhfə verir.

***Səbinə XASAYEVA,***
***Milli Məclisin deputatı***

# Atəşkəsdən Zəfərə

## 1994-cü il mayın 12-də imzalanmış atəşkəs razılaşması gələcək böyük qələbənin təməlini yaradan taktiki gediş oldu

Azərbaycanın müasir dövlətçilik tarixində 12 may 1994-cü ildə imzalanmış atəşkəs razılaşması hərbi əməliyyatları dayandırmaqla bərabər, əslində, gələcək böyük qələbənin strateji təməlini yaratdı.

Prezident İlham Əliyevin 2020-ci ildə Amerika Birləşmiş Ştatlarının "Fox News" televiziya kanalına müsahibəsində jurnalistin "Cənab Prezident, 1994-cü ildə Siz müharibədə məğlub oldunuz" sualına verdiyi məşhur cavab bu reallığın fəlsəfəsini olduğu kimi əks etdirir: "Biz müharibədə məğlub olmamışdıq. Biz döyüşü uduzmuşduq. Bu da obyektiv səbəblər üzündən olmuşdur. Birincisi, Azərbaycanda daxili qeyri-sabitlik var idi, Ermənistan da bundan sui-istifadə etdi".

Dövlət başçımızın bu fikri 1990-cı illərin əvvəllərində ölkədəki reallığı ən dəqiq ifadə edən formuladır. Azərbaycan o zaman daxili xaos və iflic olmuş dövlət institutları səbəbindən uduzmağa məruz qalsa da, strateji hədəflərindən əl çəkməmişdi.

### Strateji vaxt

1990-cı illərin əvvəllərində Ermənistanın hərbi təcavüzü, daxili vətəndaş müharibəsi təhlükəsi və iqtisadi böhran ölkəni uçurumun kənarına gətirmişdi.

O dövrdə hakimiyyətdə olan səriştəsiz, qorxaq, xain şəxslərin ölkənin taleyini həll etmək əvəzinə kreslo uğrunda dava aparmaları ərazilərimizin bir-bir itirilməsi ilə nəticələndi.

"Təsadüfi insanlar hakimiyyətə gəldi. Küçələrdən heç bir təhsil almamış, heç bir dövlət işində təcrübəsi olmayan, heç bir biliyə malik olmayan müdafiə nazirləri, dövlət katibləri, parlament sədrləri, prezident vəzifələrinə yiyələndilər və bunun acı nəticəsini Azərbaycan xalqı çəkdi", - deyə, 2024-cü ilin 10 may tarixində Şuşada etdiyi çıxışında Prezident İlham Əliyev Azərbaycanın ən faciəvi günlərinə səbəb olanlar barəsində demişdi.

1993-cü ildə Ümummilli Lider Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışı Azərbaycanın bir dövlət olaraq varlığını qoruması üçün tarixi dönüş oldu.

Bir il sonra atəşkəs razılaşmasının əldə olunması məhz bu kritik anda dahi rəhbərin uzaqgörən gedişi idi.

1994-cü ilin 12 may tarixində Ermənistanla Azərbaycan arasında atəşkəs haqqında saziş - "Bişkek protokolu" qüvvəyə mindi. Sənədə əsasən, tərəflər tezliklə beynəlxalq vasitəçilik sayəsində "Böyük sülh sazişi" imzalamalı idilər. Lakin Ermənistanın üç onillik boyu qeyri-konstruktiv mövqe tutması buna imkan vermədi.

Atəşkəsə dair razılıq əldə olunan vaxta qədər Ermənistanın hərbi təcavüzü nəticəsində Azərbaycanın 20 faiz ərazisi - Xankəndi şəhəri, Xocalı, Şuşa, Laçın, Xocavənd, Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan rayonları, həmçinin Tərtər rayonunun 13, Qazax rayonunun 7, Naxçıvanın Sədərək rayonunun isə 1 kəndi Ermənistan ordusu tərəfindən işğal olunmuşdu. Eyni zamanda hərbi təcavüz nəticəsində 1 milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdü.

Belə bir mürəkkəb şəraitdə atəşkəsin yaratdığı nisbi sakitlik ölkədə hərcmərcliyə son qoymağa, dövlət strukturlarını yenidən formalaşdırmağa və hüquqi dövlətin əsaslarını yaratmağa imkan verdi.

Müharibə alovunun səngiməsi Azərbaycanı xarici investorlar üçün etibarlı tərəfdaş kimi təqdim etməyə də zəmin yaratdı. 1994-cü ilin sentyabrında imzalanan "Əsrin müqaviləsi" bu strateji vaxtın ən böyük qazancı idi. Bu müqavilə ilə həm ölkəyə axan investisiyalar iqtisadiyyatı xilas etdi, həm də Azərbaycanın beynəlxalq arenada siyasi çəkisini artırdı, gələcək hərbi qüdrətin maliyyə sütununa çevrildi.

### Tarixi ədaləti təmin edən sarsılmaz siyasət

Ulu Öndər yaxşı bilirdi ki, işğal altındakı torpaqlar yalnız güclü ordu ilə azad edilə bilər. Bu mənada atəşkəs dövrü müasir və peşəkar nizami ordunun yaradılması üçün lazım olan şəraiti təmin etdi.

Dahi şəxsiyyət eyni zamanda atəşkəs rejimindən istifadə edərək Azərbaycanın ərazi bütövlüyünün hüquqi bazasını beynəlxalq müstəvidə sarsılmaz etdi. Bu dövr ərzində aparılan diplomatik mübarizə dünya birliyinə Ermənistanın işğalçı tərəf olduğunu qəbul etdirdi.

Bu istiqamətdə 1996-cı il ATƏT-in Lissabon sammiti Azərbaycanın diplomatik tarixində ən parlaq səhifələrdən biridir. Ulu Öndər Lissabonda beynəlxalq aləmə Azərbaycanın ərazi bütövlüyünün müzakirə mövzusu olmadığını bəyan etdi, respublikamızın suverenliyi və sərhədlərinin toxunulmazlığını təsdiq edən prinsiplərin qəbul edilməsinə nail oldu. Bu, Ermənistanın diplomatik təcridinin başlanğıcı idi və Azərbaycanın gələcək ərazi bütövlüyünün hüquqi fundamentini polad kimi möhkəmləndirdi.

Atəşkəs gələcəkdə "müharibəni uduzmamaq" üçün lazım olan diplomatik manevr imkanlarını genişləndirdi. Eyni zamanda xalqın vahid bir amal - azərbaycançılıq ideologiyası ətrafında birləşməsi məhz dinc quruculuq illərində reallaşdı.

Ulu Öndər Heydər Əliyevin qoyduğu strateji xətti 2003-cü ildən etibarən Prezident İlham Əliyev yeni müstəviyə yüksəltdi. Atəşkəslə qazanılan zaman mütləq hərbi, siyasi və iqtisadi gücə çevrildi. Belə ki, 1994-cü ildəki "uduzulmuş döyüş" 2020-ci ildə "qalib gəlinmiş müharibə" ilə əvəzləndi.

44 günlük Vətən müharibəsi və 2023-cü ilin antiterror tədbirləri göstərdi ki, 1994-cü ildəki atəşkəs məğlubiyyətin qəbulu deyil, əksinə, düşməni diz çökdürən "dəmir yumruğ"un hazırlıq mərhələsi imiş.

Bu gün Qarabağ və Şərqi Zəngəzurda üçrəngli bayrağımızın dalğalanması Ulu Öndərin 33 il əvvəl başlatdığı uzaqgörən siyasətin parlaq təzahürüdür. 1994-cü ilin mayında qazanılan zaman, bugünkü qüdrətli Azərbaycanın iqtisadi və hərbi sütunlarını qurmağa imkan verdi. Tarixi ədalət məhz vaxtilə Ulu Öndər Heydər Əliyevin yaratdığı sarsılmaz strategiya sayəsində bərpa edildi.

Prezident İlham Əliyevin 2024-cü ildə parlamentdə andiçmə mərasimi zamanı bəyan etdiyi kimi: "Biz öz məsələmizi həll etmişik. Biz bu gün Ağdamdayıq, Füzulidəyik, Laçındayıq, Cəbrayıldayıq, Zəngilandayıq, Qubadlıdayıq, Kəlbəcərdəyik, Şuşadayıq, Hadrutdayıq, Xocalıdayıq, Ağdərədəyik, Əsgərandayıq, Xankəndidəyik!"

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

1923 Azərbaycanın özü qədər əbədi 2026

# Hüquqi dövlət quruculuğunda Heydər Əliyev irsi

**Heydər Əlirza oğlu Əliyev XX əsrdə Azərbaycan xalqının bəşəriyyətə bəxş etdiyi əvəzsiz tarixi şəxsiyyətdir. Bu dahi şəxsiyyət dünyanın ən qüdrətli dövlət xadimləri Franklin Ruzvelt, Şarl De Qoll, Cavahirləl Nehru və Mustafa Kamal Atatürk kimi adını bəşəriyyətin tarixinə qızıl hərflərlə yazdırmışdır.**



Dünya tarixi sübut etmişdir ki, şəxsiyyətlərin gücü, ağlı, cəsarəti, siyasi iradəsi və müdrikliyi mənsub olduğu xalqın, onun yaratdığı dövlətin həyatında əvəzedilməz rola malikdir. Milli liderliklə siyasi liderlik keyfiyyətlərinin bir dövlət adamında birləşməsi bəşər tarixində nadir rast gəlinən unikal haldır. Bu şəxsiyyətlər arasında müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, Ulu Öndər Heydər Əliyevin özünəməxsus yeri vardır. Ulu Öndər fəaliyyət göstərdiyi bütün sahələrdə özünü məhz, birinci şəxs kimi, lider kimi təsdiq etmişdir.

Heydər Əliyev Azərbaycan tarixinin parlaq şəxsiyyətidir. O, gəncliyində Azərbaycan Sənaye İnstitutunun Memarlıq fakültəsinə daxil olmuşdu, memar olmaq istəyirdi. İkinci Dünya müharibəsinin başlanması ona təhsilini başa çatdırmağa imkan verməsə də, Heydər Əliyev tarix yaradan şəxsiyyət kimi əvvəlcə sovet dövründə, sonradan isə müstəqillik illərində Azərbaycan dövlətinin memarı oldu.

Müstəqil, suveren dövlətin qurulması və onun inkişafı hər bir xalq üçün ən böyük nailiyyət sayılır. Çünki ərazi, əhali və siyasi hakimiyyət kimi əsas rəmzləri özündə birləşdirən hər hansı siyasi varlığın dövlət olması üçün onun suverenlik, müstəqillik xüsusiyyətinə malik olması vacib şərtdir. Suverenlik isə öz növbəsində istənilən dövlətin mövcud olması və davamlı inkişafı üçün ilkin və əsas şərtdir. Dövlətin suverenliyi üçün isə ilk növbədə hüquqi-siyasi və sosial-iqtisadi bünövrə yaradılmalıdır.

Bizim ölkəyə münasibətdə qeyd edilməlidir ki, müasir müstəqil Azərbaycan dövlətinin memarı və xalqımızın minillik arzusunu tarixi reallığa çevirmiş Ulu Öndər Heydər Əliyevin 1969-cu ilin "14" iyulunda Azərbaycan KP MK-nın Birinci katibi vəzifəsinə seçilməsi ilə ölkəmizin intibah dövrünə qədəm qoyması belə bir bünövrə rolunu oynadı.

Heydər Əliyev Azərbaycan Respublikasına iki dəfə rəhbərlik etmişdir. Birinci dəfə 14 iyul 1969-cu ildə, ikinci dəfə isə Azərbaycan Respublikası öz müstəqilliyini bərpa etdikdən təxminən 1 il 8 ay sonra, yəni 15 iyun 1993-cü ildə. Ulu Öndərin Azərbaycan Respublikasına rəhbərliyə gəldiyi hər iki dövr ölkənin ən ağır və böhranlı vəziyyət keçirdiyi illərə təsadüf etmişdir. Onun Azərbaycana rəhbərliyə gəldiyi birinci dövr respublika iqtisadiyyatının bütünlükdə dərin və uzunmüddətli böhran mərhələsinə qədəm qoyması ilə, ikinci dövr isə Azərbaycanın tarixində ən ağır, fəlakətli illər ilə üz-üzə qalması ilə səciyyələnirdi. Ulu Öndər Heydər Əliyev hər iki dövrdə Azərbaycan xalqının və dövlətinin maraqlarını, mənafelərini müdafiə və təmin edən düzgün siyasi qərarlar qəbul edib həyata keçirməklə onu düşdüyü ağır vəziyyətdən çıxara bilmişdir. Ulu Öndərin Azərbaycana bilavasitə rəhbərlik etdiyi 23 ilin 13 ili (1969-1982-ci illər) Sovet hakimiyyəti dövrünün, 10 ili (1993-2003-cü illər) isə artıq Azərbaycanın müstəqillik illərinin payına düşür.

Ulu Öndər Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövründə yaradılmış iqtisadi potensial müstəqillik illərində ölkəmizin inkişafında çox mühüm rol oynadı. Dahi şəxsiyyətin həyata keçirdiyi düşünülmüş daxili siyasət sayəsində ölkəmizdə milli özünüdərk, vətənpərvərliyin gücləndirilməsi istiqamətində də vacib addımlar atıldı. O dövrdə müxtəlif sahələrdə yerli kadrların hazırlanması, həmçinin milli şüurun inkişaf etdirilməsi, milli ruhun yüksəldilməsi sahəsində bir çox mühüm işlər həyata keçirildi.

Ötən əsrin 60-cı illərində sənaye və kənd təsərrüfatının ümumi inkişaf səviyyəsinə, milli gəlirin həcminə və əmək məhsuldarlığının artım sürətinə, habelə əhalinin yaşayış səviyyəsinə görə Azərbaycan ittifaq səviyyəsindən geridə qalırdı. Heydər Əliyevin Azərbaycana rəhbərliyinin birinci dövrü məhz belə bir çətin vəziyyətdə başlamışdır. Respublikaya yeni nəfəs, modernləşmə və konseptual yanaşma tələb olunurdu. Heydər Əliyevin apardığı geniş quruculuq işləri və onun şəxsiyyətinə ittifaq səviyyəsində olan hörmətin nəticəsində Azərbaycan aqrar ölkədən aqrar-sənaye ölkəsinə çevrildi. Bu illərdə elm tutumlu sənayenin, o cümlədən elektrik energetikasının, maşınqayırmanın, kimya və neft-kimyanın, həmçinin kənd təsərrüfatının sürətli inkişafı təmin olundu, Azərbaycan əksər iqtisadi göstəricilərinə görə orta ittifaq səviyyəsini ötdü. Azərbaycan istehsalı olan kondisioner, soyuducu və digər sənaye brendləri, nəinki ittifaq bazarlarında satılırdı, hətta xarici ölkələrə ixrac olunmağa başlamışdı. O zaman Heydər Əliyev iqtisadiyyatın əsas probleminin həllinə-məhsuldarlığın artırılmasına nail olmuşdur. Belə ki, 1969-1982-ci illərdə Azərbaycanda ictimai əmək məhsuldarlığı 1,8 dəfə, əhalinin hər nəfərinə düşən pul gəlirləri isə 2 dəfə artmışdır. Heydər Əliyevin rəhbərliyi ilə 13 il ərzində Azərbaycan ən geridə qalmış yerlərdən ən qabaqcıl yerlərə qədər yol keçmişdir və məlumdur ki, SSRİ-nin dağılması ərəfəsində keçmiş ittifaqın tərkibində olan respublikalardan yalnız ikisi tam müstəqil olaraq, öz iqtisadiyyatını idarə etmək imkanına malik idi: Rusiya və Azərbaycan! Sovet İttifaqında Rusiya və Azərbaycan özünü təmin edən, donor respublika idilər. Həmin illərdə Azərbaycanın bu səviyyəyə qalxmasının əsas səbəbi isə keçən əsrin 70-80-ci illərində ona məhz, Heydər Əliyev kimi güclü liderin rəhbərlik etməsi idi. 1982-ci ilin dekabrında Sov.İKP MK-nın Siyasi Bürosunun üzvü seçilən Heydər Əliyev SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə irəli çəkildi. Bu vəzifədə işləyərkən Heydər Əliyev SSRİ-nin iqtisadi, sosial və mədəni həyatının ən mühüm sahələrinə rəhbərlik etmişdi. Həmin dövrdə SSRİ-də Azərbaycanın sosial-iqtisadi inkişafı ilə bağlı önəmli qərarlar qəbul edilmişdir.

1987-ci ildə Heydər Əliyevin sovet rəhbərliyindən istefasından sonra Azərbaycanın problemləri başlamaqla, Dağlıq Qarabağ münaqişəsinin əsası qoyuldu və respublikada ictimai-siyasi və sosial-iqtisadi böhran getdikcə dərinləşməyə başladı. Çünki 1982-ci ilin sonunda Heydər Əliyev SSRİ-nin rəhbərliyində təmsil olunduqdan sonra, xüsusilə də 1988-1993-cü illərdə Azərbaycana rəhbərlik etmiş bəzi səriştəsiz adamların fəaliyyətsizliyi üzündən SSRİ vaxtı xüsusilə də, keçən əsrin 70-80-ci illərində burada yaradılmış böyük iqtisadi potensial ilbəil dağıdılıb talan edilməyə başlanılmış və 1991-1993-cü illərdə özünün kulminasiya mərhələsinə qədəm qoymuşdur. Nəticə etibarilə 1991-ci il oktyabrın 18-də öz müstəqilliyini yenicə bərpa etmiş gənc Azərbaycan Respublikası o vaxt bəlkə də bütün tarixi boyunca ən çətin və mürəkkəb günlərini yaşayırdı. Bir tərəfdən ölkənin üzləşdiyi hərbi məğlubiyyət digər bir tərəfdən daxili siyasi böhranla tamamlanırdı. Ölkədə gedən neqativ proseslər, siyasi çəkişmələr, hakimiyyət uğrundakı mübarizə Azərbaycanın müstəqil yaşamasını artıq sual altına qoymuşdu. Ulu Öndərimiz Heydər Əliyevin dediyi kimi, bu dövrdə: "Vəziyyət elə təhlükəli xarakter almışdır ki, 1991-ci ildə əlverişli tarixi şəraitin və taleyin xalqımıza bəxş etdiyi imkandan yaranmış müstəqil dövlətimiz qəsdən və yenidən səriştəsizliklər yaranan idarəsizlik nəticəsində real itirilmək təhlükəsi ilə üz-üzə qalmışdır. Beləliklə də, 1991-1993-cü illər Azərbaycanın müstəqillik tarixində nəinki itirilmiş illər, həm də bu illərdə Azərbaycan "ölüm, ya olum" dilemması qarşısında qalmışdı".

Məhz o zaman dövlət müstəqilliyinin qorunub saxlanması üçün qətiyyətli və iradəli bir şəxsin ölkə rəhbərliyinə gətirilməsi zərurəti yaranmışdı. 1992-ci ildə xaos, anarxiya vəziyyətində olan ölkəyə xalqı bu çətin vəziyyətdən çıxarmaq bacarığı olan güclü bir liderin rəhbərliyi əsas şərt idi. Azərbaycan xalqı bu məsələdə yalnız Ulu Öndər Heydər Əliyev fenomeninə etibar edə bilərdi. Çünki xalq nicat yolunu yalnız Heydər Əliyevin hakimiyyətə qayıdışında görürdü. Elə həmin vaxtlar öz xalqını, dövlətini düşünən 91 nəfər Azərbaycan ziyalısının Heydər Əliyevə müraciəti ilə 21 noyabr 1992-ci ildə Yeni Azərbaycan Partiyası yaradıldı və Heydər Əliyev partiyanın sədri seçildi. Qısa müddət ərzində Ulu Öndər partiyanı inkişaf etdirdi, özünün dediyi kimi, "dünənin, bu günün və sabahın partiyası" səviyyəsinə yüksəltdi. Belə ki, YAP ötən müddətdə ölkəmizdə siyasi sabitliyin və davamlı inkişafın təminatçısı kimi çıxış etmişdir. Az bir vaxtda ümumxalq partiyasına çevrilmiş Yeni Azərbaycan Partiyası bu günə qədər çox böyük, şərəfli və uğurlu yol keçmişdir. Partiyanın ilk addımları Azərbaycanda siyasi sabitliyin bərpasına yönəldildi. Təsadüfi deyildir ki, 1993-cü ilin yayında Azərbaycan vətəndaş müharibəsi başlanan ərəfəsində olanda cəmiyyətimizin bütün ümidləri yenə də Heydər Əliyevin dühası ilə bağlı idi. Respublikamızın yenidən belə ağır vəziyyətə düşdüyü bir vaxtda-1993-cü ilin 15 iyununda xalqımızın tam əksəriyyətinin təkidli tələbi ilə Heydər Əliyevin ikinci dəfə respublika rəhbərliyinə gətirilməsi Azərbaycanı və bütünlükdə xalqımızı çıxılmaz fəlakətdən xilas etdi. Öz xalqından heç bir təmənnası olmayan bu böyük şəxsiyyət ikinci dəfə hakimiyyətə qayıdarkən "Mənim həyatım xalqa məxsusdur və bundan sonra qalan hissəsini də xalq üçün əsirgəməyəcəm. Həyatımın mənasını ancaq xalqa sədaqətlə xidmət etməkdə görürəm. Mənim üçün ən böyük mükafat bundan sonra da xalqın etimadını doğrultmaqdan ibarətdir" - demiş və yenidən respublikaya rəhbərlik etməyə başladığı ilk gündən-Azərbaycanda həyata keçirilən bütün iqtisadi islahatların və köklü dəyişikliklərin təşkilatçısı və ilhamvericisi olmuşdur. Onun gərgin əməyi, səriştəsi, böyük təşkilatçılıq qabiliyyəti, uzaqgörən daxili və xarici siyasəti nəticəsində Azərbaycanda ictimai-siyasi sabitlik bərpa edilmiş, ölkəmiz Avropa Şurasının tam üzvlüyünə qəbul olunmuşdur. Məşhur "Əsrin müqaviləsi" imzalanmış və neft strategiyası işlənib hazırlanmış, dünyanın bir çox super dövlətləri ilə neft kontraktları bağlanmış, Qədim İpək yolu bərpa olunmağa və bu məqsədlə TRASEKA proqramı həyata keçirilməyə başlamışdır. Dünyanın bir çox ölkələri ilə iqtisadi əlaqələrimiz genişlənmiş və möhkəmlənmişdir. Heydər Əliyevin ən böyük və tarixi xidmətlərindən biri də dünyada analoqu olmayan Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərlərinin çəkilməsindən, Azərbaycanı Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin başlıca iştirakçısına cəlb edə bilməsindən ibarətdir. Onun neft strategiyasının uğurla həyata keçirilməsinin nəticəsi idi ki, cəmi bir neçə il ərzində ölkəmizə 10 milyarddan çox ABŞ dolları cəlb edilmiş və həyata keçirilən kompleks tədbirlər nəticəsində Azərbaycanda 1989-cu ildən ötən dövr ərzində ilk dəfə olaraq 1996-cı ildə iqtisadiyyatda dirçəliş baş vermiş və əhalinin pul gəlirlərinin artım səviyyəsi qiymətlərin artım səviyyəsini üstələmişdir. 1991-1995-ci illərdə respublikamızda iqtisadi inkişafın ən əsas makroiqtisadi göstəricisi sayılan Ümumi Daxilli Məhsulun (ÜDM) real həcmi ildə 20-25 faiz, sənaye məhsulu istehsalı isə 15-20 faiz azaldığı halda, 1993-2003-cü illərdə ÜDM istehsalı o vaxtın qiymətləri ilə 22,3 dəfə artaraq, 157,1 milyard manatdan 35,1 trilyon manata, adambaşına düşən ÜDM-un həcmi isə 20,3 dəfə artaraq, 21,3 min manatdan 4320,0 min manata, əhalinin pul gəlirlərinin məbləği 17,9 dəfə artaraq, 135,5 milyard manatdan 24,2 trilyon manata, adambaşına düşən pul gəlirlərinin məbləği 16,2 dəfə artaraq, 18,4 min manatdan 2983,4 min manata, iqtisadiyyatda məşğul işçilərin orta aylıq əməkhaqlarının məbləği isə 174,1 dəfə artaraq, 2,2 min manatdan 383,1 min manata gəlib çatmışdır. 1993-2003-cü illərdə respublikamızda 3,0 minə qədər yeni sənaye müəssisəsi açılmış və 2003-cü ilin əvvəlində onların sayı 5202-yə gəlib çatmışdı. Heydər Əliyevin həyata keçirdiyi "açıq qapı" siyasəti nəticəsində müqayisə edilən dövrdə ölkəmizdə fəaliyyət göstərən xarici və müştərək müəssisələrin sayı 3 dəfədən çox artmışdır. Respublikanın təkcə, sənaye sahəsində 40 dövləti təmsil edən 167 xarici investisiyalı müəssisə fəaliyyət göstərmiş və onlar tərəfindən minlərlə iş yerləri açılmışdır.

Qeyd olunan və olunmayan nailiyyətlərin qazanılmasında Ulu Öndər Heydər Əliyevin iqtisadi strategiyası və taktikası mühüm rol oynayıb. Budur Heydər Əliyevin iqtisadi siyasətinin amalı: qurmaq, yaratmaq, mövcud patensialı qoruyub-saxlamaq, ondan səmərəli istifadə etmək və bu yolla ölkənin iqtisadi və hərbi qüdrətini möhkəmlətmək, ərazi bütövlüyümüzü təmin etmək və xalqın həyat səviyyəsinin yaxşılaşdırılmasına nail olmaq.

Ulu Öndər Heydər Əliyev Azərbaycan xalqına iki əmanət saxladı: birinci, Azərbaycan Respublikasını, bu onun şah əsəridir. İkinci isə ata vəsiyyətinə əməl edən Heydər Əliyev məktəbinin parlaq məzunu olan İlham Əliyevi. Bu gün Prezident İlham Əliyev Ulu Öndərin yaratdığı strategiya əsasında Azərbaycan Respublikasını uğurla inkişaf etdirir. Bu strategiya çərçivəsində təməli Ulu Öndər tərəfindən qoyulmuş və bu gün davam etdirilən dövlət gənclər siyasəti Azərbaycanda gənc nəslin mənəviyyatca zəngin, vətənpərvərlik ruhunda tərbiyəsi, onların hərtərəfli inkişafı və ölkə həyatında fəal iştirakı üçün mühüm zəmin yaradır.

Hazırda Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə gənclər siyasəti keyfiyyətcə yeni mərhələsini yaşayır. Gənclərin mənəvi inkişafı, vətənpərvərlik tərbiyəsi, xarici ölkələrdə təhsili, sosial müdafiəyə ehtiyacı olanların problemlərinin həlli istiqamətində görülən işlər, gənclər təşkilatlarının formalaşması və inkişafı üçün yaradılan şərait və imkan bu sahəyə göstərilən böyük diqqətin nəticəsi kimi qiymətləndirilir.

Azərbaycanda gənclərlə bağlı qəbul edilmiş normativ hüquqi sənədlər və dövlət proqramları, həmçinin gənclər siyasətində milli və dövlətçilik maraqlarının prioritet olması 44 günlük Vətən müharibəsində həlledici rol oynadı və əsas missiyanı da məhz Ali Baş Komandanın prezidentliyi dövründə yetişən gənclər yerinə yetirdilər.

2020-ci ildə 44 günlük Vətən müharibəsi və 2023-cü il sentyabrın 19-da lokal xarakterli antiterror tədbirləri nəticəsində parlaq Qələbənin əldə edilməsi Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı, dövlət başçısı cənab İlham Əliyevin yenilməz siyasi, hərbi iradə və qətiyyəti, ordumuzun qəhrəmanlığı, cəsarətli əsgər və zabitlərimizin, şəhidlərimizin canı, qazilərimizin qanı bahasına mümkün oldu. Bununla da, ölkəmizin ərazi bütövlüyü və suverenliyi tam bərpa edildi, Azərbaycan Respublikası Konstitusiyasının hüquqi qüvvəsi işğaldan azad edilmiş bütün ərazilərdə bərqərar oldu. Dövlətimizin və xalqımızın həyatında müstəsna əhəmiyyət kəsb edən bu möhtəşəm Qələbə sayəsində dövlət bayrağımız hazırda suverenliyimizin bərpa olunduğu bütün ərazilərdə əzəmətlə dalğalanır. Bununla əlaqədar Azərbaycan Prezidentinin 2024-cü il 19 sentyabr tarixli sərəncamı ilə ölkəmizdə Dövlət Suverenliyi Günü təsis edildi. Torpaqlarımızın işğaldan azad edilməsi və suverenliyimizin tam təmin olunması nəticəsində Əsas Qanunda ehtiva edilən Azərbaycan dövlətinin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qorumaq niyyəti də hazırda tam reallaşıb.

Ölkəmizdə gənclərin təhsil və məşğulluğunun təmin olunması da daim diqqət mərkəzindədir. Bu gün dövlət xətti ilə xarici ölkələrin ali məktəblərində təhsil alan gənclərin ümumi sayı 1127 nəfər təşkil edir. Onların da 232 nəfəri MDB ölkələrinin, o cümlədən 198 nəfəri Rusiyanın payına düşür. Digər ölkələrdə təhsil alan vətəndaşlarımızın sayı isə 895 nəfərdir. Onlardan 72-si Çində, 1-i ABŞ-də, 4-ü İngiltərədə, 3-ü İspaniyada, digər 3-ü Koreyada, 321-i Macarıstanda, 13-ü Rumıniyada, 478 nəfəri isə qardaş Türkiyədə oxuyurlar. Bundan başqa, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə birgə Birinci vitse-prezident Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu tərəfindən gənclərin istedad və bacarıqlarının üzə çıxarılması istiqamətində xaricdə və ölkəmizdə həyata keçirilən bütün layihələr yetişməkdə olan nəslin gələcəyinin etibarlı təminatçısı olmaqla yanaşı, həm də ölkəmizin uğurlarının təbliğində, gənclərimizin fəallığının artırılmasında və onların fəaliyyətlərinin əlaqələndirilməsində mühüm rol oynayırlar. Bu ali diqqət və qayğını daim öz üzərində hiss edən Azərbaycan gəncliyi göstərilən etimadı layiqincə doğrultmağa çalışır və bu yüksək münasibətə cavab olaraq, gənclər bütöv və müstəqil dövlətimiz naminə bütün güclərini səfərbər edir, Vətənin inkişafı üçün səylə çalışır, onlara arxalanan Prezident İlham Əliyevin uğurlu daxili və xarici siyasətini dəstəkləyirlər.

Hazırda dövlətimiz ildənilə güclənərək iqtisadi inkişafının keyfiyyətcə yeni dövrünü yaşayır və onun bilavasitə, təşəbbüsü və iştirakı ilə uğurla həyata keçirilən bir sıra irimiqyaslı layihələr nəinki respublikamızın, eyni zamanda ümumilikdə, regionun təhlükəsizliyinə və iqtisadi inkişafına öz mühüm və əvəzsiz töhfəsini verir. Bu gün işğaldan azad edilmiş ərazilərdə bərpa və yenidənqurma işlərinin həyata keçirilməsi qarşıda duran ən mühüm və prioritet vəzifələrdəndir. Qarabağ və Şərqi Zəngəzurda viran qoyulmuş kənd, qəsəbə və şəhərlər tamamilə yenidən qurulur, doğma torpaqlarımıza həyat qayıdır. Həyata keçirilən bütün bərpa və yenidənqurma işləri Azərbaycan Respublikası ərazisinin vahidliyi, toxunulmazlığı və bölünməzliyi ilə bağlı konstitusiya prinsipinin təmin edilməsinin daha bir əyani göstəricisidir.

*Ümumiyyətlə götürdükdə, Heydər Əliyevin respublikamıza rəhbərlik etdiyi hər iki dövr Azərbaycanda inkişafın yeni mərhələləri-bərpa və dinamik inkişaf mərhələləri; İlham Əliyevin respublikamıza rəhbərlik etdiyi dövr isə Azərbaycanda inkişafın keyfiyyətcə yeni inkişaf mərhələsi kimi tarixə düşmüşdür. Azərbaycanın çağdaş tarixi, böyük şəxsiyyət, Ümummilli Liderimiz Heydər Əliyevin və onun layiqli davamçısı, dünyanın ən islahatçı prezidenti İlham Əliyevin adları və fəaliyyətləri ilə bağlıdır.*

***Rövşən MURADOV,***
***Milli Məclisin deputatı***

2004 *Heydər Əliyev Fondu* 2026

# Heydər Əliyev irsinin işığında

**Xalqların taleyində şəxsiyyət amilinin rolu müstəsna əhəmiyyət kəsb edir. Zamanın ən mühüm proseslərini irəli aparan da, bu proseslərin mərkəzində dayanan da məhz güclü şəxsiyyətlərdir. Bu baxımdan insanların birliyinə istiqamət vermək, dövlətin ideoloji-siyasi əsaslarını yaratmaq, kütləni xalq kimi formalaşdırmaq üçün qüdrətli və qətiyyətli bir milli liderin önə çıxması mütləqdir.**
**XX əsrin ən parlaq şəxsiyyətlərindən və siyasətçilərindən olan Heydər Əliyevin Azərbaycan tarixindəki rolu və xidmətləri ilk növbədə bu missiyanı həyata keçirmiş Ümummilli Lider kimi misilsizdir. Ulu Öndər müstəqil Azərbaycan dövlətçiliyinin milli-mənəvi, siyasi, iqtisadi, ideoloji əsaslarını yaratmış, insanların güclü dövlətə sahib olmaq arzusunu praktik şəkildə gerçəkləşdirmiş və çağdaş tariximizdə əbədiyaşarlığını təmin etmişdir.**

Prezident İlham Əliyevin 2004-cü il 10 mart tarixli "Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin xatirəsinin əbədiləşdirilməsi haqqında" fərmanı ilə dahi şəxsiyyətin dövlətçilik irsinin öyrənilməsi, ölməz ideyalarının geniş təbliği məqsədi daşıyan əlahiddə statuslu ictimai qurum - Heydər Əliyev Fondu yaradıldı. Artq 22 ildir ki, Ulu Öndərin zəngin mənəvi-siyasi irsinin öyrənilməsi, bu böyük dövlət adamının ideyalarının nəsillərdən-nəsillərə ötürülməsi məramı ilə yaradılmış fond Heydər Əliyevin ölkəmizin sosial-iqtisadi, mədəni tərəqqisi, sivil dünya birliyinə inteqrasiyası, vətəndaşlarımızın maddi rifahının yaxşılaşması naminə müəyyən etdiyi siyasəti təbliğ edir. Eyni zamanda bu ideyaların davam etdirilməsinə, müasir dünyamızın çağırışlarına uyğun real layihələrlə ölkəmiz və ümumilikdə bəşəriyyət üçün faydalar yaratmasına nail olur. Nüfuzlu qurum Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərliyi ilə nəcib əməllərin parlaq salnaməsini yazır.

Heydər Əliyev Fondunun fəaliyyət fəlsəfəsinin əsasında çox sadə bir ideya durur: xeyirxalıq və insanlara yaxşılıq etmək. Azərbaycanın birinci xanımı haqlı olaraq hesab edir ki, xoş əməllərlə dünyada çox şeyi yaxşılığa doğru dəyişdirmək mümkündür.

## Sağlam ideologiya - azərbaycançılıq

Ümummilli Liderin Vətəni qarşısındakı ən mühüm xidmətlərindən biri azərbaycançılıq düşüncəsini bütün həmvətənlərini birləşdirən ideologiya halına gətirməsi və onu müstəqil dövlətin ideya əsasına çevirməsidir. Heydər Əliyevin müəyyən etdiyi azərbaycançılıq iki təməl ideyanı özündə birləşdirir - dövlətçilik və vətənpərvərlik. Azərbaycançılıq ölkəmizə qarşı bir çox istiqamətdən yönələn təhdidlərin, doğma yurdumuzu etnik bölgü əsasında parçalamaq cəhdlərinin qarşısında güclü ideoloji və siyasi sipər olaraq dövlətimizi zəhərli ideyalardan hifz etdi.

Heydər Əliyevin baxışlarına görə, azərbaycançılıq ideologiyası dünya azərbaycanlılarının birlikdə mənimsədiyi ənənə və dəyərlərin, Azərbaycanın hüdudlarından kənarda yaşayan soydaşlarımızın hüquqlarının qorunması, tarixi vətənə olan münasibətlərini ehtiva edən, azərbaycanlı düşüncəsini müəyyənləşdirən böyük bir konsepsiyadır. Azərbaycançılıq milli mənsubiyyətindən asılı olmayaraq, özünü azərbaycanlı sayan hər bir insanın birlik mənbəyidir. Bu ideologiya dünyanın müxtəlif səmtlərində yaşayan on milyonlarla azərbaycanlını bir araya gətirən işıqdır.

Bununla yanaşı, azərbaycançılıq ideologiyası təkcə fərdləri birləşdirmir. Eyni zamanda inancların, mədəniyyətlərin, beynəlxalq-humanitar dəyərlərin vəhdətini yaradır. Şərq və Qərb mədəniyyətlərinin dialoquna, türkçülük və avropaçılıq meyillərinin sintezinə, tarixi ənənələrin müasir inkişaf prosesləri ilə qovuşmasına kömək göstərir. Bu səbəbdən də azərbaycançılıq ideologiyası müxtəlif regionlarda, sosial-siyasi sistemlərdə və mədəniyyət mühitlərində yaşayan bütün dünya azərbaycanlıları üçün dəyərlidir. Heydər Əliyev Fondu fəaliyyətində bu amilləri əsas götürür və yerinə yetirdiyi işlər böyük sevgi və rəğbətlə qarşılanır.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın fəaliyyəti azərbaycançılıq ideologiyasının uğurlarına mühüm töhfələr verir və hər bir soydaşımız üçün parlaq nümunələr yaradır. Fondun xəttilə həyata keçirilən layihələr bütün dünyada xalq olaraq mədəni sərvətlərimizin zənginliyini nümayiş etdirir, Azərbaycanın dostlarının sırasını daha da genişləndirir, mədəniyyət diplomatiyasının gücü ilə ölkəmizin beynəlxalq nüfuzuna xidmət edir.

Bütün bunlar Ümummilli Lider Heydər Əliyevin banisi olduğu azərbaycançılıq ideologiyasının təntənəsidir.

## Fondun fəaliyyəti beynəlxalq aləmdə təqdir olunur

Yarandığı gündən fond müxtəlif layihələrlə sağlam həyat tərzini təbliğ edir, Azərbaycan mədəniyyətinin inkişafı və dünyada tanıdılması, mənəvi dəyərlərimizin qorunması istiqamətində hərtərəfli işlər aparır. Dövlətimizin həyata keçirdiyi mədəniyyət diplomatiyasının uğurlarında fondun müstəsna rolu var. Tarixi həqiqətlərimizin dünya ictimaiyyətinə çatdırılmasına, ölkəmizin sivilizasiyalar arasında dialoq, tolerantlıq məkanı kimi tanınmasına, vətəndaş cəmiyyəti quruculuğuna, qloballaşan dünyamıza inteqrasiya prosesində milli-mənəvi dəyərlərimizin mühafizəsinə də fond böyük töhfələr verir.

Heydər Əliyev Fondu respublikamızda və ölkə xaricində fəaliyyət göstərən fondlarla, qeyri-hökumət təşkilatları, ictimai qurumlarla əməkdaşlığı genişləndirir, onlarla birgə layihələr həyata keçirir, Azərbaycanda və xaricdə müasir dünyamız üçün aktual mövzularda tədbirlər, sağlam müzakirə platformaları təşkil edir.

Bu gün tolerantlıq örnəyi kimi tanınan Azərbaycan sivilizasiyalararası dialoqun, beynəlxalq sülh və təhlükəsizliyin təmin olunması istiqamətində ardıcıl olaraq zəruri təşəbbüs və çağırışlarla çıxış edir. Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın rəhbərliyi ilə uzun illərdən bəri həyata keçirilən beynəlxalq qlobal layihələr, humanitar təşəbbüslər ölkəmizin mədəniyyət diplomatiyasının uğurlarıdır. Bu layihələrin hər biri ölkəmizin imicini daha da artırır, Azərbaycanın tutduğu yolu, ümumbəşəri dəyərlərə bağlılığını, yüksək amallarını göstərir. Ən mühüm amil olan bu dəyərlərin qorunmasına istiqamətlənən işlərin aparılmasına xüsusi diqqət yetirilir.




Ötən il Mehriban xanım Əliyevanın Müqəddəs Taxt-Taca - Vatikana rəsmi səfəri ölkəmizin dini tolerantlıq, multikulturalizm və mədəni diplomatiya siyasətinə daha bir parlaq nümunə olmaqla yanaşı, Heydər Əliyev Fondunun uzun illərdir davam edən humanitar və mədəniyyət layihələrinin beynəlxalq səviyyədə tanıdılması baxımından böyük əhəmiyyət kəsb etdi. Mehriban xanım səfər proqramı çərçivəsində həm dini-mədəni, həm tibbi-humanitar, həm də diplomatik görüşlər keçirdi, Azərbaycanın dünyaya açıq və sülhpərvər siyasətini nümayiş etdirdi.

Səfər proqramının ən mühüm məqamlarından biri də fondun prezidentinin Roma Papası XIV Leo ilə görüşərək Vatikan və Azərbaycan arasındakı münasibətlərin inkişafına dair fikir mübadiləsi aparması oldu. Papa Azərbaycanla ikitərəfli əlaqələrin dinlərarası və sivilizasiyalararası dialoqa təkan verdiyini, Heydər Əliyev Fondunun təşəbbüslərinin isə bu əməkdaşlığın möhkəmləndirilməsində mühüm rol oynadığını vurğuladı.

Vatikanda keçirilən görüşlərdə Mehriban xanım açıq şəkildə vurğuladı ki, Azərbaycan müxtəlif dinlərin və mədəniyyətlərin birgə yaşayış modelini qorumaqla sülhün və qarşılıqlı hörmətin bərqərar olmasına töhfə verir. Bu sözlər eyni zamanda ölkəmizin ideoloji mövqeyini əks etdirirdi. Nəticə isə bu idi ki, Azərbaycanın mültikultural dəyərlərə verdiyi töhfələr təkcə siyasi əlaqələrin deyil, həm də diplomatik münasibətlərin göstəricisi kimi çıxış edir. Heydər Əliyev Fondunun burada həyata keçirdiyi layihələr - Kommodilla katakombaları, Müqəddəs Pavel və Pyotr Bazilikalarının bərpası, Apostol Kitabxanası və "Bambino Gesu" xəstəxanası ilə əməkdaşlıq - Azərbaycanın dünyaya açıq və humanitaryönümlü siyasətini nümayiş etdirir.

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın səfərləri, Heydər Əliyev Fondunun layihələri, o cümlədən dini abidələrin bərpası göstərir ki, Azərbaycan yalnız öz dəyərlərini deyil, həm də bəşəri mədəni irsin mühafizəsi missiyasını üzərinə götürür. Bu missiya mədəniyyətlərarası dialoqun praktik modeli kimi qəbul olunur və sülh yaradan dövlət kimi Azərbaycanın beynəlxalq imicini daha da möhkəmləndirir.

Xəbər verildiyi kimi, bu il aprelin 30-da Vatikanda Kançelleriya Sarayında Heydər Əliyev Fondu ilə birgə həyata keçirilən layihələrin təqdimatı mərasimi olub. Tədbirdə Heydər Əliyev Fondu ilə Vatikan arasındakı əməkdaşlığın tarixi və 2012-ci ildən etibarən həyata keçirilən layihələr barədə məlumat verilib. Həmçinin bu layihələri əhatə edən "Mədəniyyətlər körpüsü" ("Pontes Culturae") kitabı, eləcə də Müqəddəs Taxt-Tac ilə Azərbaycan arasında ötən illər ərzində formalaşmış dostluq və əməkdaşlıq münasibətlərini, Heydər Əliyev Fondunun Vatikandakı mədəni-humanitar təşəbbüslərini, həmçinin tarixi və dini irs nümunələrinin bərpası istiqamətində görülmüş işləri əks etdirən sənədli film təqdim olunub.

Müqəddəs Arxeologiya üzrə Pontifik Komissiyasının prezidenti Pasquale Yakobone Heydər Əliyev Fondu ilə Vatikan arasında mövcud əməkdaşlığı yüksək qiymətləndirib. Diqqətə çatdırılıb ki, Heydər Əliyev Fondunun dəstəyi ilə həyata keçirilən bərpa və restavrasiya işləri nəticəsində yalnız abidələrin qorunması deyil, eyni zamanda elmi-tədqiqat və texnoloji sahədə də irəliləyişlər əldə olunub. Restavrasiya prosesində yeni metodların tətbiqi və əldə olunan nəticələr akademik araşdırmaların inkişafına da töhfə verib. Daha sonra Heydər Əliyev Fondunun yəhudilik, xristianlıq və islam dinlərinə həsr edilmiş "Səmavi dinlər" layihəsi çərçivəsində ərsəyə gətirilmiş triptix xalça kompozisiyası nümayiş olunub. Hər üç xalça özündə fərqli dinləri və mədəniyyətləri simvollaşdırır, lakin bir araya gələndə insanlığın ortaq dəyərlərini - sülhü, mərhəməti və ədaləti ifadə edir. Layihə Azərbaycan mədəniyyətinin dərinliyindən gələn universal dəyərlərin, mədəni diplomatiya strategiyasının təcəssümüdür.

Heydər Əliyev Fondu həmçinin Luvr muzeyində islam incəsənəti bölməsinin yaradılmasında iştirak edərək mədəniyyətlərarası dialoqa dəstək verib. Fond muzeyin bərpa işlərində, o cümlədən muzeyin müəyyən hissələrinin konservasyasında maliyyə tərəfdaşı kimi çıxış edib.

## Qlobal humanitar çağırışlara dəstək

Azərbaycan humanitar yardım, ehtiyacı olanlara dəstək və paylaşma ideyalarına sadiqliyini praktiki fəaliyyəti və əməlləri ilə sübuta yetirən dövlətdir. Bu humanist siyasət Heydər Əliyev Fondu tərəfindən də uğurla həyata keçirilir. Qurum təkcə ölkə daxilində deyil, həm də xaricdə reallaşdırdığı mütərəqqi layihələri ilə dünya humanizm hərəkatında özünəməxsus yer tutmaqla beynəlxalq aləmdə Azərbaycan xalqının humanist dünyagörüşünün carçısı və təmsilçisi rolunda çıxış edir. Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın Ər-Riyad Beynəlxalq Humanitar Forumunda iştirakı və "Qlobal humanitar könüllülük: perspektivlər və hədəflər" adlı paneldə çıxış etməsi Azərbaycan dövləti və xalqının bəşəriyyətin ən dəyərli nailiyyətlərindən biri olan humanizmə sadiqliyinin beynəlxalq aləmdə növbəti nümayişidir.

Forumun işində iştirak və çıxış edən Leyla Əliyeva Azərbaycanda bu istiqamətdə həyata keçirilən tədbir və layihələr barədə iştirakçılara müfəssəl məlumat verib. Heydər Əliyev Fondunun təhsil, səhiyyə və sosial sahələr üzrə layihələrinin beynəlxalq səviyyəni əhatə etdiyini, bu fəaliyyətin tərəfdaş təşkilatlar və ölkələr tərəfindən yüksək qiymətləndirildiyini bildirib. Leyla Əliyeva müasir dünyada iqlim dəyişiklikləri kimi böhrana diqqət çəkərək ətraf mühitin və təbiətin qorunması istiqamətində, eləcə də aclığın aradan qaldırılması kimi problemlə üzləşən ölkələrə yardım sahəsində güclərin səfərbər olmasının vacibliyini vurğulayıb. Heydər Əliyev Fondunun vitse-prezidenti Azərbaycanın könüllülük fəaliyyəti üzrə uğurlu modelə sahib olduğunu bildirərək, mövcud humanitar problemlərin həllində könüllülük proqramlarının inkişaf etdirilməsinin əhəmiyyətini qeyd edib.

Bu günlərdə Cenevrədə Heydər Əliyev Fondunun, IDEA İctimai Birliyi və Azərbaycanın BMT-dəki nümayəndəliyinin Cenevrədəki bölməsi və digər beynəlxalq təşkilatlar yanında daimi nümayəndəliyinin birgə təşkilatçılığı ilə MAMA "Ana təbiət" beynəlxalq incəsənət layihəsi təqdim olunub. Qeyd edək ki, layihə ilk dəfə 2024-cü ildə Bakıda, Heydər Əliyev Mərkəzində COP29 iqlim konfransı çərçivəsində təqdim olunub. Daha sonra Manama, Roma, London, Tbilisi, Berlin və Tirana kimi şəhərlərdə nümayiş olunaraq beynəlxalq səyyar platformaya çevrilib. Bu müddət ərzində 28 ölkədən 50-dən çox rəssam planetimizin gələcəyi ilə bağlı qlobal müzakirəyə öz töhfəsini verib.

Millətlər Sarayında keçirilən təqdimat xüsusi simvolik əhəmiyyət daşıyıb. Diplomatiya və beynəlxalq əməkdaşlığın mərkəzində baş tutan sərgi ekoloji məsuliyyətin yalnız siyasi deyil, həm də mədəni və ictimai düşüncə müstəvisində dərk edilməsinin vacibliyini önə çıxarıb.

Mayın 4-də Mərakeşdə İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatının (ICESCO) baş qərargahında keçirilən "İslam dünyasında münaqişə və münaqişədənsonrakı dövrdə mədəni irsin idarə edilməsi" mövzusunda beynəlxalq konfrans çərçivəsində Heydər Əliyev Fondunun və ICESCO-nun birgə təsis etdiyi "Natəvan Mədəni İrs Mükafatı"nın ("Natavan Heritage Excellence Award") ilk təqdimat mərasimi olub.

2025-ci ildə təsis olunan və Azərbaycanın görkəmli şairi, Qarabağ xanının qızı Xurşidbanu Natəvanın şərəfinə adlandırılan mükafat maddi irsin qorunması və idarə edilməsi sahəsində qabaqcıl təcrübəni bölüşmək, təşviq etmək baxımından əhəmiyyət daşıyır. "Natəvan Mədəni İrs Mükafatı" ölkəmizin milli dəyərlərinin qorunmasını, humanizm prinsiplərinə sadiqliyini nümayiş etdirməklə yanaşı, Azərbaycanın ədəbi-mədəni irsinin təbliğində də xüsusi rol oynayır. Heydər Əliyev Fondu və ICESCO tərəfindən təqdim edilən bu mükafat, həmçinin azərbaycanlı şairin xatirəsinə ehtiram olmaqla, Qarabağın zəngin mədəni irsini yaşadır.

Məlum olduğu kimi, bu ilin fevralında Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının təşkilatçılığı, Heydər Əliyev Fondu, Mədəniyyət Nazirliyi və "Gilan"ın dəstəyi ilə Qəbələdə "Qış nağılı" II Beynəlxalq Musiqi Festivalı keçirilib. Ötən ilin oktyabr-noyabr aylarında Heydər Əliyev Fondunun təşkilatçılığı, Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinin tərəfdaşlığı ilə "ART Weekend" festivalı yüksək səviyyədə təşkil edilib. "ART Weekend" bir sıra ölkələrdən incəsənət və mədəniyyət xadimləri, kuratorları bir araya gətirib. Festival günlərində paytaxtın müxtəlif sərgi salonları, muzeylər, təhsil ocaqları və ayrı-ayrı tarixi-mədəni məkanlarında görüşlər, performanslar təşkil olunub.

## Aydın hədəflər: xeyirxahlıq və yaxşılıq

Ölkəmizin ərazi bütövlüyü, suverenliyi uğrunda canını qurban vermiş şəhidlərimizin ailələri, döyüşlərdə yaralanmış hərbçilərimizin sağlamlıq durumu da daim fondun nəzarətindədir. Mehriban xanımın təşəbbüsü və rəhbərliyi ilə həyata keçirilən müvafiq layihələr çərçivəsində qazilərimiz dünyada ən müasir protez istehsalçıları kimi tanınan şirkətlərin yüksəktexnologiyalı məhsulları ilə təmin edilirlər.

Əlilliyi olan şəxslərin cəmiyyətə inteqrasiya imkanlarının genişləndirilməsi üçün Heydər Əliyev Fondunun təşkilatçılığı ilə Naxçıvanda, Gəncədə, Yevlaxda regional informasiya mərkəzləri yaradılıb. Bu mərkəzlərdə gözdən əlilliyi olan və görmə imkanları məhdud insanlara informasiya-kommunikasiya texnologiyalarından istifadə etməklə internetə çıxış, internetdə lazımi informasiyaların tapılması və s. üçün imkanlar təmin edilib.

Fond əlilliyi olan uşaq və gənclərin əl işlərindən ibarət sərgilərin təşkilinə, onların yaradıcılıq potensialının inkişafına da dəstək verir, sosial xidmət müəssisələrində, habelə ahıllar üçün sosial xidmət məkanlarında mütəmadi olaraq aksiyalar, dövlət himayəsində yaşayanlara, aztəminatlı ailələrə dəstək məqsədli ardıcıl tədbirlər təşkil edir.

Ölkənin Birinci vitse-prezidentinin yüksək humanizminin, həssas əhali qruplarına diqqət və qayğısının təcəssümü olan və çox mühüm sosial əhəmiyyət daşıyan layihələrdən biri də son illər müxtəlif bölgələrimizdə tikilən "Məzun evləri"dir. Bu çoxmənzilli yaşayış binaları dövlət uşaq müəssisələrinin məzunu olan, hər iki valideynini itirmiş və valideyn himayəsindən məhrum gənclərin istifadəsinə verilir.

## Fondun aparıcı fəaliyyət sahələri: təhsil və gənclərlə iş

Ölkəmizdə təhsilin inkişafında Heydər Əliyev Fondunun gördüyü işlər maarifçilik tariximizin xüsusi bir səhifəsini təşkil edir. Mötəbər qurumun yarandığı gündən aparıcı bir fəaliyyət sahəsi mövcuddur - bu, təhsil və geniş mənada sosial tərbiyə məsələləridir. "Bu gün hər bir dövlətin, hər bir cəmiyyətin bundan önəmli hədəfi yoxdur" deyir Mehriban xanım Əliyeva.

Heydər Əliyevin "Təhsil millətin gələcəyidir" fikrini rəhbər tutan fond ilk növbədə Azərbaycanın təhsil sisteminin inkişafına mühüm töhfələr verir. Bütün ölkəboyu, eləcə də Azərbaycandan xaricdə təhsil müəssisələrinin inşası və yenidən qurulması, yüksək potensiallı tələbələrin dəstəklənməsi üçün yerli və beynəlxalq təqaüd proqramlarının həyata keçirilməsi, gənclərin vətənpərvərlik ruhunda böyüməsi və biliklərə sahib olması üçün təşkil edilən tədbirlər və layihələr buna aiddir.

Son vaxtlarda Şamaxı rayonunda yerləşən Avropa liseyinin yeni binası Heydər Əliyev Fondu tərəfindən inşa olunub. Gəncə şəhərində yerləşən 37 nömrəli tam orta məktəb fond tərəfindən əsaslı təmir edilib. Ucar şəhərində yerləşən 2 nömrəli tam orta məktəbin yeni binası da Heydər Əliyev Fondunun təşəbbüsü ilə tikilib. Bundan başqa, Cəlilabad rayonunun Göytəpə şəhərində yerləşən Vasif Hüseynov adına 2 nömrəli, Samux rayonunun Alıuşağı kəndində yerləşən Mirzə Fətəli Axundzadə adına, Xətai rayonunda yerləşən Tahir Bağırov adına 59 saylı tam orta məktəblərin yeni binaları Heydər Əliyev Fondunun təhsilimizə verdiyi sanballı dəstəkdir. Xəzər rayonunda yerləşən 324 saylı tam orta məktəb fondun vəsaiti hesabına yenidən qurulub.

Heydər Əliyevin fəaliyyətində gənclər siyasəti hər zaman xüsusi yer tuturdu. Ulu Öndər gənclərin müstəqil Azərbaycanın gələcəyinin təmin olunmasındakı roluna diqqət çəkərək deyirdi: "Gənclərimizə arzu edirəm ki, onlar həmişə sağlam olsunlar, yaxşı təhsil alsınlar, yaxşı tərbiyə alsınlar, cəmiyyətdə öz yerlərini tuta bilsinlər, cəmiyyət üçün faydalı ola bilsinlər, bizim milli ənənələrimizi həmişə yaşatsınlar, valideynlərinə sadiq olsunlar... məktəbdə, ictimai yerlərdə yüksək mədəniyyət nümayiş etdirsinlər".

Mehriban xanım Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondu da layihələri ilə hər zaman Azərbaycan gənclərinin yanındadır. Bu layihələrdə gənclərimiz fəal iştirak edirlər. Onlara öz potensiallarını reallaşdırmaq, öyrəndiklərini həyatda tətbiq etmək, zəngin təcrübə, faydalı bacarıqlar qazanmaq, sosial çevrə formalaşdırmaq imkanı yaradılır. Fondun prezidenti gəncləri bu layihələrə cəlb etməklə ölkəmizdə gənc könüllülər hərəkatını formalaşdırıb. Bütün bunlar Heydər Əliyev irsinin ana xəttini təşkil edən Vətənə, xalqa təmənnasız xidmət ideyasının gənc nəslə aşılanması baxımından misilsiz əhəmiyyətə malikdir. İşğal altındakı torpaqlarımız da məhz bu gənclərin gücü, əzmkarlığı, vətənpərvərliyi, döyüş ruhu sayəsində azadlığa çıxdı.

Heydər Əliyev Fondu tərəfindən həyata keçirilən bütün layihələr məhz gənc nəslin firavan gələcəyinin təminatına yönələn böyük işlərdir. Bu layihələr həm də dünyaya yeni bir Azərbaycanı təqdim edir.

Xocalı şəhərindəki Soyqırımı Memorialı da Heydər Əliyev Fondu tərəfindən hazırlanan konsepsiya əsasında reallaşdırılıb. Memorial Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2025-ci ilin fevralında imzaladığı sərəncama əsasən, Xocalı faciəsi qurbanlarının xatirəsinin əbədiləşdirilməsi, tarixi həqiqətlərin gələcək nəsillərə çatdırılması və milli yaddaşın qorunması məqsədilə yaradılıb.

Ekspozisiya ziyarətçiləri "Faciənin siması" instalyasiyası ilə qarşılayır. Memorialın tavanı boyu uçuşan göyərçin maketləri isə bütün dünyaya sülh arzulayan Xocalının faciə zamanı qətlə yetirilmiş günahsız sakinlərinin xatirəsinə ehtiram əlamətidir.

Bu gün Heydər Əliyev Fondunun həyata keçirdiyi layihələr eyni zamanda mühüm tarixi-ideoloji, siyasi məzmun kəsb edir. Qurum 22 illik fəaliyyəti dövründə Azərbaycanın mədəni diplomatiyasının ən güclü simasına çevrilmişdir. Vatikandan Pekinə qədər uzanan layihələr, Bakı marafonu kimi kütləvi tədbirlər və ICESCO-nun nüfuzlu mükafatlarına layiq görülməsi fondun qlobal miqyaslı çəkisini nümayiş etdirir. Ümummilli Liderin ideyalarını müasir çağırışlarla birləşdirən Heydər Əliyev Fondu bu gün də Azərbaycanın tərəqqisi və insan amilinin uca tutulması naminə öz yoluna daha böyük əzmlə davam edir.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 538-35-55 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32 | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti 23L "Azərbaycan Nəşriyyatı" MMC 4-cü mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 3773
Sifariş 621

Qiyməti 60 qəpik

# Mən həmişə səninləyəm,
## Azərbaycan, Azərbaycan, Azərbaycan!




















HEYDƏR ƏLİYEV və Heydər Əliyev




